Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

İctimai-siyasi, hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 43 (6185) 13 noyabr 2026-cı il

Qiyməti 40 qəpik

QARDAŞLIĞIMIZ SARSILMAZDIR!!!



Vilayət Eyvazov Gəncədə vətəndaş qəbulu və sıra baxışı keçirdi



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri Vilayət Eyvazov noyabrın 11-də və 12-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.

Adalet.az xəbər verir ki, nazir əvvəlcə Gəncə şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Sonra Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Naftalan, Samux, Göygöl, Goranboy, Daşkəsən, Kəlbəcər şəhər və rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 379 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində nazir V.Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib. Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 461 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Əhaliyə 175 milyon manatdan çox ƏDV qaytarılıb

2026-cı ilin yanvar-oktyabr aylarında Azərbaycanda səlahiyyətli banklar tərəfindən istehlakçılara malların alınması və bir sıra xidmətlərin göstərilməsi zamanı ödənilmiş 175 milyon 266,5 min manat ƏDV geri qaytarılıb.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatında bildirilir ki, ƏDV-nin geri qaytarılması neft-qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla, pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərdən alınan mallara şamil olunub.

Bundan əlavə, ƏDV-nin geri qaytarılması mədəniyyət müəssisələrinə və tədbirlərinə giriş, tibbi xidmətlər, eləcə də işğaldan azad edilmiş ərazilərdə yerləşən hotellərdə yerləşmə və gecələmə xidmətləri üzrə ödənilmiş vergini əhatə edib. Bununla yanaşı, 2026-cı ilin yanvar-oktyabr aylarında "Tax Free" sistemi çərçivəsində Azərbaycanda şəxsi istehlak məqsədilə alınmış mallara görə xarici vətəndaşlara dövlət büdcəsindən 8 milyon 271,2 min manat ƏDV geri qaytarılıb.

Ombudsmandan onkoloji xəstələrin müalicəsi ilə bağlı təklif



Onkoloji xəstələrin müasir müalicə üsullarına və yüksək effektivliyə malik dərman preparatlarına əlçatanlığının artırılması, xüsusilə innovativ şişəleyhinə preparatlarla təminatın genişləndirilməsi təklif olunur.

Adalet.az xəbər verir ki, bu təkliflə Milli Məclisin 4 komitəsinin birgə iclasında "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxışında İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva çıxış edib.

Ombudsman təklif edib ki, diaqnostika və müalicə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə dövlət büdcəsində bu istiqamətlər üzrə maliyyə vəsaitləri artırılsın.

Ağciyər İnstitutunun binası boşaldıldı



Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun binasının texniki vəziyyəti ilə əlaqədar korpuslardan birinin fəaliyyəti dayandırılıb.

Bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb. Qeyd edilib ki, uzun müddət istismarda olan binanın texniki vəziyyətinin qiymətləndirilməsi zamanı onun bəzi hissələrinin qəzalı vəziyyətdə olduğu müəyyən edilib. Tibbi personalın və pasiyentlərin təhlükəsizliyini əsas götürülərək müvafiq korpusun fəaliyyətinin dayandırılması qərara alınıb. Pasiyentlərə göstərilən xidmətlərin fasiləsizliyinin təmin edilməsi məqsədilə müvafiq tibbi yardımın Ağciyər Xəstəlikləri Mərkəzinin tabeliyində fəaliyyət göstərən ixtisaslaşmış tibb müəssisələrində təşkili nəzərdə tutulur. Bu çərçivədə pasiyentlərin tibbi göstərişlərinə və müalicə ehtiyaclarına uyğun olaraq müvafiq profilli tibb müəssisələrinə yönləndirilməsi təmin ediləcək. Həyata keçirilən tədbirlərin əsas məqsədi pasiyentlərin və tibb işçilərinin təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda əhaliyə göstərilən tibbi xidmətlərin davamlılığının qorunmasıdır.

Xatırladaq ki, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu 1944-cü ildən fəaliyyət göstərir və Bakının Nizami rayonunun ərazisində yerləşir.

Türkiyə bu məsələdə Rusiyadan imtina etdi

Türkiyə yeni atom elektrik stansiyalarının tikintisinə Rusiyanın dövlət korporasiyası "Rosatom"u cəlb etmək niyyətində deyil.

Bu barədə Türkiyənin Energetika naziri Alparslan Bayraktar bildirib.

"Biz rəqabət qabiliyyətini, şaxələndirmə və ən yaxşı texnoloji təklif kimi amilləri nəzərə alırıq", - deyə Alparslan Bayraktar bildirib.

Nəşrin yazdığına görə, Türkiyə yeni atom elektrik stansiyalarının (AES) tikintisi ilə bağlı Kanada və Cənubi Koreya ilə danışıqlar aparır və yaxın aylarda yekun qərar qəbul etməyi planlaşdırır.



"Texnologiya seçiminə gəldikdə, bu iki təchizatçı bizi müəyyən dərəcədə qane edib", - deyə Türkiyənin energetika naziri Alparslan Bayraktar Antalyada keçirilən BMT-nin COP31 iqlim sammiti çərçivəsində agentliyə bildirib.

Bayraktarın sözlərinə görə, hökumət Kanadanın pensiya fondları ilə maliyyələşdirmə məsələsini də müzakirə edib.

Növbəti AES-in Qara dəniz sahilində yerləşən Sinop şəhərində inşa edilməsi planlaşdırılır. Bundan sonra isə Türkiyə üçüncü ənənəvi AES-in və kiçik modul tipli reaktorların tikintisini nəzərdə tutur.

GÜNÜN LƏTİFƏSİ

Bir gün ər-arvad dalaşır, arvad əsəbiləşib ərini döyür. Ər qorxusundan qaçıb kravatın altına girir.

Arvad:

- Çıx ordan!..

Kişi:

- Çıxmıram.

Arvad:

- Sənə deyirəm çıx ordan!!!

Kişi başını kravatın altından çıxardıb deyir:

- Dedim çıxmayacam, bu evin kişisi mənəm, yoxsa sən?..

İlham Əliyev və Mehriban Əliyeva COP31-in Liderlər Sammitində iştirak ediblər



Noyabrın 11-də Türkiyənin Antalya şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı Sammitdə iştirak etmək üçün Antalyadakı Ekspo Mərkəzinə gəldi.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və BMT-nin Baş katibi Antonio Quterreş Prezident İlham Əliyevi, Sammitdə iştirak edən digər dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammitinin iştirakçıları birgə foto çəkdirdilər.

Sammit bədii hissə ilə başladı.

Sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antoni Quterreş, Avstraliya İttifaqının Baş naziri Entoni Albaniz, Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli, Braziliya Federativ Respublikasının Prezidenti Luiz İnasio Lula da Silva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdilər.

Türkiyə Prezidenti çıxışında əvvəlki COP sədrliklərinin təcrübələrini bölüşdüklərinə görə Azərbaycana və Braziliyaya təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Ukrayna Prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın Baş naziri Mixol Martinin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə toplantısında iştirak etmək üçün İrlandiyada səfərdədir.

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dublində Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb.

Ukrayna Prezidenti dövlətimizin başçısını Zəfər Günü və 12 noyabr - Konstitusiya Günü münasibətilə təbrik etdi.

Görüşdə Prezident Volodimir Zelenskinin Azərbaycana səfəri və səfər zamanı aparılmış müzakirələr məmnunluqla xatırlandı.

Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, eyni zamanda, özəl sektorun xətti ilə iqtisadi əlaqələrin inkişaf perspektivləri müzakirə olundu, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri məsələsi barədə fikir mübadiləsi aparıldı.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlara, xüsusilə elektrik avadanlıqlarının təchizatı məsələsində dəstəyə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda postmünaqişə şəraitində apardığı bərpa və quruculuq işlərinin Ukrayna tərəfindən də böyük maraqla izlənildiyi qeyd olundu, bu xüsusda ölkəmizin təcrübəsinin Ukrayna üçün də əhəmiyyətli olacağı bildirildi.

Görüşdə Azərbaycan və Ukrayna prezidentləri qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi apardılar.

Baş nazirin müavini kimi ilk dəfə COP31-də çıxış etdi

Türkiyədə keçirilən COP31 sessiyasında çıxış edən Azərbaycanın Baş nazirinin müavini Teymur Musayev qardaş ölkənin dialoq, konsensus və qərarların icrasına yönəlmiş Sədrliyini yüksək qiymətləndirib.

Bu barədə Adalet.az-a Nazirlər Kabinetindən verilən məlumatda bildirilib.

Baş nazirin müavini bildirib ki, Azərbaycan da COP29-a sədrliyi dövründə inklüziv prosesin irəliləməsini təmin edib, qəbul olunmuş tarixi Bakı Maliyyə Hədəfi isə qlobal iqlim fəaliyyəti üçün mühüm təməl yaradıb.

Ölkəmizin bu istiqamətdəki fəaliyyəti COP29-dan sonra da davam edib. Belə ki, Braziliya ilə birgə 2035-ci ilədək iqlim maliyyələşdirilməsinin illik 1,3 trilyon ABŞ dollarına çatdırılması yollarını müəyyən edən "Bakıdan Belemə 1,3 trilyonluq Yol Xəritəsi" hazırlanıb. Eyni zamanda, COP Sədrlikləri Üçlüyü çərçivəsində Birləşmiş Ərəb Əmirlikləri və Braziliya ilə "1,5C Missiyasına doğru Yol Xəritəsi", Avstraliya, Braziliya və Türkiyə ilə birlikdə isə "Belem 1,5C Missiyası" həyata keçirilib. Bundan əlavə, Bakıda təşkil olunan 13-cü Ümumdünya Şəhərsalma Forumu və 140-dan çox ölkədən nümayəndələrin qatıldığı BMT-nin İqlim Həftəsi Azərbaycanın çoxtərəfli əməkdaşlığa və qlobal iqlim gündəliyinə sadiqliyini bir daha nümayiş etdirib.

Çıxış zamanı Azərbaycanın ölkə daxilində atdığı konkret addımlara da diqqət çəkilib. Qeyd olunub ki, üçüncü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr çərçivəsində istixana qazı emissiyalarının 40 faiz azaldılması hədəfinin icra müddəti 15 il irəli çəkilərək 2035-ci ilə müəyyən edilib.



Bu yaxınlarda təqdim olunan Uzunmüddətli Aşağı Emissiyalı İnkişaf Strategiyası isə 2060-cı ilədək xalis sıfır emissiya səviyyəsinə çatmağı hədəfləyir. Hazırda ölkəmiz Paris Sazişinin şəffaflıq prinsiplərinə uyğun olaraq ikinci Şəffaflıq Hesabatını müəyyən edilmiş vaxtdan əvvəl təqdim etməyə hazırlaşır.

Enerji keçidinin Azərbaycanın iqlim siyasətinin əsas istiqaməti olduğunu deyən Teymur Musayev ölkədə bərpa olunan enerji üzrə quraşdırılmış istehsal gücünün 2,17 qiqavata - ümumi elektrik enerjisi gücünün 21,5 faizinə çatdığını bildirib. İmzalanmış sazişlərə əsasən, 2030-cu ilədək əlavə olaraq 6 qiqavat günəş və külək enerjisi gücünün yaradılması nəzərdə tutulur ki, bu da qlobal bərpa olunan enerji hədəflərinin üstələnməsi istiqamətində mühüm irəliləyişdir. Paralel olaraq metan emissiyalarının azaldılması, sənayedə enerji səmərəliliyi, ekoloji təmiz nəqliyyat və tullantıların dayanıqlı idarə olunması üzrə tədbirlər davam etdirilir.

Son dövrlərdə baş verən iqlim fəlakətlərinin insanların həyatına birbaşa təsir göstərdiyini xatırladan Baş nazirin müavini inkişaf etməkdə olan ölkələrin maliyyə resurslarına və texnologiyalara çıxışının vacibliyinə toxunub. Vurğulayıb ki, mövcud öhdəliklər yerinə yetirilmədən daha iddialı hədəflərə çağırışların edilməsi çoxtərəfli iqlim prosesinə olan etimadı zəiflədə bilər. Buna görə də əsas prioritet Bakı Maliyyə Hədəfi başda olmaqla qəbul edilmiş qərarların tam həcmdə icrası olmalıdır.

Çıxışının sonunda Teymur Musayev Türkiyənin COP31 Sədrliyinin öhdəliklərdən real nəticələrə keçid üçün mühüm imkan yaratdığını qeyd edib, Azərbaycanın Bakı və Belem proseslərinin irsinə əsaslanaraq qardaş Türkiyə və bütün tərəflərlə sıx əməkdaşlığa hazır olduğunu bəyan edib.

"Məşğul əhalinin 65 faizi əmək müqaviləsi olmadan çalışır"

"Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 385 min nəfər, onlardan məşğul əhalinin sayı isə 5 milyon 105 min nəfər təşkil edir".

Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında Əmək Məcəlləsinə təklif olunan dəyişikliyinm müzakirəsi zamanı bildirib.

"Muzdla, yəni əmək müqaviləsi ilə çalışan işçilərin sayı 1 milyon 776 min nəfərdir, onlardan 834 min nəfəri dövlət sektorunda, 942 min nəfəri isə özəl sektorda fəaliyyət göstərir. Bu da onu göstərir ki, məşğul əhalinin cəmi 35 %-i əmək müqaviləsi ilə çalışır, digər 65 %-i isə əmək müqaviləsi olmadan fəaliyyət göstərir.

Əmək Məcəlləsinə edilən yeni dəyişikliklər bu nisbətin dəyişməsinə və əmək müqaviləsi ilə çalışan vətəndaşlarımızın sayının artmasına gətirib çıxara bilər. Əmək müqaviləsi ilə çalışmaq sadəcə vergi ödənişləri deyil, həmçinin əmək hüquqlarının qorunması və pensiya təminatı baxımından vacibdir. Əmək Məcəlləsinin 58-ci maddəsinə əsasən, əgər işçi əlavə iş yerində işləmək işləyirsə, bu halda həftəlik iş vaxtı normasının yarısını keçməməlidir.



İşçinin əlavə iş yeri əsas iş yeri üçün müəyyən olunmuş müddətdən sonradırsa bu halda işəgötürəndən icazə almağa ehtiyac yoxdur, lakin əsas iş yerinin müddətinə daxildirsə, bu halda mütləq işəgötürəndən icazə almalıdır. Göründüyü kimi, bu maddə əlavə iş yerlərində çalışmaq imkanını qadağan etmәsə də, məhdudlaşdırır. Bu baxımdan da, bu maddəyə baxıb dəyişdirilməsinə ehtiyac var. Çevik iş rejiminə keçildiyi bir dövrdə belə məhdudiyyətlər arzu olunan deyil", - deputat bildirib.

Məzuniyyətin pulla əvəzlənməsinin qadağan olunması təklif edilir

"Məzuniyyət hüququnun təmin edilməsi istiqaməti üzrə dəyişikliklər işçilərin istirahət hüququnun real təmin edilməsinə və milli qanunvericiliyin beynəlxalq əmək standartlarına uyğunlaşdırılmasına xidmət edir".

Adalet.az xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Zaur Əliyev Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında Əmək Məcəlləsinə təklif olunan dəyişikliyin müzakirəsi zamanı bildirib.

"Bu baxımdan, layihə ilə əmək münasibətlərinə xitam verilməsi zamanı kompensasiya ödənilməsi istisna olmaqla, Əmək Məcəlləsində nəzərdə tutulan minimum 21 təqvim günlük əmək məzuniyyətinin pul kompensasiyası ilə əvəz edilməsinin qadağan olunması təklif edilir. Burada əsas məqsəd məzuniyyət hüququnun yalnız maliyyə təminatı kimi deyil, işçinin istirahəti, sağlamlığının qorunması və əmək qabiliyyətinin bərpası üçün nəzərdə tutulmuş fundamental hüquq kimi təmin edilməsidir. Başqa sözlə, işçinin əmək məzuniyyəti hüququnun mövcudluğu ilə yanaşı, həmin hüquqdan faktiki istifadə etməsi də təmin olunmalıdır. Məzuniyyətin kompensasiya ilə əvəz edilməsi işçinin istirahət hüququnun reallaşmasını əvəz edə bilməz.



Layihədə əmək məzuniyyətinin və ya onun bir hissəsinin başqa vaxta keçirilməsi ilə bağlı halların daha dəqiq müəyyən edilməsi nəzərdə tutulur. Bu da praktikada məzuniyyətin keçirilməsi ilə bağlı yaranan qeyri-müəyyənliklərin aradan qaldırılmasına və hüquqi tətbiqetmədə vahid yanaşmanın formalaşdırılmasına xidmət edəcək. Eyni zamanda, müvafiq dəyişikliklərin gömrük, vergi və daxili işlər orqanlarında xidmət keçməni tənzimləyən qanunvericilik aktlarına da şamil edilməsi nəzərdə tutulur", - nazir müavini bildirib.

"Azərbaycan-Türkiyə ittifaqının güclənməsinə xidmət edir"

”Zəfər Günü münasibətilə Türkiyə Yeni Partinin sədri Özgür Özəlin Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngində və Azərbaycan xalqına təbriklərini çatdırmasında qeyri-adi heç nə yoxdur. Özgür Özəl Türkiyədə ana müxalifətin lideri statusunda olsa da, ölkəsinin Azərbaycanla strateji müttəfiqliyin davam etdirilməsində Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğan qədər maraqlıdır. Bu səbəbdən Özgür Özəlin İlham Əliyevlə telefon danışığı Rəcəb Tayyib Ərdoğanın da maraqlarına cavab verir. Özgür Özəlin İlham Əliyevlə telefon danışığının münasibətlərdəki son böhranla əlaqəsinin olduğunu düşünmürəm”.

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, həmin Özgür Özəl 2024-cü ilin noyabrın 8-də də İlham Əliyevə zəng edərək, Azərbaycanın ərazi bütövlüyünün bərpası, 44 günlük Vətən müharibəsində Qələbənin dördüncü ildönümü münasibətilə dövlət başçısını təbrik etmişdi:



”Özgür Özəl iki əvvəlki telefon danışığında Atatürkün ”Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir” ifadəsini xatırlatmışdı. Yeni Parti lideri bundan başqa o zaman sədri olduğu Cümhuriyyət Xalq Partiyasının Avropa Şurası Parlament Assambleyasında və Sosialist İnternasionalında Azərbaycanı müdafiə etdiyini İlham Əliyevin diqqətinə çatdırmışdı. Telefon zənginə və təbriklərə görə Özgür Özələ təşəkkürünü bildirən İlham Əliyev həmin telefon danışığında qeyd etmişdi ki, əvvəllər müəyyən yanlışlıqlar olub, amma bunlar keçmişdə qalıb. İlham Əliyev Yeni Azərbaycan Partiyası ilə CHP arasında əməkdaşlığın müsbət istiqamətdə cərəyan etdiyini vurğulamışdı.Özgür Özəlin hazırda lideri olduğu Yeni Parti Türkiyə cəmiyyətində kifayət qədər dəstəyə malikdir.

İki il sonra Türkiyədə Prezident seçkisi keçiriləcək. Yeni Partinin dəstəkləyəcəyi namizədin dövlət başçısı seçilməsi ehtimalı az deyil. Bu baxımdan bu partiya ilə qurulan dialoq Azərbaycan-Türkiyə ittifaqının güclənməsinə xidmət edir. Yaxın müddətdə Rəcəb Tayyib Ərdoğanın müttəfiqi olan Milliyyətçi Hərəkat Partiyasının lideri Dövlət Bağçalının da Azərbaycana səfəri reallaşa bilər. Türkiyədə millətçi partiya, siyasətçi və ekspertlərin Azərbaycanla münasibətlərə əhəmiyyət verməsi iki ölkə arasındakı yaranan böhranların ortadan qaldırılmasında xüsusi rol oynayır”.

Vasif ƏLİHÜSEYN

«Avropasız danışıqlar və müəyyən atəşkəs razılaşması mümkün hesab olunsa da...»

”Nəhayət ki, Əbu-Dabidə gözlənilən görüş baş tutdu Rusiya və Ukrayna nümayəndələri fevraldan bəri ilk dəfə olaraq Əbu-Dabidə ABŞ-nin vasitəçiliyi ilə üz-üzə oturub 4 saat müzakirə apardılar. Bu görüşdə konkret nəticə əldə olunmasa da Vaşinqton görüşü məhsuldar, Kiyev isə konstruktiv adlandırdı. Görüş Rusiyanın tələbinə uyğun olaraq Avropa İttifaqının nümayəndələrinin iştirakı olmadan keçirildi”.

Adalet.az xəbər verir ki, bunu politoloq Qulamhüseyn Əlibəyli deyib.

Onun sözlərinə görə, Rusiya ilə Ukraynanın atəşkəs və hətta hərbi əməliyyatların tamamilə dayandırılması, humanitar tədbirlər, əsirlərin mübadiləsi kimi məsələləri Avropanın iştirakı olmadan daha məhdud formatlarda müzakirəsi, ABŞ-nin bu prosesdə vasitəçi və ya təminatçı rolunu oynaması tamamilə normal hesab oluna bilər: ”Lakin atəşkəsdən və ya müharibədən sonrakı təhlükəsizlik sistemi, sanksiyaların gələcəyi və Ukraynanın bərpası məsələlərində Avropanı kənarda qoymaq həddindən artıq çətin, praktiki olaraq qeyri-mümkün görünür. Burada onun iştirakı diplomatik nüfuz məsələsi olmaqdan çıxaraq əldə olunan razılaşmanın dayanıqlı və etibarlı olmasına təsir edən əsas amilə çevrilir. Avropanı sülh prosesindin tamamilə kənarda qoymaq praktiki cəhətdən ilk növbədə təhlükəsizlik mülahizələri əsasən çətin görünür”.

Politoloq bildirib ki, Avropa ənənəvi olaraq Rusiyanı öz təhlükəsizliyinə təhdid, Rusiyanın Ukraynaya hücumunu və ərazisinin bir hissəsini işğal etməsini bu təhdidin praktiki təzahürü hesab edir: ”Rusiya Ukrayna müharibəsinin hansı sülhlə başa çatması istər-istəməz Avropanın təhlükəsizlik maraqlarına toxunur. Aİ öz səlahiyyətlərinə və təhlükəsizliyinə aid məsələlər barədə özü qərar verəcəyini bildirir, Ukraynaya etibarlı təhlükəsizlik təminatlarına töhfə verməyə hazır olduğunu bəyan edir. Burada sadəcə danışıqlarda iştirak tələbi deyil, gələcək öhdəliklərin kim tərəfindən qəbul ediləcəyi məsələsi var.



Əgər sülh sazişi Avropa dövlətlərinin Ukraynanı silahlandırması, hərbi hazırlıq keçməsi, maliyyələşdirməsini və ya başqa formada təminat məsələlərini nəzərdə tutacaqsa, bu öhdəliklərin həcmini həmin dövlətlər özü müəyyənləşdirməlidir. Avropanı sülh prosesindin tamamilə kənarda qoymaq praktiki cəhətdən çətinliyi həm də Rusiyaya münasibətdə tətbiq edilən sanksiyalarla əlaqədardır”.

Q.Əlibəyli deyib ki, ABŞ öz sanksiyalarını ləğv edə bilər, lakin Avropa İttifaqının tətbiq etdiyi sanksiyalar barədə qərar qəbul edə və onun tətbiq etdiyi sanksiyaları onun adından ləğv edə bilməz:

”Ukraynanın bərpası da oxşar problem yaradır. Müharibənin dayandırılması böyük maliyyə ehtiyaclarını aradan qaldırmayacaq. İnfrastrukturun yenidən qurulması, investisiyaların sığortalanması və dövlətin uzunmüddətli dayanıqlığının təmin edilməsi illərlə davam edən maliyyə dəstəyi tələb edəcək. Avropadan geniş maliyyə iştirakı gözlənilirsə (belə olmaq ehtimalı çox böyükdür), onu razılaşmanın hazırlanmasından tam uzaqlaşdırmaq icra mərhələsində narazılıq və gecikmələr yarada bilər. Ümumiyyətlə, Avropanın sülh prosesindən tamamilə kənarlaşdırılması Rusiya ilə Ukrayna arasında yaradılması nəzərdə tutulan sülhün ədalətli olmamasına, Ukraynanın daha da zəifləməsinə, Rusiyanın isə hərbi və geosiyasi iştahasının daha da artmasına gətirib çıxara bilər. Başqa sözlə, Avropasız danışıqlar və müəyyən atəşkəs razılaşması mümkün hesab olunsa da, Avropanın təhlükəsizliyinə, səlahiyyətlərinə və resurslarına söykənən geniş sülhü onun razılığı olmadan həyata keçirmək praktiki olaraq qeyri mümkündür.

baxımdan sülh prosesində hərbi və texniki məsələlərin üçtərəfli formatda müzakirə olunması, təhlükəsizlik təminatları və iqtisadi tədbirlərin isə yalnız aidiyyəti tərəflərin, xüsusən də Avropa İttifaqının iştirakı ilə aparılması danışıqlar üçün daha uğurlu variant hesab oluna bilər.

Bu zaman nəzərə alınmalıdır ki, bir masada digərlərinin iştirakı olmadan onların maraqlarına toxuna bilən və icrası mümkün olmayan öhdəliklər qəbul edilməsin.Nəhayət, ədalətli və davamlı sülhün əsas şərti Ukraynanın özünün məcburiyyətsiz qəbul etdiyi və yerinə yetirə bildiyi razılaşmadır. Eyni zamanda, ABŞ ilə Rusiyanın yaxınlaşması da Kiyevin razılığını və təhlükəsizlik ehtiyaclarını ikinci plana keçirə bilməz. Danışıqlarda Avropanın iştirakı bunu əvəz etməsə də, Ukrayna üçün mühüm siyasi dəstəkdir”.

Sübhan

Çinin xarici ticarət balansının müsbət saldosu 1 trilyon dolları keçib

Bu ilin yanvar-oktyabr aylarında Çinin xarici ticarət balansının müsbət saldosu 1,04 trilyon ABŞ dolları təşkil edib

Adalet.az ”Euronews”a istinadən xəbər verir ki, bu barədə ölkənin Baş Gömrük İdarəsi məluma yayıb.

Qeyd olunub ki, ixracın idxalı üstələməsi süni intellektlə bağlı məhsullara qlobal tələbatın artması ilə bağlıdır.

Təkcə oktyabrda Çinin ixracının dəyəri illik müqayisədə 35,2 % artaraq 412,3 milyard ABŞ dolları, idxalının dəyəri isə 41,6 % artaraq 307,1 milyard ABŞ dolları təşkil edib.

İxracın artmasının əsas hərəkətverici qüvvələri süni intellekt infrastrukturunun inkişafı üçün zəruri olan yarımkeçirici çiplər, məlumatların emalı mərkəzləri üçün serverlər və şəbəkə avadanlıqları olub.

Beləliklə, Çin ardıcıl olaraq ikinci ildir ki, ticarət balansının profisitində 1 trilyon ABŞ dolları həddini keçib. 2025-ci ildə bu göstərici rekord səviyyədə - 1,2 trilyon ABŞ dolları təşkil edib. Bu il müvafiq həddə bir ay tez çatılıb.

Rüstəm HACIYEV

Danışıqlar başa çatdı...



Müharibə davam edəcək...

Rusiya- Ukrayna müharibəsinin dayandırırması ilə bağı ABŞ-ın iştirakı ilə Abu-Dabidə aparılan Rusiya-Ukrayna danışıqları başa çatdı. Danışıqların nəticəsi tam açıqlanmasada, görüşdə əsas məsələ-atəşin dayandırılması ilə bağlı razılaşma əldə olunmadığı göz qabağındadır.

Düzdür, tərəflər araslıda hərbi əsirlərin dəyişdirilməsi ilə bağlı ümumi razılıq əldə edilib. Lakin, Avropanın, Ukrayna və Rusiyanın təhlükəsuzliyi ilə bağlı məsələ geniş müzakirə edilsədə, yekun nıticəni qənaətbəxş hesab etmək olmaz.

Rusiya nümayəndə heyyəti atəşin müvəqqəti dayandırılması ilə bağlı Ukrayna tərəfinin təklifini rədd edib. Onlar hesab edirlər ki, Ukrayna atəşkəslə bağlı yaranan fasilədən istifadə edərək silahlı qüvvələrini gücləndirməyi planlaşdırır. Ona görə də Rusiya münaqişənin tamamilə dondurulmasının və dayanıqlı sülhün bağlanmasının məqsədə uyğun olduğunu bəyan edib.

Ukrsyna isə, təbii ki, münaqişənin birdəfəlik dondurulmasını istəmir. Əslində bu Ukraynanın işğal olunmuş ərazilərinin birdəfəlik itirilməsi kimi qiymətləndirilə bilər.

Bundan başqa, Rusiya atəşin dayandırılmasından sonra, əraziyə avropa və ya hər hansı bir üçüncü dövlətin hərbi kontingentinin yerləşdirilməsini də qəbul etmir. Kremlin nümayəndə heyyəti xəbərdarlıq edib ki, belə bir hal yaşanarsa, bu qüvvələr Rusiya ordusunun qanuni həfəfinə çevriləcəklər.

Göründüyü kimi, avropa dövlətlərinin nümayəndə heyyəti Abu -Dabiyə gəlsələrdə, danışıqlarda iştirak edə bilməyiblər. Fransa, Böyük Britaniya və Almaniyanın təhlükəsizlik məsələləri üzrə nümayəndə heyyətləri, yalnız görüşdən əvvəl Ukrayna və ABŞ nümayəndə heyyətləri ilə məsləhətləşmələr aparmaqla kifayətlənıblər.

Abu-Dabidə danışıqlar başa çatdı. Dünənki yazımızda qeyd etdiyimiz kimi, dünyanın həsrətlə gözləyi ”sülh” və ya ən azı ”atəşkəs” razılaşması əldə olunmadı. Açıq şəkildə görünür ki, Rusiya üzdə müharibənin dayanmasının tərəfdarı olduğunu bəyan etsədə, bunu istəmir. Nümayəndə heyyətinin rəhbəri Medinskinin ”bizim bayraqlarımız asıldığı yerlərdən çıxsrıla bilməz”, ” Rusiya itirdikləri əraziləri bir-bir geri qaytaracaq” ifadələri qarşıdakı planlarının müharibənin davam etdiriləcəyinə açıq təhdid kimi qiymətləndirilməlidir.

Medinskinin yadına salmaq istərdik ki, Rusiya bayraqları bir vaxtlar Reystaqda, Polşada, Macarıstanda, Yuqoslaviyada, Rumıniyada, Çexoslavakiyada, hətta ABŞ-ın gözünün qabağında- Kubada və keçmiş postsovet respublikalarındada dalğalanırdı. Artıq 30 ildən çoxdur çıxarılıb atılıb...

ABŞ okeanın o tayında, yəni uzaqdadır. Avropa isə bu təhdidləri bir başa qəbul edib deşünməlidir, Ukraynaya hərbi dəstəyə davam, yoxsa tamam...

Türkiyə və Azərbaycan müdafiə sənayesi üzrə birgə doktorantura proqramları yaradacaq

Türkiyə və Azərbaycan müdafiə sənayesi texnologiyaları sahəsində ixtisaslı kadrların hazırlanması məqsədilə əməkdaşlığı doktorantura proqramları ilə genişləndirəcək.

Adalet.az ”Haber Global”a istinadən xəbər verir ki, bunu Türkiyənin Ali Təhsil Şurasının (YÖK) sədri professor Erol Özvar bildirib.

O, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 31-ci Tərəflər Konfransı (COP31) çərçivəsində Antalyaya səfəri zamanı iki ölkə arasında ali təhsil və elmi tədqiqat sahəsində əməkdaşlığın perspektivlərindən danışıb.

Erol Özvar Türkiyə ilə Azərbaycan arasında tələbə və müəllim mübadiləsindən birgə elmi araşdırmalara, gənc alimlərin hazırlanmasından Türkiyə-Azərbaycan Universitetinin fəaliyyətinə qədər geniş əməkdaşlıq modelinin formalaşdığını bildirib. O, bu tərəfdaşlığın dünyaya nümunə ola biləcəyini vurğulayıb.

O əlavə edib ki, Türkiyə və Azərbaycan arasında akademik əməkdaşlıq gələcəkdə strateji sahələrdə daha da dərinləşdiriləcək.

Şura sədri Bakıdakı Türkiyə-Azərbaycan Universitetinin iki ölkənin ali təhsil sahəsində tərəfdaşlığının konkret nümunəsi olduğunu da vurğulayıb. Onun sözlərinə görə, universitetdə üç Türkiyə ali təhsil müəssisəsinin proqramları əsasında azərbaycanlı gənclər təhsil alırlar.



Səxavət MƏMMƏD

Müharibənin ramzi, şübhəsiz ki, qandır

Müharibə çox ağır prosesdir. Azərbaycan xalqı çox ağır, iki fərqli müharibə dövrünü yaşadı. Birinci dövrlə ikinci dövrü müqayisə etmək belə yanlışdır. Azərbaycan gözünü müharibəyə açmışdı: vahid ordu yox idi, sistemsizlik hökm sürürdü, müharibə apara-apara ordu formalaşırdı, resurslar çatışmırdı, özünümüdafiə batalyonları maksimum nəyə gücü çatırdısa, onu edirdi; torpaqlar itirilir, insanlar qaçqın düşür, onsuz da ağır yükü olan dövlətin çiyninə əlavə yük şələnirdi. Bir yanda məğlubiyyət, digər yanda isə daha böyük ərazilər itirməmək üçün müdafiə olunmaq... Birinci müharibəni məğlubiyyət kimi də təqdim etmək olar, ancaq məsələlərə obyektiv yanaşsaq, onun nəticəsinə daha geniş ərazilərin qorunması kimi də baxa bilərik və ən doğrusu da budur.

İkinci müharibə isə tamamilə fərqli idi. Birinci müharibə ilə ikinci müharibə arasında ən ciddi fərq sistemlə bağlıdır. Birinci müharibədə sistemsizlik hökm sürürdüsə, ikincisində hər şey sistemli idi. Elə buna görə də birinci müharibədə fərdi qəhrəmanlıqlar ön plana çıxırdısa, ikinci müharibədə fərdilik ən az rast gəlinən şey idi.

Vətən müharibəsindəki qələbə Azərbaycan dövləti üçün də, xalqı üçün də yeni üfüqlər açdı. Yararlana bilirik? Cavab birmənalı olmayacaq. Cümhuriyyətin yaranma dövrünə min cür yanaşma var. Mənim yanaşmam isə belədir: bir xalq var, tam savadsız, cəhalət içində boğulur; dövlət, millət anlayışı yoxdur - okeanda yox, ha, quyunun dibində, özü də bir qaşıq suda boğulur. Bir neçə nəfər gəlir, əl atır, o xalqı quyunun dibindən çıxarır, deyir: "Al sənə dövlət, al sənə sərhəd, al sənə millət, al sənə universitet, al sənə ordu". Düzdür, cəmi iki illik bir tarixi olsa da, bünövrə, maya, təməl baxımından çox sağlam oldu. O quyunun dibindəki xalq illər keçdi, yenə müstəqil oldu, yenə gözünü müharibəyə açdı, torpaq itirdi, torpaq qorudu və nəhayətində yüzillik bir problemi kökündən həll etdi.

Azərbaycan dövləti də, xalqı da yuxarıda yazdığım yeni üfüqi cırmaqlaya-cırmaqlaya, əti ilə, dırnağı ilə, qanı ilə açıb. Sadəcə düzgün yönləndirmə, düzgün hədəflərlə ağıla gələn və gəlməyən çox məsələlərə nail olmaq olar. Bu məqamda telefonuma mesaj gəlir; baxıram, bir şəhid anası sosial şəbəkədə yazıb ki, pensiyası kəsilib, dərmana möhtac qalıb. Bilirsiniz, bu nədir? Dirçələni başından basıb yenidən o quyunun dibinə soxmaq cəhdidir. Bir neçə müharibə əlilinin pensiyası kəsilib. Hər şeyi başa düşürəm, anlayıram, qanunları da oxuyuram. Bir adam müharibədə canını qoyub, fərarilik edərkən yox, tapşırıq icra edərkən bədəninin bir hissəsini itirib; xətkeşi qoyub onun əlini, qolunu ölçmək nə qədər doğrudur? Dizindən aşağısını itirənə birinci qrup əlillik verilsə, Azərbaycan dövləti kasıb düşəcək? O sənin yolunda qan, can verir, sən pula qıymırsan, bunun adı nədir? Quyunun dibinə itələmək deyil? Bir neçə nəfərin də etiraz etdiyini gördüm: bayram tədbirlərinə birinci müharibənin iştirakçılarını çağırmırlar. Bu adamlar başa düşmür ki, birinci müharibənin iştirakçıları 44 günlük müharibənin iştirakçıları ilə çiyin-çiyinə idi? Baxıram, insanlar Zəfəri bayram kimi canfəşanlıqla qeyd etmirlər. "Elə deyil" deyən adamlaradır sualım: Helloven daha təmtəraqlı qeyd olundu, yoxsa Zəfər? Bunun səbəblərini araşdırmalıyıq, buna fokuslanmalıyıq. Onu da anlayıram; insan çətinliklə yaşayanda, ona öyrəşəndə bacardığı şeylər ona adi gəlir, yəqin qələbənin mahiyyətinə ona görə tam varmırıq.

Hazırda qlobal aləmdə çox ağır proseslər gedir: Rusiya Ukraynanı işğal edir, Avropanı qarışdırır; İsrail qonşu əraziləri işğal edir, ABŞ ilə birgə İranı məhv etməyə çalışır və sən bu iki ağır coğrafiyanın arasında qalmısan. Ukrayna prezidenti az qalsın təhlükəsizlik kameralarını görəndə də açıqlama verir ki, biz torpaq verməyəcəyik. Bunun səbəbi bilirsiniz nədir? Adamın qarşısına konkret qoyublar ki, itirdiklərinlə barışmalısan. O da barışmır, barışmaq istəmir, ona görə hər gün bu tipli bəyanatlar verir. Ukrayna məsələsi ilə bağlı "Koreya variantı"nı atıblar ortaya, bu da o deməkdir ki, kim hardadırsa, ora da onundur. Bura qədər oxuyanlar deyə bilər ki, Zəfər hara, Ukrayna hara? Əmin ola bilərsiniz, müharibə etməsəydik, qalib gəlməsəydik, Koreya təcrübəsi üçün ilk bizim qapıya gələcəkdilər, birinci Qarabağ üzərində test ediləcəkdi. Ona görə də, dövlət olaraq da, xalq olaraq da nə etdiyimizin fərqində olmalıyıq. 44 günlük müharibə bitən zaman yazmışdım ki, müharibə hələ indi başlayır. Məlum, hər yer müharibədir. Bu region üçün də hələ heç nə bitməyib. Biz isə hər şey bitibmiş kimi davranırıq.

Bəzi, orduda və müharibədə can qoymuş dostlarımız küsüblər: biri pensiyadan, biri diqqətsizlikdən, biri haqsızlıqdan... Hər dəfə onlara da deyirəm: "Kimsə üçün döyüşmüsən?" Arada mən də əsəbləşirəm, baxırsan, müharibə ilə bağlı tədbirlər keçirilir, ağzında maska, saatla (komendant saatı) çöldə-bayırda olan adamları, jurnalistləri ön sırada oturdublar. Sonra öz-özümə deyirəm ki, müharibə vaxtı jurnalistləri ön tərəfdən Gəncəyə və Mingəçevirə çəkəndə sənə də zəng gəlmişdi, cavabın belə olmuşdu: "Birincisi, mən ağdamlıyam, ikincisi də, valideynlərim yerindən tərpənməyib; Gəncəyə, Mingəçevirə getsəm, bu, mənim üçün ən ağır təhqir olar". Zəng edən də demişdi ki, "Diqqətli ol, özünü qoru, nəsə bir problem olsa, dərhal zəng et!" Çağırmırlar? Baxıb deyirəm ki, cəhənnəmə ki!

Müharibənin bir parçası olmaqdan qürur duyuram. Sentyabrın 26-dan səngərlərə düşdüm, ən ağır yerlərdə oldum, yeri gəldi düşmənlə üzbəüz gecələr əlimdə silah postda durdum (9 dəfə), iki dəfə yara aldım. "Ayıbdır" deyib heç xəstəxanaya da müraciət etmədim, həkim dostlarım kənarda sağaltdılar.

Zəfərin xəbərini də səngərdə eşitdim, müharibədən sonra "Savaş və Duman" adlı kitab yazdım, atamın verdiyi pulla da çap etdirdim. Kimsə bunu görməzdən gələcək deyə, silib atacam?

Müharibənin rəmzi, şübhəsiz ki, qandır. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm! Əlillərə, qazilərə sağcan arzulayıram! Azərbaycan ordusunda xidmət etmiş zabit, gizir, çavuş və əsgərlərə salamlar!

Müharibədə əziyyəti olan, Ali Baş Komandandan tutmuş əsgərə məktub yazaraq dəstəyini nümayiş etdirən uşaqlara qədər hər kəsə sonsuz təşəkkürlər!

Bayramınız mübarək! Hər şeyi bu gün bir kənara qoyub dadını çıxarın!

"Ukraynanın bu tələblə razılaşması inandırıcı deyil..."

"Abu-Dabi danışıqlarında Fransa iştirak edir. Abu-Dabidə Rusiya, Ukrayna və ABŞ nümayəndə heyətlərinin növbəti görüşü keçiriləcək. Danışıqlarda Fransanın da iştirak edəcək. Avropa İttifaqının bütövlükdə bu danışıqlar prosesində təmsil olunmaması, təbii ki, Ukraynanın mövqeyini müəyyən qədər zəiflədər. Görünür, bu prosesdə Avropa İttifaqını məhz Fransa təmsil edir. Danışıqlarda əsas mübahisəli məsələlərdən biri yenə də ərazi güzəştləri olacaq. Donald Tramp Ukraynanın ərazi güzəştlərinə getməli olduğunu vurğulayır".

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloqun sözlərinə görə, görünür, Donbasın işğal altında olan ərazilərinin Rusiyaya verilməsi məsələsi Vaşinqton və Moskvanın Kiyevə qarşı təzyiq vasitələrindən birinə çevriləcək:

"Xüsusilə ABŞ-nin bu istiqamətdə Ukraynaya təzyiqləri arta bilər. Lakin Volodimir Zelenskinin belə bir güzəştə getməsi real görünmür. Əgər Vladimir Putin hərbi yolla Donbasın Ukraynanın nəzarətində qalan hissəsini ələ keçirə bilməyibsə, indi diplomatik danışıqlar vasitəsilə buna nail olmaq istəyirsə, Ukraynanın bu tələblə razılaşması inandırıcı deyil. Ukrayna müharibənin ən ağır və zəif dövründə belə Rusiyaya təslim olmadı və ərazi güzəştinə getmədi. İndiki şəraitdə isə Kiyevin belə bir addım atacağı mümkün deyil. Fransa və ümumilikdə Avropa İttifaqının da bu məsələdə Ukraynanın mövqeyini dəstəkləyir. Ümumiyyətlə, Abu-Dabi danışıqlarının müsbət nəticə verməsi üçün ilk növbədə atəşkəsin təmin olunması vacibdir".

M.Əsədullazadə bildirib ki, tərəflər hazırkı təmas xətti əsasında atəşkəsə nail ola, hərbi əməliyyatların qarşısını almaq üçün silahsızlaşdırılmış zona yarada və paralel olaraq iqtisadi əməkdaşlıq formatının formalaşdırılması istiqamətində addımlar ata bilərlər:

"Bununla yanaşı, tərəflərin hərbi qüvvələrinin güzgü prinsipi əsasında qarşılıqlı şəkildə geri çəkilməsi də mümkün razılaşması ən optimal variantdır.

Əgər Rusiya bu şərtlərlə razılaşmasa, müharibənin davam etməsi qaçılmaz olacaq. Çünki proseslərin ümumi dinamikası Moskvanın maraqlarına zidd istiqamətdə inkişaf edir. ABŞ Konqresində demokratların qalibi olması, Avropa İttifaqında Ukraynaya dəstək məsələsində koordinasiyanın güclənməsi Rusiya üçün əlavə çətinliklər yaradır. Eyni zamanda, Rusiyanın cəbhədə hər ay təxminən 50 min hərbçi itkisi verdiyinə dair səsləndirilən rəqəmlər Moskvanın müharibənin davam etdirilməsi ilə bağlı imkanlarının və siyasi hesablamalarının nə qədər mürəkkəbləşdiyini göstərir. Məhz bu amillər Rusiyanı yenidən danışıqlar masasına qayıtmağa sövq edən əsas səbəblərdən biridir. Əbu-Dabi danışıqların müsbət nəticələnməsi gözlənilmir".

Vasif

İqbal ALISOY
Bakıvaxtı.az Xəbər Portalının təsisçisi

Zəfər



Tarix bəzən uzun illər gözləyir ki, bir millət öz sözünü desin. Bəzən bir xalqın haqq səsinin eşidilməsi üçün onilliklər, bəzən bütöv nəsillərin ömrü tələb olunur. Azərbaycan xalqı da 30 ilə yaxın müddətdə bir həqiqətin gerçəkləşəcəyini gözlədi: torpaqlarımıza qayıdacağımız, üçrəngli bayrağımızın Qarabağda yenidən dalğalanacağı günü.

Və həmin gün gəldi!

8 Noyabr - Azərbaycanın tarixində sadəcə bir qələbə günü deyil. Bu, milli iradənin, dövlət əzminin, ordumuzun gücünün və xalqımızın sarsılmaz birliyinin təntənəsidir. Bu tarix Azərbaycan xalqının dünyaya verdiyi ən aydın mesajdır: heç bir xalqın haqqını əbədi olaraq əlindən almaq mümkün deyil!

44 gün... Təqvimdə cəmi 44 gün. Amma Azərbaycan üçün bu günlər əsrlərə sığacaq qədər böyük məna daşıyır. Hər gün yeni bir qələbə xəbəri, hər azad edilən kənd və şəhər xalqımızın qəlbində illərlə yığılıb qalmış həsrətin bir parçasını aradan qaldırırdı. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Şuşa... Bu adlar artıq yalnız coğrafi məkan deyil, milli qürurumuzun, mübarizəmizin və zəfər tariximizin rəmzləridir.

Azərbaycan Ordusu döyüş meydanında yalnız hərbi üstünlüyünü nümayiş etdirmədi. O, illərlə formalaşmış yanlış təsəvvürləri dağıtdı, ölkəmizin hərbi-siyasi qüdrətini ortaya qoydu və beynəlxalq ictimaiyyətə göstərdi ki, Azərbaycan öz milli maraqlarını qorumaq əzmində olan güclü dövlətdir.

Zəfərin zirvəsi isə Şuşa oldu!

Şuşanın azad edilməsi hərbi tariximizin ən möhtəşəm hadisələrindən biri kimi yadda qaldı. Sıldırım qayaları aşaraq, mümkünsüz görünən yolları keçərək şəhəri azad edən Azərbaycan əsgəri əsl qəhrəmanlıq dastanı yazdı. Şuşa ilə birlikdə Azərbaycanın qüruru, tarixi və mənəvi gücü də öz yerinə qayıtdı.

Bu qələbənin arxasında güclü siyasi iradə və uzaqgörən dövlət strategiyası dayanırdı. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Azərbaycan dövləti uzun illər ərzində öz hərbi potensialını gücləndirdi, iqtisadi imkanlarını artırdı və milli məqsəd ətrafında cəmiyyəti birləşdirdi. Vətən müharibəsində həmin hazırlığın və iradənin nəticəsi bütün dünyaya nümayiş etdirildi.

Zəfərin ən böyük mənası isə xalq-ordu-dövlət birliyinin sarsılmazlığında idi. Cəbhədə döyüşən əsgərlə arxa cəbhədə dua edən ana, qələbə xəbərini gözləyən uşaqla dövlətinin yanında dayanan vətəndaş eyni amal ətrafında birləşmişdi. Azərbaycan həmin günlərdə bütöv bir yumruğa çevrilmişdi.

Əlbəttə, bu qələbənin ən böyük qəhrəmanları torpaq uğrunda canından keçən şəhidlərimiz və sağlamlığını itirən qazilərimizdir. Onların fədakarlığı Zəfər tariximizin ən uca zirvəsidir. Ancaq bu yazının əsas mesajı yalnız keçmişi xatırlamaq deyil. Zəfərin bizə qazandırdığı bugünkü reallığı və sabaha daşıdığımız məsuliyyəti anlamaqdır.

Bu gün Qarabağda Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə həyat yenidən canlanır, şəhərlər qurulur, yollar salınır, məktəblər, yaşayış məntəqələri istifadəyə verilir. Böyük Qayıdış proqramı ilə doğma torpaqlarımıza qayıdan insanlar Azərbaycanın Zəfər tarixinin davamını yazırlar.

Bir vaxtlar xəyal kimi görünən mənzərə bu gün reallıqdır. Qarabağ artıq yalnız xatirələrdə yaşayan bir məkan deyil. O, Azərbaycanın gələcəyinin, inkişafının və dövlət qüdrətinin ayrılmaz hissəsidir.

Zəfər bizə bir həqiqəti də öyrətdi: güclü dövlət olmaq yalnız qələbə qazanmaq deyil, qazandığın qələbəni qorumaq, onu inkişafla möhkəmləndirmək və gələcək nəsillərə ötürməkdir.

Bu gün Azərbaycan qalib dövlətdir. Bu status yalnız hərbi qələbə ilə deyil, siyasi iradə, iqtisadi inkişaf, beynəlxalq mövqelər və milli birliklə də möhkəmlənir.


8 Noyabr bizim üçün qürur günüdür. Bu tarixdə Azərbaycan xalqı öz gücünü gördü, özünə inamını təsdiqlədi və tarix qarşısında haqqını bərpa etdi.

Biz Zəfəri gözləyən xalqdan Zəfəri yazan xalqa çevrildik.

Bu gün Azərbaycan deyəndə onun arxasında qalib Ordunun gücü, birləşmiş xalqın iradəsi və müstəqil dövlətin qətiyyəti dayanır.

Zəfər bir günün adı deyil. Zəfər Azərbaycanın dünəni, bu günü və sabahıdır!

8 Noyabr - Zəfər Günümüz mübarək!



Könül NURULLAYEVA,
Milli Məclisin deputatı

Şuşa milli kimliyin, tarixi yaddaşın rəmzidir

Prezident İlham Əliyevin Zəfər Gününün altıncı ildönümündə Şuşaya səfəri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın isə məhz bu əlamətdar gündə Qarabağa səfəri Şuşanın ölkəmizin siyasi və mənəvi həyatındakı müstəsna yerini bir daha gündəmə gətirdi. Bu hadisələr həm də Şuşanın Azərbaycanın milli kimliyinin, tarixi yaddaşının rəmzi olduğunu nümayiş etdirdi.

Şuşanın tarixi əhəmiyyəti onun coğrafi mövqeyi və mədəni irsi ilə məhdudlaşmır. Bu şəhər Azərbaycan xalqının milli ruhunun, Qarabağ tarixinin və dövlətçilik düşüncəsinin mühüm dayaqlarından biridir. Təsadüfi deyil ki, Şuşanın işğaldan azad edilməsi Vətən müharibəsinin taleyini müəyyənləşdirən həlledici hadisələrdən biri oldu. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Şuşa 28 il işğal altında qalsa da, milli ruhunu itirməmişdi.

Şuşanın azadlığı həm hərbi, həm də siyasi-psixoloji baxımdan tarixi dönüş yaratdı. 2020-ci il noyabrın 8-də bu şəhərin azad edilməsi Azərbaycanın Qələbəsinin əsas rəmzinə çevrildi. Prezidentin Zəfər Günündə məhz Xankəndidən xalqa müraciət etməsi, R.T. Ərdoğanla görüşünü isə Şuşada keçirməsi azad edilmiş torpaqlarda yeni siyasi reallığın nümayişi idi.

Bu tarixi hadisələrin mənasını anlamaq üçün müstəqilliyimizin ilk illərinə də nəzər salmaq lazımdır. 1992-1993-cü illərdə AXC-Müsavat hakimiyyəti dövründə ölkədə hökm sürən siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə və dövlət idarəçiliyindəki ciddi problemlər milli təhlükəsizlik və ərazi bütövlüyü məsələlərini arxa plana keçirmişdi. Həmin dövrün siyasi mənzərəsi göstərirdi ki, hakimiyyət daxilində şəxsi siyasi maraqlar və vəzifə uğrunda mübarizə ümummilli məqsədlərlə ziddiyyət təşkil edirdi. Torpaqların müdafiəsi və güclü dövlət quruculuğu əvəzinə siyasi böhran dərinləşir, cəbhədəki vəziyyət ağırlaşırdı.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlətçiliyin qorunması, siyasi sabitliyin yaradılması və nizami ordu quruculuğu istiqamətində əsaslı dönüş baş verdi. Prezident İlham Əliyev isə bu siyasi kursu davam etdirərək Azərbaycanın iqtisadi və hərbi potensialını gücləndirdi, nəticədə ölkəmiz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Beləliklə, Şuşanın azadlığı həm də müstəqil dövlət quruculuğunun, ardıcıl strategiyanın və milli iradənin nəticəsi oldu.

Şuşanın əhəmiyyəti 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi ilə daha artdı. Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinin hüquqi əsasını möhkəmləndirən bu sənədin məhz Şuşada imzalanması təsadüfi deyildi.

R.T. Ərdoğanın Zəfərin altıncı ildönümündə yenidən Şuşaya gəlməsi isə həmin strateji müttəfiqliyin davamlılığını nümayiş etdirdi. Prezident İlham Əliyevin səsləndirdiyi "Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır" fikri səfərin əsas siyasi mesajlarından biri oldu.

Şuşa Şəhəri Günü ilə Zəfər Gününün noyabrın 8-də qeyd edilməsi də xüsusi tarixi məna daşıyır. Burada söhbət şəhərin tarixini, mədəniyyətini və milli yaddaşını, həmçinin azadlığını və Azərbaycanın tarixi Qələbəsini təcəssüm etdirir.

Bu gün Şuşada aparılan bərpa işləri, tarixi abidələrin yenidən həyata qaytarılması, mədəni tədbirlərin keçirilməsi və şəhərin əvvəlki şöhrətinin bərpası Zəfərin quruculuq mərhələsini ifadə edir. Təsadüfi deyil ki,

Şuşada 377 ailə olmaqla, 1.411 nəfər, Böyük Qaladərəsi kəndində 17 ailə olmaqla, 78 nəfər, Kiçik Qaladərəsi kəndində 26 ailə olmaqla, 90 nəfər - cəmi 420 ailə, 1579 nəfər məskunlaşıb.

Şuşa bu gün də Qarabağın tacı, tarixi-mədəni abidələrlə zəngin şəhər, hərbi-strateji əhəmiyyətli qaladır.

Vüqar ABBASOV,
Avropa Xəbər Agentliyinin (European News Agency) əməkdaşı



"Boss" uduzdu?

Növbəti iki ildə ABŞ Prezidenti Donald Trampın fəaliyyətinin ciddi şəkildə məhdudlaşacağı gözlənilir. Buna səbəb 3 noyabr 2026-cı ildə ABŞ-da keçirilən aralıq seçkilərinin ölkənin siyasi xəritəsini kökündən dəyişərək Demokratlar Partiyasının tarixi və böyük qələbəsi ilə, başqa sözlə, "sunami" ilə nəticələnməsidir.

Seçkilər barədə geniş yazmağa ehtiyac görmürəm. Bu mövzuda mətbuatda kifayət qədər yazılıb və danışılıb. Məni daha çox düşündürən sual budur: nəticələrin belə olmasında Trampın rolu nə qədərdir?

Tramp Fox News-a açıqlamasında Demokratların yaxşı iş gördüyünü etiraf edib və immiqrasiya məsələlərində onlarla əməkdaşlıq etməyə hazır olduğunu bildirib. Lakin öz sosial şəbəkə hesabında məğlubiyyətin səbəbini adının seçki bülletenində olmaması ilə əlaqələndirib: "Əgər mən bülletendə olsaydım, böyük fərqlə qalib gələrdim".

İspaniyanın 2004-cü ildən 2011-ci ilədək baş naziri olmuş Xose Luis Rodriges Sapatero çıxışlarının birində belə demişdi: "İctimaiyyətin təsəvvüründə hər şeyə qərar verən liderlər var. Lakin hadisələrin pərdəarxasına nəzər salanda əslində proseslərin necə baş verdiyini görürsünüz. Bəli, qərarları liderlər verirlər, amma onlar həmişə "Financial Times"ın nə deyəcəyini və maliyyə bazarlarının buna necə reaksiya göstərəcəyini nəzərə alırlar".

Bu fikrin Alan Fridmanın "Mənim yolum: Berluskoninin həyatı öz dilindən" kitabında yer aldığını xatırlayıram. Məncə, Sapatero haqlı idi. Prezident Tramp isə bu amilləri nəzərə almadı və nəticə Respublikaçılar Partiyası üçün göz qabağındadır.

Fikrimcə, İranla müharibə və enerji xərclərinin artması Respublikaçıların məğlubiyyətinin əsas səbəblərindən biri oldu. Fevral ayında başlayan ABŞ ilə İran arasındakı hərbi münaqişə və Hörmüz boğazında yaranan fasilələr qlobal enerji qiymətlərinin, eləcə də ABŞ-da yanacağın qiymətinin kəskin artmasına səbəb oldu. Seçicilər ABŞ-ın bu xarici siyasət addımını gündəlik yaşayış xərclərinin artması ilə birbaşa əlaqələndirdilər.

Mənim fikrimcə, İranla müharibə bir tərəfdən İran rejiminin ömrünü uzatdı, digər tərəfdən isə son seçkilərdə Respublikaçıların məğlubiyyətinə səbəb oldu. Yeri gəlmişkən, xatırlatmaq istərdim ki, İranla müharibədən əvvəl ölkədə (İranda) rejimə qarşı vaxtaşırı etiraz aksiyaları keçirilirdi. Bu etirazlar özündən əvvəlkilərdən xeyli fərqlənirdi. Müharibə başlayandan sonra isə narazı insanlar da rejimlə eyni mövqedə dayandılar və necə deyərlər, ümumi düşmənə qarşı birləşdilər. Buna görə də məni bir sual düşündürür: bu müharibə əslində kimin xeyrinə oldu?

Trampın mənə, eləcə də düşünürəm ki, bir çoxlarına qəribə görünən addımları və davranışları təkcə İranla bağlı deyil. Bu sıraya onun Venesuelada atdığı addımları, Qrenlandiya ilə bağlı iddialarını, Rusiya ilə Ukrayna arasındakı müharibədə tutduğu mövqeyi və digər məsələləri də daxil etmək olar.

Bir sözlə, Tramp özü haqqında nə qədər yüksək fikirdə olsa da, məncə, məhz onun atdığı addımlar Demokratların qələbəsinə gətirib çıxardı. Bəs qarşıdakı dövrdə Tramp qəribə hesab edilən addımlarını davam etdirərsə, Demokratlar onun impiçmentini tələb edə bilərlərmi? Bildiyimə görə, qanunvericilik buna imkan verir. Konqresin hər iki palatasında, həm Nümayəndələr Palatasında, həm də Senatda çoxluğa sahib olduqları üçün onlar bu prosesi rəsmi şəkildə başlatmaq imkanına malikdirlər. Bəs bunu edəcəklərmi? Düşünürəm ki, əgər onlar dünyanın yeni arxitekturaya ehtiyacı olduğu qənaətinə gəlsələr, belə bir addım ata bilərlər.

Bir dəfə haradasa belə bir fikir oxumuşdum: "Uğur və şöhrət sinonim deyil". Prezident Tramp şöhrəti sevən insandır. Onun bu ilin iyun ayında Fransanın Evian-le-Ben şəhərində keçirilən G7 sammitində "I'm the boss" dediyini kim unuda bilər ki? Məncə, heç kim.

"Boss" isə məğlubiyyətlərdən məğlubiyyətlərə doğru gedir. Çox arzuladığı Nobel Sülh Mükafatını da əldə edə bilmədi. Bu məsələdə də uduzdu. Əgər bu mükafatı almadan prezidentlikdən getsə, hər halda, bu, onun üçün partiyasının seçkilərdəki məğlubiyyətindən daha ağır bir məğlubiyyət olacaq.

vugarabbasov@hotmail.com,
Niderland

Bəzi ərazilərdə qaz və işıq pulunda güzəşt təklif edilib

"Dağlıq rayonlarda yaşayışa təsir edən ən mühüm məsələ kommunal tariflərdir. Bakı və Abşerondakı hava şəraiti Gədəbəyin, Daşkəsənin, Lerikin, Şahbuzun, Qusarın yüksək dağ kəndlərindəki iqlimdən fərqlidir. Elə yaşayış məntəqələri var ki, ailələr yeddi-səkkiz ay evlərini qızdırmalı olur. Ancaq ölkə üzrə eyni istehlak tarifləri və limitlər tətbiq edilir, qaz və elektrik təchizatında aylıq sabit ödənişlər də mövcudddur. Eyni istehlak şərtlərinin müxtəlif iqlim şəraitində yaşayan ailələr üçün tətbiqi ağır nəticələr doğurur".

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Regional məsələlər komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı komitə sədri Zahid Oruc bildirib.

"Biz bütün ölkədə kommunal tariflərin birdən dəyişdirilməsindən danışmırıq. Söhbət sərt iqlim şəraitində yaşayan, xüsusilə sərhəd və yüksək dağ kəndlərində məskunlaşan ailələr üçün fərqli yanaşmadan gedir. Belə ərazilərdə qaz və elektrik üzrə istehlak limitlərinin ləğvi, ödənişlərdə isə güzəştli tariflərin tətbiqini təklif edirik. Həmin kəndlərdə çalışan həkim və müəllimlər üçün də iqlim və məsafə nəzərə alınmaqla, əlavə ödəniş əmsalları müəyyən edilə bilər. Sərhəd və dağ kəndlərində məskunluğun gücləndirilməsi üzrə dövlət proqramının qəbulu ölkə başçısının narahatlıqla vurğuladığı paytaxta axının qarşısının alınmasında mühüm rol oynaya bilər", - komitə sədri qeyd edib.

"Qonşuları onun vəfat etdiyini bir neçə gün gün sonra biliblər"

"Bu günlər daha qürurla dalğalanan üçrəngli bayrağımız təkcə Cümhuriyyətin rəmzi və nişanəsi deyil, həm də onun ruhudur. Dövlət Byrağı günündə hələ sovet dövründə həmin ruhu yaşadan və təbliğ edən bir şəxsiyyət- Azərbaycan Cümhuriyyətinin ilk tədqiqatçısı Mövsüm Əliyev haqqında danışmağı vacib sayıram. Müstəqillik dövründə Cümhuriyyət haqqında yazanların çoxu onun "Odlar yurdu" qəzetində çap olunmuş silsilə məqalələrinə istinad edirdi, çünki publisistika olsa da ilkin mənbə sayılırdı".



Adalet.az xəbər verir ki, bunu professor Qulu Məhərrəmli deyib.

"Onun haqqında çox yazıb, çox danışıblar. Amma Rais Rəsulzadənin dediyi heç yadımdan çıxmır: "Hələ sovet dövrü idi. Bir gün emalatxanama ortayaşlı bir adam gəldi, salam-kəlamdan sonra soruşdu ki, siz babanızın kim olduğunu bilirsizmi? Heç cavabımı gözləmədən Cümhuriyyət və babam haqqında heç vaxt eşitmıdiyim xeyli məlumat verdi. O söhbətdən sonra Mövsüm Əliyevlə davamlı görüşürdük".

Rais bəy onun müəmmalı ölümü haqqında da yana-yana danışır. Əslən Zirə kəndindən olan Mövsüm Əliyev 1939-cu ildə kasıb bir ailədə anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra İncəsənər institutunda oxumuşdu, ixtisasca sənətşünas idi. 60-cı illərin sonlarından başlayaraq Cümhuriyyət tarixinə aid sənədləri toplamağa başlayıb. 1970-1980-ci illərdə Azərbaycan Cümhuriyyətinin qurucuları haqqında araşdırmalarını dərinləşdirib, o dövrə aid xeyli sənəd toplaylb. Sovet rejimi dövründə (1988-ci il) Məhəmməd Əmin Rəsulzadə haqqında ilk məqaləsini yazıb. Daha sonra Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və digər Cümhuriyyət xadimləri haqqında samballı məqalələr yazıb. Bəlli səbəbdın məqalələrini "Əlioğlu" umzası ilə çap etdirib.Mövsüm Əliyev Cümhuriyyət qurucuları ilə bağlı məlumatları arxivlərdən gizli şəkildə köçürür, sənədlərin surətini gizli şəkildə çıxarıb saxlayırdı. Bu işdə ona yaxın dostu, akademik Ziya Bünyadov da kömək edirdi. Bəzi məlumatlara gprə Ziya müəllim bəzən DTK arxivlərindəki mühüm sənədləri özü ona gizli şəkildə çatdırırmış.

Tədqiqatlarını dərinləşdirən Mövsüm Əliyev həmin dövrdə milli adamlar hesab etdiyi publisist-tərcüməçi, AJB-nin sədri Hacı Hacıyev və diplomat, mühacirətşünas-tədqiqatçı Ramiz Abutalıbovla dostluq edir, fikirlərini onlarla bölüşürmüş. Şahidlərin dediyinə görə, Mövsüm Əliyev kaslblıq içində yaşasa da, Cümhuriyyətə aid sənədləri pulla alırmış, 28 May - İstiqlal Gününü isə xüsusi səxavətlə qeyd edirmiş.1993-cü ildə M.Ə.Rəsulzadəni müdafiə məqsədilə yazdığı bir məqalədə bəzi tarixi faktları açıqladığına görə M.Əliyev həbs edilir və ilyarıma qədər həbsxanada yatır.Həbsxanada saxlanma şəraiti pis olduğu üçün səhhətində problemlər yaranır. Oradan çıxdıqdan az sonra infarkt keçirir. Daha sonra sinir ağrıları və nevroloji problemləri olur, yeriməyindi çətinliklər yaranır.Cümhuriyyətin ilk araşdırmaçısı 1998-ci ilin dekabrında son günlərini yaşadığı Poluxin 44 ünvanındakı evində vəfat edib.

Qonşuları onun vəfat etdiyini bir neçə gün gün sonra biliblər.Yazılanlara görə, Mövsüm Əliyevin zəngin şəxsi arxivi var imiş. Məlumatlara görə, ölümündən sonra onun iki kisəyə yaxın sənədini mənzil-istismar sahəsinin işçiləri aparıblar. Həmin sənədlərin taleyi indiyə kimi məlum deyil. Allah Mövsüm Əliyevə və Cümhuriyyətin dünyasını dəyişmiş digər araşdırmaçılarına rəhmət eləsin!", - deyə o, bildirib.

Sübhan



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

Mənim Əvəz əmim...

Əslinə qalanda bu sözləri onun yanında heç vaxt deyə bilməzdim! Heç oğlanları - İbrahim (biz ona İbiş deyərdik və orta məktəbi gümüş medalla bitirmişdi, bir "5" alıb Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olmuşdu), Mətləb, Rəhman, Qəhrəman da ona məktəbdə "ata" deyə bilməzdi! Deyərdilər, Əvəz müəllim onları elə günə qoyardı ki, o "dərs" ömrü boyu yadlarından çıxmazdı! Nə isə... Elə bil ki, mövzudan kənara çıxdım ey!

Əvəz Əliş oğlu Əliyev Füzuli təhsil sistemində öz yeri, öz nüfuzu, öz mövqeyi olan böyük ziyalılardan, böyük müəllimlərdən olub! Daha doğrusu, belərinə "müəllimlər müəllimi" demək olar. O, illərdə Füzulidə beş müəllimdən, beş məktəb direktorundan biri olub. Təhsil şöbəsinin müdiri Hüseyn müəllim kimi bir şəxsiyyət olub Əvəz müəllim! Və hər ikisi də bir-birilə çox möhkəm dostluq ediblər! Ömürlərinin sonuna kimi haqqı-salama, duz-çörəyə sədaqətli olublar. Əvəz Əliyev uzun müddət Füzuli rayonunun Böyük Bəhmənli kəndindəki orta məktəbdə direktor işləyib! Və biz elə gözümüzü açandan Əvəz müəllimi direktor görmüşdük!



Görmüşdük ki, çox zəhmli, çox ciddi adam idi. Ondan nəinki şagirdlər, eləcə də müəllimlər çəkinərdi. O, yaxşı məktəb direktoru olmaqla yanaşı, həm də öz ixtisasını - kimyanı çox mükəmməl, gözəl bilirdi. Və bizim hamımıza da kimyanı yaxşı öyrədirdi. Onun dərsindən mən "5" alırdım, amma bir yerdə səhv eləsəydim, karıxsaydım, o, yumşaq, pambıq kimi əlilə bir şillə vurardı. Və deyərdi ki, bu şilləni ona görə vururam ki, həyatın şilləsi sizə dəyməsin, adam olasız! O böyük ziyalının şilləsi bizi işıqlı yola çıxardı, oxuyub yüksək mövqe tutduq və nəhayət adam olduq! O şillə sinif yoldaşlarım Təbrizə, Zülfüqara, Barata, Yusifə, Söhbətə dəydi... Hamısı da həyatda böyük uğurlar qazandı və mənim kimi adam oldular. Əvəz müəllimin dərsində kimin ağzı nəydi ki, dəcəllik eləsin, səs salsın, hətta Təvəkkülün oğlu Şirasalan kimi dəcəl uşaqlar da bürüşüb qalardi ki, müəllim onları görməsin! Yəni onun dərsində milçək uçsa səsi eşidilirdi! Əvəz müəllim həm də savadlı və tərbiyəli uşaqları çox istəyirdi. Biz 9-cu sinifdə oxuyanda Təbrizlə məni dövlət hesabına bir ay Kiyevdə gəzməyə göndərdi. Təsəvvür edin; Bakını görməyən adam birdən-birə Kiyev kimi qədim və gözəl şəhəri görür. Sanki biz Cənnətə düşmüşdük və qədim şəhərin tarixi abidələrini, muzeylərini gördük! Və səyahətimiz ömrümüzə qızıl hərflə yazıldı! Belə şəxsiyyət haqqında roman, povest, poema yazmaq olar! Amma ən böyük romanı o böyük kişinin həyat yolu yazmışdı.

Əvəz Əliyev əfsanəvi bir şəxsiyyət, müəllim, direktor olub! Tam məsuliyyətlə deyirəm, indi mən elə direktor görmürəm. Biz ondan həm qorxurduq, həm də çox istəyirdik və sevirdik. Onun hər dərsini səbirsizliklə gözləyirdik! O elə bilirdi ki, kimyanı yaxşı bildiyimə görə həkim olacam! Amma ADU-nun jurnalistika fakültəsinə qəbul olanda çox təəccübləndi! Dedi ki, təbrik edirəm, ancaq sən yaxşı həkim ola bilərdin! Əvəz müəllimin mənim kimi minlərlə şagirdi var! Və onların çoxu respublika səviyyəsində tanınır, ölkəmizdə yüksək vəzifə tutublar!

O, heç vaxt savadlı, istedadlı və tərbiyəli övladları ilə fəxr eləmədi... Bu böyük insan həmişə şagirdləri ilə fəxr elədi... Bir neçə gün bundan əvvəl kəndimizin böyük ziyalısı Abış müəllim mənə zəng edib dedi ki, noyabrın 15-də Böyük Bəhmənlidəki hər iki tam orta məktəbdə Əvəz müəllimin 100 illiyi keçiriləcək, siz ora dəvət olunursunuz! Həmin anda mən çox kövrəldim... Gözlərim doldu... Məktəb illəri bir kino lenti kimi gözlərimin önünə gəldi. Gözlərimin önünə Əvəz müəllim gəldi... Mənə dərs demiş bütün müəllimlərim gözlərimin önünə gəldi... Gözlərimin önünə sinif yoldaşlarım gəldi... Və gözlərim doldu... O illərə qayıtmaq istədim... Qayıda bilmədim... Və 50 il yaşamış Əvəz müəllim yenidən gözümün önünə gəldi...

Elə bildim sağdı, heç ölməyib! Minlərlə şagirdinin ürəyində özünə əbədi heykəl ucaltmış adam heç vaxt ölməz! Yüz yaşın mübarək, Əvəz əmi! Yəqin "Əvəz əmi" dediyimə görə məni döyməzsən!!!



Emil Faiqoğlunun SÖZ XƏZİNƏSİ

Ürəyin məhəbbəti müvəqqəti, ruhun məhəbbəti əbədidir!!!

***

Yer üzünün yaxşı insanlarını tapmaq çox çətindir!!!

***

Kişilər elə bilir ki, qadınların onlara borcu var! Ona görə də savadsız , zəif qadınları incidir, döyür və haqqına girir! Belələrinə kişi demək olar?

***

Qadına hər şeydən əvvəl tərbiyə , savad , əxalq öyrətmək lazımdır! Ki, kişidən asılı vəziyyətdə olmasın!

***

Elə xanəndə var ki, heç Seyran Səxavət kimi səsi yoxdur və muğam oxuya bilmir!!!

***

Savadsız və işsiz qadın çox zəif olur. Həyat yoldaşı rəhmətə gedəndə , yaxud da, ayrılanda ayaq üstə dura bilmir, çox çətin günlər yaşayır!!!

***

Kafka:" Yaxşı pisi gec tanıyır, amma pis yaxşını görən kimi tanıyır."

***

Ən ağır xəstə hər gün efirdə olan müğənni və həkimlərdir! Allah onlara ağıl versin!!!

***

Dünyanın ən yaxşı , ən gözəl, ən mərhəmətli və ən xeyirxah insanı mənim tanıdığım adamdı!!!

***

" Allah" sözü insanın dilində yox, əməlində hiss olunmalıdır. Elə insan var ki, dilində hər gün yüz dəfə " Allah " deyir, amma əməli şeytan əməlidir!!!

***

ABŞ tarixində sarsaq prezidentlər az olub! Elə sarsaq prezidentdən biri də Donald Trampdı! Çünki o, ağlın itirib və hər saatdan bir fərqli söz deyir!

***

Azad və demokratik Azərbaycan nə gözəldi!!!

***

Bəzi sürücülər avtomobil idarə etmir, sanki sükan arxasında məzələnir , hətta yatır; ya özü ölür, ya da başqasın öldürür!

***

Hər şeyi bağışlamaq olar, amma xəyanəti yox!!!

***

Qadınsız ev cəhənnəmə oxşayır!!!

***

Allah dünyamızı nüvə müharibəsindən qorusun! Çünki ABŞ və Rusiya " qan- qan " - deyir!

***

Rəhmətlik qayınatam deyərdi ki, kişidən çörək ətri gəlməlidir! Yəni kişi çörək qazanmağı bacarmalıdır,özü də halal yolla!!!

***

Elə adam var ki, ondan Cənnət ətri gəlir!!!

***

Hər şeyi su təmizə çıxarır, suyusa, torpaq!!!

***

Bəzən yəznə qız evinə oğul qədər yaxın olur! Bax rəhmətlik Muxtar qardaşım da bizə yeznə deyil, oğul idi, qardaş idi! Yeri Cənnət olsun!!!

***

Yeraltı və yerüstü keçidin yanındakı yolda avtomobili piyadanı vurub öldürürsə , buna görə sürücü cinayət məsuliyyətinə cəlb edilməməlidir!!!

***

Hər gün yadımdan çıxmayan sevdiyim insanlar, əzizlərim, dostlarım var! Dünyasın dəyişənlərə rəhmət, qalanlara can sağlığı!!!

***

Seyran Səxavət kimi yazıçını redaktə etmək, çıxışını kəsib- doğramaq cahillik və nadanlıqdır!!!

***

Seyran Səxavət kimi bir istedadlı yazar xalqın xeyirinə televiziyada bir söz deyir, onu da qayçılayıb verirlər! Min təəssüf!!!

Piyada qəza şəraiti yaratdı...

Heç kimə sirr deyil ki, bəzi piyadalar tez- tez yol hərəkəti qaydalarını pozur və təyin olunmuş yerlərdən keçmirlər! Sanki onlar heç nəyi nəzərə almadan özlərinin və başqalarının həyatını təhlükə altına qoyurlar! Hələ bu azmış kimi qanunu pozub yol keçərkən mobil telefonla danışır və qarşıdan gələn nəqliyyat vasitəsi üçün qəza şəraiti yaradır.





Belə ki, noyabrın 10- da saat 15:30- da Qara Qarayev prospektində biz əyləşdiyimiz avtomobillə gedərkən təyin olunmamış yerdən keçən piyada mobil telefonla danışa-danışa maşının qabağına çıxdı. Əgər sürücü aşağı sürətlə avtomobili idarə etməsəydi və əyləci basmasaydı, əyləc də nasaz olsaydı birmənalı olaraq piyadanı vuracaqdı. Hansı ki, həmin yer təyin olunmayan yer idi, orda nə piyada zolağı vardı, nə də işıqfor! Belə yerdə deyirlər ki, adamı Allah qoruyur! Allahın sürücüyə və piyadaya yazığı gəldiyinə görə, bədbəxt hadisə xoşbəxtlikdən baş vermədi! Sonradan piyadanın peşmançılıq hissi keçirdiyini gördük və ona iradımızı bildirdik.

O da dedi ki, fikirli idim , məni bağışlayın ! Bəs onda mobil telefonla niyə danışırdınız?- deyə soruşduqda bir söz demədi və çıxıb getdi. Görünən o idi ki, piyada nəqliyyat vasitəsi üçün qəza şəraiti yaratmışdı. Ona görə də hər bir hərəkət iştirakçısı zəhmət çəkib mövcud qanunlara əməl etməlidir! Ki avtomobil yollarında qəzalar baş verməsin, ölüm və xəsarətalma halları olmasın! Həm sürücülər, həm də piyadalar diqqətli olmalıdırlar!

EMİL

Yağışlı hava çətinlik yaratsa da...

Bir qayda olaraq Azərbaycan polisi bayram günlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Noyabrın 7- dən 10- na kimi onlar belə bir rejimdə işləyir.

Bu mənada Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsinin əməkdaşları da qeyri-sabit hava şəraitində paytaxtın küçə və prospektlərində hərəkətin təhlükəsizliyini təmin etmək üçün tapşırılan işin öhdəsindən bacarıqla gəlməyə çalışırlar! Belə ki, Yol Patrul Xidməti Alayının 5-ci tağımının əməkdaşları xidmət apardıqları 20 yanvar- Ziya Bünyadov prospektində hərəkətin təhlükəsizliyini yüksək səviyyədə təmin edir! Sirr deyil ki, bir neçə gündür ki, Bakıda küləkli və yağışlı hava hökm sürür.

Belə qeyri-sabit , yağışlı havada nəqliyyat vasitələrinin hərəkəti daha da çətinləşir.Başqa sözlə demiş olsaq, qəza vəziyyəti ehtimalı bir qədər yüksəlir. Ona görə də tağımın yol polisi əməkdaşları belə havada hərəkətin təhlükəsizliyini təmin edir və sürücülərə lazımi köməklik edirlər! Yağışla əlaqədar prospektdə çətin vəziyyət yaranır, kollektorlar yaxşı işləmir, yağış su suyu yola axır. Bu prospektdə nəqliyayt vasitələrinin sıxlığı olur.

Yol Patrul Xidməti Alayının 5-ci tağımının komandiri, polis mayoru Nurlan Əliyev bizimlə söhbətində dedi kı, hava şəraitinin küləkli və yağışlı olmasına baxmayaraq, əməkdaşlarımız hərəkətin təhlükəsizliyini təmin etmək üçün əllərindən gələni əsirgəmirlər. Onlar yağışlı havada avtomobil yolunda xidmət edərkən hərəkət iştirakçılarına köməklik edir, onları çətin vəziyyətə olarkən bu durumdan çıxarır. İlk növbədə ona çalışırıq ki, ağır qəzalar baş verməsin və piyadavurma hadisələri baş verməsin!



Hər bir sürücünün nəzərinə çatdırırıq ki, yağışlı günlərdə hava şəraitinə uyğun sürət həddi seçsinlər və ara məsafəsi saxlasınlar. Və eyni zamanda piyadalar da yol keçərkən yol hərəkəti qaydalarına əməl etməlidirlər. Növbə ərzində şükür olsun ki, heç bir yolnəqliyyat hadisəsi baş vermeyib! Biz həmişə ona çalışırıq ki, xidmət apardığımız avtomobil yolunda sürücülər və hərəkət iştirakçıları özlərini daha təhlükəsiz və rahat hiss etsinlər!

Emil FAİQOĞLU



Məzahir ƏHMƏDOĞLU

QIZILDAN QİYMƏTLİ BÜRÜNC XATİRƏ

...Əlbəttə, o günlərə şahidlik edənlər, yaxud sonralar eşidib-bilənlər yenə həmin hadisəni xatırlayacaqlar. Yazanlar da olacaq. 60 ilin tamamına nə qalıb ki? O illərin, o günlərin qeyri-adi nostaljisi məni bir az tələsdirdi. İndidən, 10-15 gün qabaqcadan yazmağım da bu səbəbdəndir.

1966-cı il. Onuncu sinifdəyəm. Bütün işlərimlə, dərslərimlə, arzularımla bərabər İngiltərədə keçirilən futbol üzrə dünya çempionatına hazırlaşmışam. Artıq 4-5 ildir ki, təhsillə bərabər həm futbol oynayır, həm də əsasən "Neftçi" komandamız olmaqla bu cazibədar oyunu sonsuz həvəs və zövqlə izləyirəm. Futbolu yaradanlar nəhayət ki, öz ölkələrində keçirilən birinciliyi qazana bildilər. Ancaq Tofiq Bəhramovun özünəməxsus "VAR fenomeni" sayəsində ...

O vaxtlar SSRİ-də futbol mövsümü fevralın sonu, martın əvvəlində başlayıb noyabr ayının axır günlərində başa çatırdı. "Neftçi" o vaxt "Neftyannik" adlanırdı. Yəni təkcə rus dilində deyil, azərbaycan türkcəmizdə də eləcə. Komanda ildən-ilə güclənirdi. 1965-66-cı illərdə Şeyxov və Kramarenko kimi qapıçıları, Yaşar Babayev, Adil Babayev, Tofiq Axundov, Trofimov, Boqdanov, Semiqlazov, Valeri Hacıyev kimi müdafiəçi və yarımmüdafiəçiləri, Adamas Qolodets, Zabrodin, eyni zamanda Tuayev-Markarov-Banişevski üçlüyündən ibarət hücumçuları olan "Neftçi" "asansör" kompleksindən xilas olub yüksək yerlər uğrunda mübarizə aparırdı. Belə bir vəziyyət deyəsən Moskvada çoxlarının xoşuna gəlmirdi. Baxmayaraq, Banişevski və Markarovu birinci yığmaya, Tuayevi Olimpiya yığmasına və s. daxil edirdilər. Markarov və Banişevski "Neftçi"də tandem olaraq çox gözəl və faydalı oyun sərgiləyirdilər. Ancaq yığmanın məşqçiləri heç vaxt onların ikisini eyni zamanda meydana buraxmırdılar. Hələ Banişevski tam parlamamışdan qabaq Markarov Minskin "Dinamo" komandasının hücumçusu, adaşı Eduard Malofeyevlə şərikli bombardir olmuşdu. Erməni olsa da, bakılıdır deyə onu 1966-cı ilə qədər yığmaya yaxın buraxmadılar. Yadımdadır ki, daha doğrusu "Sovetskiy sport" qəzetində o illərin tanınmış futbol mütəxəssislərindən biri olan Sevidov isə texnikalı oyun dəsti-xətti ilə fərqlənən "Neftçi" dən danışarkən deyirdi: "Mən təkcə Eduard Markarovu Oleq Bazileviç və Valeri Lobanovski ilə birlikdə ikisindən üstün tuturam". İngiltərədəki dünya birinciliyinə də "Neftçi" dən ən azı 4 oyunçu götürülməli idi. Yollar bağlandı və qərəzçilik hələ uzun müddət davam etdi. Yadıma düşmüşkən bir faktı da qeyd edim ki, hələ o dahi məşqçi Əhməd Ələsgərov olmasaydı "Neftçi" ni elə "beşiyindəcə boğardılar". "Neftçi" həmin o güclü vaxtlarında ölkənin ən arxalı komandası olan "MOİK"-i Bakıda 4:0 hesabı ilə məğlubiyyətə uğratmışdı. Markarov və Banişevski SSRİ yığmasının müdafiəsinin əsasını təşkil edən Şesterniyov, İstomin və Kapliçnı mifini darmadağın etmişdi. Moskva bunun heyfini "Neftçi"də qoymadı. SSRİ kubokunun yarımfinalında Pribaltikadan Kestitus Anzulius soyadlı bir farsın (fars sözünün mənasını oxucularla hər mənada bölüşürəm) futboldan, insanlıqdan, kişilikdən, ümumiyyətlə müsbət anlaşılan bütün xüsusiyyətlərdən uzaq namərdliyi sayəsində "Neftçi" uduzduruldu. Bu, SSRİ futbol tarixində ən ləkəli səhifələrdən biri idi.

Bəzi çatışmazlıqlar, pərdə arxası maneələr olmasaydı, "Neftçi" 1965-66-67-ci illərdə çempionluğa da oynaya bilərdi. Təəssüf ki, komandada müəyyən qədər inamsızlıq da vardı. Ancaq 1966-cı ildəki oyun tərzi tamam başqaydı. Gənc mütəxəssis Əhməd Ələsgərov, Banişevski, Markarov, Kramarenko, Tuayev, Hacıyev kimi indiki bənzətmə ilə adlandırsaq - ulduzlarla birlikdə monolit, həm də yüksək texnikalı bir komanda formalaşdırmışdı. Bakılılar daha paytaxt komandalarından çəkinmirdilər, həmişə medallara oynayan Tiflis "Dinamo" sunu da hərdən məğlub edə bilirdilər, "Zenit"i, "Şaxtyor"u da ...Rəsmi olmayan söhbətlərə görə "Neftçi" nin Kiyevin "Dinamo" komandası ilə dostluq əlaqələri vardı. Bu məsələ bir sıra hallarda hiss olunurdu da. Və beləcə 1966-cı ilin son oyunlarına doğru kiyevlilər çempionluq uğrunda xal fərqini artıraraq onu izləyən komandaları gümüş və bürünc medallara "yönəltdi". Moskvanın "Spartak", Rostovun "OİK", Bakının "Neftçi" komandalarının şansları Tiflisin "Dinamo" , Moskvanın "Torpedo" və "OMİK" komandalarına nisbətən daha inamlı görünürdü. Bu səbəbdən də Moskva komandaları "Spartak" a müəyyən vasitələrlə mümkün köməkliklərini göstərir, ölkə paytaxtının medalsız qalmaması üçün birləşirdilər. İdmanda duyula biləcək belə hadisələr ancaq SSRİ-də mümkün ola bilərdi. Markarov və Banişevski dünya birinciliyindən qayıtdıqdan sonra "Neftçi" də hər dəfə meydana yalnız qələbə üçün çıxırdı. Rostovlular da Fedotovun sayəsində xeyli güclü görünürdülər. Son turlarda gümüş və bürünc medalların taleyi təkcə futbol meydanlarında deyil, sanki həm də şahmat taxtası üzərində həll olunmaqdaydı - müxtəlif üsullarla! Nəticədə rostovluların sona bir tur qalmış ikinci yeri tutacaqları məlum oldu. Sanki bu ilin çempionatının taleyi göylərdən gəlmişdi.İlin əvvəlindən tərtib olunmuş yarış cədvəlinə əsasən "Neftçi" son turu Bakıda məhz "Spartak" la qarşılaşmalı idi. O vaxtlar qələbəyə iki xal verilirdi. Turnir cədvəlindəki vəziyyətə görə "Neftçi" mütləq qələbə qazanmalı idi. Heç-heçə oyun bakılılar üçün məğlubiyyətə bərabər olacaqdı.

Həmin gün, yəni 1966-cı ilin noyabr ayının 30-u V.İ.Lenin adına respublika stadionuna 45000 nəfər futbol azarkeşi "yerləşdirilmişdi". Çünki o vaxt stadionun tribunalarında hər tamaşaçı üçün ayrıca kreslolar yox idi, eləcə sektor boyu uzunlama taxta oturacaqlar... Sevimli komandanı bir çox sektorlarda sıx-sıx əyləşərək, eyni zamanda sektorlar arası pilləkənlərdə cəmləşərək qələbəyə səsləmək qeydi-adi bir atmosfer idi. Bakı və bütün respublika həmin axşam bu oyuna köklənmişdi. "Neftçi" oyun boyu nə "Spartak"a, nə də hakimlərə heç bir şans vermədi. Banişevskinin 2, Markarovunsa 1 qolu böyük hesablı qələbəni təmin edərək həmin gecəni respublika bayramına çevirdi. Düz 60 il bundan əvvəl...

Yeni nəsil bu hadisəyə adi hal kimi də baxa bilər. Ancaq nəzərə almaq lazımdır ki, hələ çar Rusiyası dövründən hər məqamda sıxışdırılan Azərbaycan, sovet dövründə də davam edən bu ayırıcı ənənənin gizlin simptomlarından əziyyət çəkirdi. Belədə Azərbaycanın hər bir uğuru, eyni zamanda idman nailiyyətləri yüksək dəyərləndirilməlidir. O vaxtlar Kirovabad adlanan qədim Gəncənin "Dinamo" komandası "A" qrupuna vəsiqə qazandıqdan sonra, "Neftçi" yə və bütövlükdə Azərbaycan futboluna qarşı ədalətsiz yanaşmalar daha da açıq şəkil aldı. Bütün bunları bir daha yada salıb qızıldan qiymətli bürünc xatirənin sevincini zədələməyək. Bu, Azərbaycan futbolunun sovetlər dönəmində çox böyük bir zəfəri idi.

***P.S.** Mən yeddinci sinifdə oxuyarkən artıq rayonumuzda da ötürücü televiziya stansiyası qurulmuşdu. Biz "Neftçi" komandasının Bakıda keçirilən və translyasiya olunan bütün oyunlarına baxa bilirdik. 1963-cü ilin avqustunda "Neftçi"nin indi dünya birinciliklərində iştirak edən Yaponiyanın milli olimpiya komandası ilə yoldaşlıq oyunu da televiziya vasitəsilə futbol həvəskarlarına təqdim olunmuşdu.*

"Neftçi" - Yaponiya 10-0!

Akif RƏFİYEV,
Binəqədi Rayon Ağsaqqallar Şurasının sədri

Müstəqilliyimizin memarı



Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Heydər Əliyevdir. Heydər Əliyevin adı tariximizə həm də böyük xilaskar kimi düşüb.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev müqəddəs ata vəsiyyətini yerinə yetirərək otuz ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımızı işğaldan azad etdi, şanlı Azərbaycan bayrağını vətənimizin qürur simvolu olan Şuşada dalğalandırdı.

Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

İşğaldan azad edilmiş ərazilərdəki müəssisələrdə neçə şagird təhsil alır?

Böyük Qayıdış çərçivəsində işğaldan azad edilmiş ərazilərdə 27 ümumi təhsil və 13 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib.



Adalet.az Elm və Təhsil Nazirliyinə istinadən xəbər verir ki, müəssisələrdə ümumilikdə 6 576 şagird və uşaq təhsil alır.

Təhsil infrastrukturunun inkişafı doğma yurda qayıdan ailələr üçün əlçatan təhsil imkanlarının yaradılmasına xidmət edir.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

Bizi görüşdürən VƏFALI XATİRƏLƏR

Xatirələrə üz tutduğum yolda söykəndiyim ZİRVƏ Xalq şairi Məmməd Arazın "Xatirələr"idi...

Hər gün öz-özümə düşünürəm ki, mənim keçmişdə qalmağım, "keçmişin adamı" olmağım heç də təsadüfi deyil. Bunu indi anladığım bir səbəbi var. O da xatirələrə bağlılığım. Yəni mən xatirələrdən qopub ayrıla bilmirəm. Özdə onların nə ovqatına, nə ifadə etdiyi mərama, hətta kiminlə hansı şəraitdə yaddaşıma köçməsindən asılı olmayaraq, xatirələr mənim üçün təkcə yaşanmış ömür deyil, həm də indi yaşadığım gündü, aydı. Bu məqamda hər xatirə mənim üçün həm də ömrümdən qopan zaman kəsiyi olmaqla yanaşı, həm də həyata bağlayan bir teldi. Mən ondan yapışıb dünənimi özümlə sabahıma daşıyıram...

Söz adamları öz yaradıcılıqlarında xatirələrlə, keçmişlə, dünənlə bağlı kifayət qədər əsərlər, yazılı nümunələr ortaya qoyublar. Onların da hərəsi bir ovqatın, bir yaşamın diktəsi, təəssüratıdı. Bu mənada xalq şairi, unudulmaz Məmməd Arazın "Xatirələr"i mənim üçün bu gün başqa bir çalarda, başqa bir rəngdə, başqa bir havada özünü ifadə edir. Yəni yaşadığım ovqat Məmməd Araz şeirini mənə bu gün bir içim su kimi, bir udum hava kimi və həm də əlimdə tutalqa edib ayaqda duracağım ümid kimidir. Ona görə də mən öz ovqatımdan o xatirələri fərqli görürəm. Mənim baxış bucağım indi o xatirələri vərəqləyir. Həmin xatirələr də mənimlə elə şirin-şirin söhbət edir ki, sanki bu an mən Sənlə birlikdəyəm. Amma səs Məmməd Arazın səsidi:

Axır yetişəcək ayrılıq çağı,
Mən səndə, sən məndə alışasıyıq,
Hələ bu görüşü bir-iki yaxın
Dosta da arabir danışasıyıq.

Görürsənmi, necə də səmimi, necə də duyğusaldı ilk görüş, ilk tanışlıq, ilk anlaşma və onu bizim içimizdə yandırdığı qığılcım. Həmin o qığılcım oda çevrilənə qədər səbrimiz çatmayacaq. Sən rəfiqənə, mən dostuma bu görüşdən danışacam. Səni necə gördüyümü, necə sevməyə başladığımı söyləyəcəm. İçimdə çözələn o qığılcımın məni necə yandırmağa başladığı anladacam... Bax, bunları düşünə-düşünə lap sonralar yazdığım misralar bəlkə də onda doğulacaqdı. Və o misralar indi bir qaçaraq yazı kimi gözümün önündən gəlib keçir. Onda doğulan misralar indi bu cür səslənir:

Daha dağdan enirəm
Yavaş-yavaş sönürəm...
Dünənimə dönürəm -
Salam, xatirələrim...
Balam - xatirələrim!..

Hə, sizi deyə bilmərəm, mən o xatirələrimi dünyaya gələn övladım kimi qarşıladım. Anladım ki, sevgimlə bərabər dünyaya xatirələrim də gəlib. Və mən onların hər ikisini ürəyimdə, yaddaşımda, ruhumda özümlə daşımaqdan bir xoşbəxtlik, bir məmnunluq hiss etdim. Təbii ki, bu da elə böyük Məmməd Arazın sözünün işığında özünü daha parlaq, daha gözəl göstərirdi. Həmin o gözəlliyi bu misralar yəqin sizə də təqdim etmiş olar:

Xeyli susmayacaq yaddaşın səsi,
Sözün olmayacaq əvvəli, ardı:
"Sinəmdə bu odda kişi nəfəsi..."
"Qəlbimdə bu adda qadın yaşardı..."

Həqiqətən yaddaşa, qəlbə yazılan südlə gələn bir şirin "bəladır", bir "gözəl" xəstəlikdir. O yalnız sümüklə, son nəfəslə çıxır adamın canından, qanından. Bunu belə deyirlər. Mən bu deyimlə razılaşmıram. İçimdəki səs mənə deyir ki, sevgi sümüklə də çıxmır, son nəfəslə də çıxmır və sadəcə olaraq Tanrıya qovuşan ruhun özünə çökür və deməli, yaşayan ruhla birlikdə o sevgi də yaşayır. Söhbət qısa və bölünməyən, kiçilməyən, xırdalanmayan məhəbbətdən gedir. Mən də bu inancla yaşayıram və o inancın işığında da həmin o sevginin ayağına baş qoyuram. Və:

O ləzzətlə, o, tamla -
Əlim dolu bir camla...
Gəldim yenə, bir damla -
Alam, xatirələrim...
Salam - xatirələrim!..

Yəqin ki, bu düşüncələrim, bu mülahizələrim kimlərinsə qınağına və yaxud etirazına səbəb ola bilər, ya da kimsə təqdir edə, həmfikirliyini bildirər, bütün hallarda isə mənim içimdən gələn səs özümün öz məntiqimdə, öz nöqtəmdə doğru olduğuma haqq qazandırır, üstəlik burada mənə Məmməd Arazın misraları da az qala hökm şəklində ifadə etdiyi fikirləri də yardımçı olur, dəstək verir. Söhbət unutmamaqdan, ayrılmamaqdan gedir. Xalq şairi yazır ki:

Hələ deyəcəyik: "dönə o günlər,
Onu istəyimcə görə bilmədim.
O mənim qəlbimə girdiyi qədər
Mən onun qəlbinə girə bilmədim..."

Sonra bu ülfətin, gülüşün, sözün
Odu yavaş-yavaş soyuyacaqdır,
Bu səslər, bu sözlər ürəyimizin
Gizli bir küncündə uyuyacaqdır.

Mən bu misraların qollarını necə açdığını, mənim öz aurasına necə aldığını ifadə etməkdə çətinlik çəkirəm. Ona görə ki, bu misralar bir rəssam işidir, bir canlı tablodu, bir sənət əsəridi, bir kino lentidi...təkcə oxumursan, həm də görürsən, izləyirsən, yaşayırsan, izləyirsən.

Hətta özünü o tablonun içərisində, o həyatın özündə görürsən. Elə bilirsən ki, yazan da, danışan da sənin özünsən. Təbii ki, bu, Məmməd Araz qüdrətidi, Məmməd Araz istedadının al-əlvanlığıdır...

Bu möhtəşəm səhnədə yaşananlar yalnız həqiqi sevginin daşıyıcıları üçün özəl və gözəldir. Bax, elə o özəl və gözəl olan da mənim əlimi buraxmır, özü ilə gəzdirir hər yeri. Mən də gəzə-gəzə səni görür, səni duyur, sənlə bərabər addımlayır və sənə deyirəm:

Bir də bu yol salınmaz
Bir də o ney çalınmaz...
Bircə sənsən, alınmaz -
Qalam, xatirələrim...
Salam - xatirələrim!..

Ayrılmaq istəmədiyim, qopmağı belə düşünmədiyim həyat gerçəkliyi. Böyük mənada mənim YAŞAMIM! Sən bu anın içərisində hər şeyə qadir və sahibsən. Ona görə də mən də özümü hamıdan güclü və hər şeyə qadir sayıram...Ona görə ki, sən həm ürəyimdəsən, həm də əlin ürəyimin üstündədi. Bu da o deməkdir ki, olan, baş verən hər bir hadisə, hərəkət qədərin, bəxtin yazısıdı. Onu da qədər kimi, bəxt yazısı kimi hopdurmaq lazımdı varlığımıza. Çünki biz bunu etsək də, etməsək də o, bizimlə qalacaq. Bunu təkcə mən demirəm. Elə Məmməd Araz da deyir:

Qalacaq bir uzaq, bir şirin nağıl,
Yolu yormayacaq nə məktub, nə zəng.
Ya məndən bir təbrik - bayramqabağı -
Ya səndən bir barmaq kağız gələcək.

Bir barmaq kağız da, bu bir gül ləçəyi də, bu bir kəlmə söz də - duyumu olan, duyğusallığı olan, böyük və pak hislərin daşıyıcısı kimi yorulmadan ən ali hissə qollarını açan insan üçün, indiki məqamda isə aşiq üçün tanrı mükafatıdı, Allahın hədiyyəsidi. Ona görə də o, həm xatirəyə çevrilir, həm də sənin xatirə dəftərin arasındakı gül ləçəyinə, ya da bir barmaq vərəqə, hansı ki, o, sənin adına yazılıb. Sən o gül ləçəyini də, o xatirəni də, o vərəqi də hamıdan gizlin bir guşədə, lap elə yatağında qoxulayıb xəyala dalacaqsan, kipriyinin ucundakı bir damlanın yastığına necə damdığını hiss etməyəcəksən. Ona görə ki, o sevgi sənin də ruhuna sahibdi, sənin də ürəyinə hakimdi:

İçdin ruhumun yağın
Öpdün gözümün ağın...
Mənə hamıdan yaxın -
Balam, xatirələrim...
Salam - xatirələrim!..

Bəli, vaxt... vədə...zaman...bütün bunlar bir mənanı ifadə etsə də, amma hər birinin öz yozumu var. Çünki mən "vaxt" deyəndə, "vədə" düşünəndə, bu zamandan qopub gedirəm üzü sənə tərəf... üzü həmin o görüş yerinə...üzü həmin günə tərəf...Ona görə də vaxtı, vədəni elə bu zamanın özünə daşıyıram. Bu zamanı da o vaxta, o vədəyə. Bu bir-birinə qarışan vaxt, vədə içərisində sənin də, mənim də yaxamdan eyni xatirə tutur. Onu xalq şairi Məmməd Araz da özünəməxsus şəkildə sənə də, mənə də xatırladır:

Bir gün fikrimizə bir iti caynaq,
Girib bunları da didişdirəcək,
Ən məhzun, kədərli anlarda ancaq
Bizi xatirələr görüşdürəcək.

Doğurdan da, mən zaman-zaman bir gerçəyin canlı şahidinə çevrilmişəm. O da məni iç dünyamın adamları ilə sorğusuz- sualsız, izinsiz-filansız görüşdürən xatirələrim və yuxularımdır. Onlara qadağa yoxdur. Onlar istədikləri vaxt yaddaşımın, ürəyimin qapısını açıb məni iç dünyamdakı dünənimlə qarşılaşdırırlar. Bax, onda bir daha əmin oluram ki, hansı ovqatda olmadığımdan asılı olmayaraq mən həmin o iç dünyamın adamları ilə, ən başda isə həm də ruhumda olan sənlə bir yerdəyəm. Göz-gözə dayanıb özümüzdən, arzularımızdan, xəyallarımızdan danışırıq. Baxmayaraq ki, bu bir an məsələsidi. Olsun! Bu bir an üçün də yaşamağa və ölməyə dəyər. Çox da ki:

Haqdan mənə "çök!" - gəlib
Karvan yorğun - lök gəlib!
Öz ömrümə köklənib...
Lalam, xatirələrim...
Salam - xatirələrim!..

Bütün gerçəkliklərin ən gerçəyi olan dünən...Sən mənim üçün xatirə dolu bu günsən. Ona görə də bugünüm olan dünənim, sən də məndəsən. Sənə yalnız elə gördüyüm, sevdiyim, bildiyim kimi olmağı arzu edirəm. Başqa nəsə deməyə indi söz tapmıram. Amma Məmməd Araz deyir ki:

Ta heç nə demirəm, heç nə demirəm,
Alışır sinəmdə söz aram-aram.
Mən sənə bir kövrək, yaddaşı möhkəm
Vəfalı xatirə bağışlayıram.

P.S. ***Bəli, bu yazının sonuna da ustadımız, ölməz Məmməd Araz ilə, daha doğrusu, onun "Xatirələr"i ilə əl-ələ gəlib çatdım. Yol boyu sən də mənimlə birlikdə idin. Yəqin ki, bunu özün də hiss etdin.***

Autizmlə əlaqəli ola biləcək yeni genetik dəyişikliklər aşkarlanıb

Toronto Universitetinin Donnelli Mərkəzinin alimləri DNT-nin əvvəllər məlum olmayan və dəyişiklikləri autizmlə əlaqəli ola biləcək hissələrini aşkar ediblər.

Adalet.az xəbər verir ki, tədqiqatın nəticələri "Nature" jurnalında dərc olunub.

Qeyd olunub ki, bu genetik variantlar neyronların fəaliyyətini poza və standart genetik testlərlə səbəbi müəyyən edilməyən bəzi autizm hallarını izah edə bilər.

Tədqiqatçılar beynin hüceyrələrinin hansı zülalları istehsal etməsinə



təsir göstərən mikroekzonlar adlanan çox qısa genetik fraqmentləri araşdırıblar.

Alimlər bu hissələri müəyyənləşdirmək və genetik dəyişikliklərin onların fəaliyyətini necə poza biləcəyini öyrənmək üçün maşın öyrənməsi modelini hazırlayıblar.

Minlərlə insan toxuması nümunəsi və ayrı-ayrı hüceyrələrə dair məlumatların təhlili nəticəsində əvvəllər məlum olmayan 1514 mikroekzon aşkarlanıb.

Daha sonra alimlər ümumilikdə 7 391 ailədən 25 mindən çox insanın iştirak etdiyi üç böyük genetik tədqiqatın nəticələrini araşdırıblar.

Nəticədə autizmlə əlaqəli 72 nadir genetik variant müəyyən edilib. Bu variantlara autizm diaqnozu qoyulmuş iştirakçıların 2,5 faizində rast gəlinib, onların autizmi olmayan bacı və qardaşlarında isə aşkarlanmayıb. Həmin genetik variantların daşıyıcılarının 82 faizində xəstəliyin genetik səbəbini əvvəllər müəyyən etmək mümkün olmayıb.

Tədqiqatçılar aşkarlanan bəzi dəyişiklikləri laboratoriyada yetişdirilmiş insan neyronları üzərində də sınaqdan keçiriblər. Eksperimentlər həmin dəyişikliklərin hüceyrələrin mikroekzonlardan istifadəsinə təsir etdiyini təsdiqləyib.

Müəlliflər vurğulayıblar ki, araşdırma hələlik əsasən kompüter modelləşdirməsinin nəticələrinə əsaslanır və aşkarlanan genetik variantlar özlüyündə autizm diaqnozu qoymağa imkan vermir. Bundan başqa, müəyyən edilən dəyişikliklər bu pozuntusu olan insanların yalnız kiçik bir hissəsində müşahidə olunur.

"Yaxşı yazmaq yazıçının inqilabi borcudur"



Şəmsəddin ƏLİYEV
AYB-nin üzvü,
hüquqşünas, publisist

”Elə bir dünyada yaşayırıq ki,orada dəfn mərasimləri mərhumdan,nikah sevgidən,xarici görünüş insanın ağıl və ruhundan vacib hesab olunur.Biz zahiri görünüşə aludə olan, məzmunu isə heçə sayan bir mədəniyyətin içində yaşayırıq. Belə bir mühitdə yazmaq çox çətindir.”

Ser Entoni Hopkins.
İngilis aktyoru və yazıçısı.

Ədəbiyyat üzrə Nobel mükafatı laureatı,Kolumbiyalı yazıçı Qabriel Markes yazır: ”Yazçının inqilabi borcu yalnız və yalnız yaxşı yazmaq olmalıdır... Əgər hekayə yazıramsa gündə bir səhifə ,roman yazıramsa,yenə bir səhifə yaza bilirəm.” İlk baxışda real görünməyən yazıçı etirafı,sözə və fikirə olan əsl sənətkar duyumunun və məsuliyyətinin parlaq ifadəsdir.

Sabir müəllim sözlə əlləşib-vuruşan, onunla ”haqq-hesab çəkməkdən” zövq alan həssas qələm ustadlarındandır. ”Ömür kitabı” şairin sözün geniş meydanında tam sərbəst və asudə qala bilməsinin əyani təzahürüdür. Yenə Markesin :” Ədəbiyyat yerli-dibli olmasaydı belə, dünya zərrə qədər də dəyişməzdi...”ifadəsi eyni cür anlaşıla bilməz!.Zənnimcə Yaradanın bəndəsini anladan SÖZü olmasaydı dünya tam mənasız olardı.

Yazıçılıq çox əziyyətli bir işdir.Oxucunu heyrətə gətirən,qarşısında sehrlənib qaldığımız şah əsərlər qram-qram yazılıb. Yazıçı yazdığı hər bir səhifədə sözlə döyüşməli olur və bu döyüşdən çox vaxt SÖZ qalib çıxır.Sabir Rüstəmxanlı məhz bu müqəddəs İlahi dəyərə kökləndiyi üçün uğur qazanır. O, sözün həqiqi mənasında milli düşüncəni və vətəndaş mövqeyini uca tutan,İstiqlal məfkurəsinin ağır yükünü daim özündə daşıya bilən sərraf şairdir.Geniş,əhatəli yaradıcılığında doğma Azərbaycan xalqının tarixi yaddaşı qarşısında məsuliyyətini dərk edən, ana dilimizin ucalığını,milli kimliyimizi ustalıqla əsas qayəsinə çevirən yazıçıdır. Onun məşhur ”Ömür kitabı” bütöv bir xalqın tarixinə, xalqın milli-mənəvi dəyərlərinə,milli mənliyinə qayıdışı, çağırışıdır. Ziyalının və şairin böyüklüyü təkcə yazdıqlarında yox, xalqın taleyüklü vəziyyətlərində nümayiş etdirdiyi mövqedədir. O, Milli Azadlıq Hərəkatının öncül simalarından və fəal iştirakçılardan biri kimi Azərbaycan dövlətinin müstəqilliyi uğrunda gedən mübarizədə sözünü demiş, ictimai-siyasi fəaliyyətində həmişə milli maraqlara sədaqət nümayiş edə bilmişdir.

Sabir Rüstəmxanlı yalnız dövrünün yox, yaşadığı zamanın mənəvi simasını formalaşdıra, yaddaşlarda iz buraxa bilib. Onun yaradıcılığı bir həqiqəti xatırladır: Millətin varlığı,dövlət sərhədlərinin toxunulmazlığı ,onun tarixi yaddaşı, dilin və milli ruhun yaşaması ilə təmin olunur.” İstedad insanı tanıdır, xarakter isə onu şəxsiyyətə çevirir”.-Müdrik kəlama uyğun O,öndə olan ziyalı,sədaqətli vətəndaş,dost,qardaş, xalqın şairi və nasiri,tarixi romanların müəllifi kimi istedadla xarakterin bariz nümunəsidir.

Əziz Sabir müəllim! Bu müdrik çağınızda qələminiz yorulmasın, sözünüzün nuru sönməsin, qələminizin mürəkkəbi qurumasın! Allah ömrünüzə və yaradıcılığınıza min bərəkət versin!

Ədəbiyyat tarixində elə əsərlər və yazıçılar olub ki, bəlli vaxtlarda gurultu qopara,ad və şöhrət qazana biliblər. Lakin zaman ötdükcə o əsərlər və müəlliflər unudulub. Əsərin böyük tirajla nəşri və ya bir çox dillərdə tərcüməsi yazılanların və müəllifin yaddaşlarda qalması üçün əsas şərt sayılmır. Məncə ədəbi mühitdə qalmaq kitabların nəsildən-nəsilə keçməsi, ataların oxuduqlarını oğulların da bəyənib sevməsidir. Bu mənada ,Sabir Rüstəmxanlı müasir dövrün sevilən və oxunaqlı yazıçılarındandır . Taleyinə yazmaq borcu düşübsə və qarşıya qoyulan məqsədə çatmaq qismət yazılıbsa,ondan qaçmaq mümkün olmayacaq. Sabir Rüstəmxanlının özünəxas xarakterik cəhəti ondadır ki,o, ixtiyarındakı bütün vasitələrlə-təxəyyül, həyat təcrübəsi, mütaliəsi, iti müşahidə qabiliyyəti və bacarığı ilə çətin tapılan nadir metallarla müqayisə ediləcək fikirlərini poeziyaya və ya nəsrə köçürə bilir.



Kolumbiya yazıçısı,Nobel mükafatı laureatı Qabriel Qarsia Markes yazıçılıq peşəsini və onun sirrlərini çiçəklərdən və otlardan şirə çəkən bal arısına bənzədir.Yazıçı da,mütaliəsilə əlaqələk etdiyi kitablardan zərrə-zərrə, qətrə-qətrə topladığını səhifələrə köçürmək üçün cani dildən çalışır,əziyyət çəkir.Böyük rus sovet şairi Vladimir Mayakovskinin ”Maliyyə müfəttişi ilə poeziya haqqında söhbət” şeirinin dili ilə ifadə etsəm,-Poeziya radium hasilatı kimidir..Bir qram əldə etmək üçün illərlə zəhmət çəkməli olursan.Tək bir söz naminə minlərlə ton söz filizini emal edirsən...və s.Böyük şair poeziyanı ilhamınvəhyin ani məhsulu deyil, söz uğrunda böyük zəhmət,axtarış və sənətkarlıq prosesi kimi təqdim edir.

Bu misralar şair,yazıçı və publisistlər üçün çox ciddi yaradıcılıq prinsipləridir! Sabir Rüstəmxanlı sözün həqiqi mənasında sözlə əlləşib - döyüşən, bəzən də onunla ”haqq-hesab çəkməkdən” zövq alan həssas qələm ustadlarındandır. 15 cildik külliyyatın sahibi və Azərbaycan Milli Kitabxanasında oxuculara təqdim olunan (2022-ci ildə nəşr edilib) 544 səhifəlik Sabir Rüstəmxanlı-Biblioqrafiya kitabı etibarlı mənbə kimi bunu təsdiqləmiş olur.

Sabir müəllim həmişə milli ruhun və vətəndaş həmrəyliyinin tərəfdarı kimi dəbdə olub. Ədəbiyyatda milli həmrəylik həmişə qiymətli olub. Sabir müəllim bunu bacarır, hətta,siyasi mövqeyində də,bu mövqeyini sərgiləyə bildi.

Sabir müəllimin yaradıcılığına bələd olduqca yazıçılığın ağır zəhmət olduğunun şahidi olursan, hiss edirsən ki, yazmaq müəllifə çox çətin başa gəlir.Tarixi mənbələrə söykənən belə fikir və söz külliyyatı oxucuda xoş təəssürat yaradır

Sabir Rüstəmxanlıın 15 cildlik seçilmiş əsərlərində qərar tutan hər bir əsər şairin qərarı və inamına sadiqliyin təcəssümüdür.

Mənə elə gəlir ki, Sabir Rüstəmxanlı yazdıqlarını öncədən heç kimlə bölüşmür. Bu,ədəbiyyatın ictimai məhsulu ,ədəbi əsərin isə fərdi xarakterə malik olması ilə bağlıdır. Şair yazdıqlarında heç kimdən kömək ummur. Kitablarında təkrar qeyd etdiyim kimi milli tarixin və yaddaşın gerçəkliklərini, milli-mənəvi dəyərlərlə yanaşı ədəbi məsləhətlərini, sənət və sənətkarlıq kəşflərini, ustad dərslərini də görmək olur. O, geniş auditoriyasında oxuculara üslub və ədəbi siyasət dərsini də keçir, ədəbi texnika və metod dərsini də verir,öyrənir və örədir! Sabir Rüstəmxanlının ədəbi texnikası son dərəcədə idrakidir. Onu tanımaq üçün yaradıcılığına bələd olmaq lazım gəlir. Bəzən sadə görünən bir əsərin gücü onun yalnız,Aysberqin bayırdan göz qamaşdıran buz parçasından ibarət deyil, nəhəng buz parçasının arxasında görə bilmədiyimizin səkkizdən yeddisi suyun altındadır. Oxuduqlarımızın arxasında daha böyük gizli fikirlər var. Ümumiyyətlə ədəbiyyatı hər tərəfli bilmədən, yaxşı, oxunaqlı bir əsər yaratmaq mümkün olmur.Yaradıcılıq mədəniyyətinə səthi yanaşmaq, etinasız münasibət göstərmək qəbul edilmir. Zənnimcə ədəbiyyatı Üniversitetlərdə yox,ustad yazıçıların əsərlərini təkrar-təkrar oxumaqla öyrənmək olur.

Yazırlar ki,Herminquey (ABŞ yazıçısı və Nobel mükafatı laureatı) çox çətin yazıçıdır.Lakin onun məharəti işinin sadəliyindədir, iş metodu zərgər dəqiqliyi ilə davam edib.Nobel mükafatçısının qənaətinə görə yazıçı yaxşı yazmaq üçün tənhalığa məhkumdur,ətrafdan təcrid olunmalıdır...

Xalq Şairinin poeziyası, musiqi üçün zəngin obrazlılığı, vətəndaş ruhu, milli yaddaş, azadlıq və insan duyğularının dərinliyi ilə seçilir. Onun sözlərinə yazılmış not əsərləri (Az. Milli Kitabxanasının biblioqrafik materiallarında) ayrıca bölmə kimi göstərilir. ”Mən Sənինləyəm” (E.Mansurov), ”Oda:Əhdnamə” - (Xəyyam Mirzadənin əsəri) böyük xor və simfonik orkester üçün yazılıb. Birincisi,estrada - Simfonik mahnı, digəri simfonik okrester üçün nəzərdə tutulmuş iri həcmli musiqi əsərləridir.

”Ömür kitabı” (1988) Şairin ən mühüm əsəridir. Milli özündərk, xalqın tarixi yaddaşı, milli kimlik və istiqlal düşüncəsi əsərin əsas ideyasını təşkil edir.

”Qan yaddaşı” (1986) Xalqın tarixi taleyi, milli ağrı və yaddaşı, ”Gəncə qarısı” (1981) milli-mənəvi dəyərlərlə bağlı poeziya nümunəsidir.

”Sağ ol ana dilim” (1983), ”Atamın ruhu” (2002) ailə, Xudu kişi ilə bağlı xatirələri, kök və mənəvi varlıq, ”Xətai möcüzəsi” milli tarix və dövlətçilik düşüncəsi ilə bağlı bədii xəzinələrdəndir.

”Göy Tanrı” Türk xalqlarının qədim tarixi, mifoloji dünyası və mənəvi kökləri, ”Ölüm zirvəsi”, tarixi romanı, ”Xətai yurdu”, ”Xalq meydanı” - milli azadlıq mübarizəsi və iqtisadi siyasi prosesləri əhatə edən əsərləri şairin 15 cildik ”Seçilmiş əsərləri”ndə toplanıb. Zənnimcə ”Ömür kitabı”, ”Göy Tanrı” və ”Qan yaddaşı” onun şah əsərlərindəndir.

Sabir Rüstəmxanlının yaradıcılığı türk dünyasının hadisələrlə zəngin tarixini dolğun tərzdə əks etdirir. Onu, mübaliğəsiz ötən əsrin və müasir dövr ədəbi mühitinin şahidi və salnaməçisi adlandırmaq olar.

Xalq yazıçısı həqiqi tarix saydığımızı lirikaya və nəsrə çevirrməklə bədii cəhətdən cəsarətli bir addım atır. Bəzən də,qələmə aldığı tarixin səhih əhvalatlarını tarixi əsər də adlandıra bilərik.

Şairlik həmişə axtarışda olmaqdır. Şair var gerçəklikdən qaçır, zənnə qapılıb yazır. Sabir müəllim isə yazdıqlarına şahidlik edir,onun lirikası və nəsri də daktildir (toxunmaqla bilinir) bir neçə cümlədən və ya misradan sonra müəllifi tanımaq olur. Xalq şairinin yaradıcılıq dilinin sintaktik quruluşu Avropa dillərinin çoxundan fərqlidir, özünəməxsus milli sintaktik sistemə malikdir. Əsərlərinin leytmotivi Vətən sevgisini,milli yaddaşın oxucuda müəyyən emosional və fəlsəfi təsir yaratmasını,hadisələri və obrazları vahid məna ətrafında birləşdirməklə bir növ müəllif öz mövqeyini möhkəmləndirə bilir.Hər şey oxucunun aydın dərk edə bildiyi dildədir, söz və fikir sehrini itirmir. Oxucu bu əsərlərdə diqqətini cəm edib, qayğılarını unudur hadisələrdə iştirak edir və toxunulmaz ideyaların əsiri olur...

Son qeyd: Əziz oxucular,Sabir sevənlər!

Sabir Rüstəmxanlının yubileyi,80 illiyi ilə bağlı yazdıqlarım xalq şairinin yaradıcılığını tam əhatə etmirsə məni qınamayın.Yubiley ilinin bitməsinə az vaxt qaldığına görə,bəlkə də gecikmişəm.Mən hüquqşünas,bir az da publisistik bacarığım var,-deyə heç kimlə məsləhətləşmədən,cəsarət tapıb belə bir yazını ərsəyə gətirdim.Allah amanında olun!

Dünyanın ən hündür binaları tikiləcək

2 kilometr hündürlüyündə

Dünyanın ən hündür binası olan Dubaydakı ”Bürc Xəlifə”nin rekordunu yeniləyə biləcək göydələn layihələri hazırlanır.

Adalet.az xəbər verir ki, ”Naked Science” nəşri müxtəlif ölkələrdə tikintisi planlaşdırılan ən hündür binaların siyahısını təqdim edib.

Səudiyyə Ərəbistanında 2 kilometrlik göydələn

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda hündürlüyü təxminən 2000 metr, mərtəbələrinin sayı isə 678 olacaq göydələnin tikintisi planlaşdırılır. Layihə reallaşarsa, bina ”Bürc Xəlifə”dən iki dəfədən çox hündür olacaq.

Britaniyanın ”Foster + Partners” şirkətinin hazırladığı layihə Ər-Riyadın şimalında salınması nəzərdə tutulan 306 kvadratkilometrlik ”North Pole” şəhərsalma kompleksinin əsas hissəsi olacaq.

Misirdə 1000 metrlik bina

Misirin Yeni İnzibati Paytaxtında ”Oblisco Capitale” adlı 1000 metrlik göydələnin tikintisi nəzərdə tutulur.

2018-ci ildə təqdim edilən layihə həyata keçirilərsə, bina dünyanın ən hündür tikililərindən birinə çevriləcək.

İndoneziyada 780 metrlik göydələn

İndoneziyanın yeni paytaxtı kimi inkişaf etdirilən Nusantara şəhərində 156 mərtəbəli ”BUMN Tower”in tikintisi planlaşdırılır.

Binanın dam səviyyəsində hündürlüyü 745 metr, şpillə birlikdə isə 780 metr olacaq.

Dubayda yeni rekord layihəsi

Dubayın ”Uptown” rayonunda 711 metr hündürlüyündə ”Uptown Dubai Tower 1” göydələninin inşası nəzərdə tutulur.

Layihə tamamlanarsa, bina ”Bürc Xəlifə” və ”Burj Azizi”dən sonra şəhərin üçüncü ən hündür tikilisi olacaq.

Rusiyada 703 metrlik göydələn

Sankt-Peterburqda mövcud ”Laxta Mərkəzi”nin yaxınlığında 703 metr hündürlüyündə, 150 mərtəbəli ”Laxta Mərkəzi - 2” binasının tikintisi planlaşdırılır.

2021-ci ildə təqdim edilən layihəyə əsasən, binada ofislər, ictimai məkanlar və təxminən 590 metr yüksəklikdə müşahidə meydançası yerləşəcək.

Malayziyada nəhəng layihə

Malayziyanın Kuala-Lumpur şəhərində məşhur ”Petronas” qüllələrinin yaxınlığında ”Tower M” göydələninin tikintisi nəzərdə tutulur.

”Ombak KLCC” kompleksinə daxil olan binanın tikintisinin 2035-ci ildən tez başlamayacağı, tamamlanmasının isə 2045-2050-ci illərə təsadüf edə biləcəyi bildirilir.

Məkkədə 600 metrlik binalar

Səudiyyə Ərəbistanında 2025-ci ildə təqdim olunan ”King Salman Gate” layihəsi Məkkədə, Məscidül-Həramın yaxınlığında həyata keçiriləcək.

Ümumi sahəsi 12 milyon kvadratmetr olan kompleksdə çoxsaylı hündürmərtəbəli binaların tikintisi planlaşdırılır. Ən hündür binanın təxminən 600 metrə çatacağı gözlənilir.

Qeyd edək ki, sadalanan layihələrin bir qismi hələ planlaşdırma mərhələsindədir. Onların hamısının tikiləcəyi və nəzərdə tutulan hündürlükdə tamamlanacağı təsdiqlənməyib.

Təbrizə Pünhanın şeirlərindəki onomastik vahidlərin semantikasına dair



Akif İMANLI
Filologiya elmlər doktoru, professor

(əvvəli ötən sayımızda)

İkinci misrada işlənən ”sultan” haqqında nə demək olar? Sultan // soltan ”hökumət, hakimiyyət” mənasında işlənən söz olmaqla Abbasilər dövründə yaranmışdır. Tədqiqatçıların məlumatına görə, ilk dəfə Harun ər-Rəşid öz vəziri Cəfər Bərməkiyə fəxri ad kimi ”sultan” titulunu vermişdir. Sonralar xilafətə tabe olan əyalət hökmdarlarına da verilən bu titul Sultan Mahmud Qəznəvi dövründə ən yüksək titula çevrilmişdir.

”Saman düşdü, Zaman öldü”, - deyərlər // ”Əcəb oldu, bizə güldü”, - deyərlər.

Zaman ərəb dilindəki zəman sözündən olub, elə ”zaman” deməkdir. Məcazi mənada ”bəxt, tale” mənasında da işlənir. ”Saman düşdü, Zaman öldü” deyimi ilə bağlı bir hadisə xalq arasında yayılmışdır: Gecə bərk külək əsir, damdan bir tay saman düşür Zamanın başına, o da ölür. Odur ki, deyirlər ”Saman düşdü, Zaman öldü”.

Əlini möhkəm tut yarıb dənizi // Musa peyğəmbərtək qaça bilərik.

Musa - Bibliyada adıçəkilən Moşe peyğəmbərin qədim yəhudi adının ərəb formasıdır. Bu adın ərəbcə mənası ”suda batmaqdan xilas olmuş, sudan xilas olmuş”dur.

Musa peyğəmbərlə bağlı bir rəvayət yaranmışdır: Misirdə yəhudilərin sürətlə artdığını görən və bu artımın təhlükəli olduğunu duyan yerli hakim əmr edir ki, dünyaya gələn bütün yəhudi oğlanları öldürülsün. Belə bir şəraitdə bir ana öz oğlunu üç ay qoruya bilir. Lakin uşağını qorumaq imkanının tükəndiyini hiss edən ana qarğıdan səbət düzəldir, səthini qətranlayır, sonra oğlunu həmin səbətə qoyub onu Nil çayına buraxır. Həmin gün, rəvayətə görə, Misir Fironunun (Tövratda Misir hökmdarı Firon adlanır) qızı öz qaravaşları ilə Nildə çimməyə gəlibmiş. Qız səbətdə üzən uşağı görüb xilas edir və uşağa ad qoyur. Rəvayətdə adqoyma mərasimində mübahisəli məqamlar vardır. Bəziləri belə hesab edir ki, uşağa Mesu, yaxud Meşu adı qoyulubmuş. Bu isə qədim misirlilərin dilində ”körpə uşaq, övlad” deməkdir. Digərləri hesab edir ki, ad Mousey adlandırılıb. Bu isə yəhudi dilində ”çıxarılmış” deməkdir; yəni uşağın sudan çıxarılması nəzərdə tutulur.

Mesu, yaxud Mouseyi ərəblər Musa kimi qəbul etmiş, zaman keçmiş, Musa adı Azərbaycan məişətinə də gəlib çıxmışdır.

”Əmr edilir: Osmanov, // Dayanmadan irəli”

Osmanov - Bəlli olduğu kimi, Azərbaycan antroponimikasında -ov, -ova, -yev, -yeva şəkilçilərinin vasitəsilə yaranan soyadları rus antroponimiyasının təsiri ilə baş vermişdir. Aydın məsələdir ki, Osmanov soyadı Osman adından yaranmışdır.

Azərbaycanda islam dininin yayılması və islam dinində meydana gələn sünnə və şiə təriqətləri ölkəmizdə ərəb mənşəli adların yayılmasında özünü göstərdi. Şiə təriqətinə mənsub olanlar övladlarına ən çox Məhəmməd, Əli, Talıb, Həsən, Hüseyn, Rza, Kazım, Fatimə və b., sünnə təriqətinə mənsub olanlar isə Məhəmməd, Əbutalıb, Ömər, Osman, Ayişə adlarından istifadə etmişlər.

Göründüyü kimi, Osman adını sünnə təriqətinə mənsub olan ailələr öz övladlarına vermişlər. Osman adının leksik mənası ərəb dilində ”ağırtərpənən, astagəl” anlamına gəlir.

Qoy desin Xəlil Rza // Budur gözəl Astara.

Azərbaycan antroponimiyasında istər Xəlil, istərsə də Rza özünə geniş miqyasda yer tutan adlardan hesab olunur. Bunların hər ikisi həm şəxs adı, həm də soyadlarının yaranmasında fəal iştirak edir. Xəlil ərəb mənşəli söz olmaqla ”yaxın yoldaş, sevimli dost, sevgili”, Rza adı da ərəb dilində ”razılıq, razı qalmaq, məmnunluq” mənasındadır.

Qırıb zülmət zəncirini // Azad oldu Azərbaycan.

Görkəmli alimimiz Firidun Ağasıoğlu (Firidun Ağası oğlu Cəlilov) ”Azər xalqı” kitabında (Bakı: ”Ağrıdağ” nəşriyyatı, 2000, 436 səh.) yazır: ”Az-ər-bi-qan hissələrindən yaranan Azərbaycan adı min illər boyu mərhələ-mərhələ Az-Azər-Azərbi-Azərbiqan-Azərbican-Azərbaycan şəklində formalaşmışdır. Bu adın kökündə duran azər etnonimi həm xalqımızın, həm də dilimizin adını tarixi və elmi baxımdan dəqiq təmsil edir: ölkənin adı - Azərbaycan; xalqın adı - azər xalqı; dilin adı - azər dili; vətəndaşlıq - azərbaycanlı” (səh. 23).

Qarabağın qan çanağı // Dağılmışdı dörd bir yana.

Qarabağ toponiminin ”böyük” mənasında işlənən qara və qədim türk dillərində ”el, tayfa, soy” anlamında olan bak sözlərindən yarandığı ehtimal olunur. Qədim kəngər-peçeneqlərin tərkibində qarabağ adlı tayfa olmuşdur. Peçeneqlər hələ eramızdan əvvəl Azərbaycanda yaşamışlar ki, toponim də həmin tayfanın adı ilə əlaqələndirilir. Deməli, etnotoponimdir.

Yox ölməyib Xocalı, nağıllaşıb yaşayır // Kərbəla müsibətin bütün xalqlar daşıyır.

Xocalı - Qarabağ silsiləsinin ətəyində yerləşən şəhər adıdır. Xocalı nəslinə mənsub ailələr saldığı üçün belə adlandırılmışdır. Xoca keçmişdə mədrəsə təhsili almış şəxslər, din xadimləri fəxri xoca titulu daşıyırdılar. Şəhərin ərazisində xocalar dəfn edilmiş qoşa türbə vardır. Yaşayış məntəqəsinin adı da buradandır. Sözə artırılan -li şəkilçisi aidlik, mənsubluq ifadə edir. Yeri gəlmişkən qeyd edək ki, titul latın sözüdür, mənası ”fəxri ad” deməkdir.

Kərbəla İraqda, Dəclə çayı vadisində şəhər adıdır. Şəhərin əsası VII əsrdə Məhəmməd peyğəmbərin nəvəsi İmam Hüseynlə Yezidin vuruşma meydanında 680-ci ildə qoyulmuşdur. Vuruşmada həlak olan İmam Hüseynin məzarı burada olduğu üçün müsəlmanların müqəddəs ziyarətgahı sayılır. Kərbəla ərəb dilindəki ”kərbül” sözündən yaranıb ”süstlük” mənasında olması güman edilir. Başqa fərziyyəyə görə isə ərazidə bitən ”kərbül” bitkisinin adından formalaşmışdır. Digər mülahizəyə görə Kərbəla ərəbcə ”qəm və bəla, müsibət” mənasını bildirir.

Yer üzündə biz hər yanı // Cəhənnəmə çevirmişik.

Cəhənnəm ərəb sözüdür. Axirətə aid mövhumi məkandır. Guya pis əməl sahibləri öləndən sonra cəhənnəmə vasil olacaqlar.

Şəfəqlərin içində // Şölə saçır Astara.

1945-ci ildən şəhər statusu alan Astara eyniadlı rayonun mərkəzidir. Astara çayının mənsəbində, Xəzər dənizinin sahilindədir. Bəzi tədqiqatçılara görə, toponim qədim türk dillərində ast (üst sözünün antonimi olan alt, aşağı hissə) və ar, yəni qarşı tərəf, əks tərəf sözlərindən yaranmışdır (sözün sonundakı -a kiçiltmə şəkilçisidir). Astaranın qədim adı Qum olmuşdur. Qum indi şəhərin məhəllələrindən birinin adıdır. Fars dilində qum ”alçaq yer, aşağı yer” deməkdir. Göründüyü kimi, Qum və Astara toponimləri eyni məna verir. Digər tədqiqatçılar isə toponimin ast (alt, aşağı) və ara (yer) sözlərindən ibarət olub, ”aşağı yer, tərəf” mənasını bildirdiyini qeyd edirlər.

Min illərdir kükrəyir, kişnəyir dağ çayları // Əsarətdən xəbərsiz bizim Talış dağları.

Talış dağları Qafqazın cənub-şərqində dağ silsiləsidir. Lənkəranın fiziki-coğrafi vilayətinin dağlıq hissəsidir. Xəzər dənizindən ovalığı ilə ayrılır. Talış dağları ifadəsindəki talış bu ərazinin qədim yerli əhalisi olan talış xalqının adı ilə adlandırılmışdır. Azərbaycanda yaşayan talışlar maddi və mənəvi mədəniyyətləri ilə bir-birinə yaxın olan azərbaycanlılarla demək olar ki, qaynayıb qarışmışlar. Qızılbaş tayfa ittifaqında yeganə irandilli tayfa olan talışlar Səfəvilərin hakimiyyətə gəlməsində və Səfəvilər dövlətinin möhkəmləndirilməsində müəyyən rol oynamışlar. Bu xidmətlərinə görə Səfəvi hökmdarları sonralar onlara Azərbaycanın ayrı-ayrı yerlərində müəyyən ərazilər vermişlər.

Qeyd. Talış sıra dağları Şimali Azərbaycanın cənub-şərqində İran sərhəddindədir. Dağın Qızyurdu zirvəsinin hündürlüyü 2436 metrə çatır. Dağ İran xalqlarının ari qrupuna aid talış xalqının adını daşıyı.

Savalanla, Elbrusla dayanıbdır ələlə // Qızyurdu zirvəsindən dağ-dərə batır selə.

Elbrus Baş Qafqaz dağ silsiləsində zirvəsinin hündürlüyü 5633 metr olan dağın adıdır. Elbrusun 20-yə qədər adı var. Farslar ona ”Yüksələn, İşıldayan”, İran tayfalarından olan zendlər ”Hündür dağ”, Elbrusun ətəyində yaşayan balkarlar ”Ətrafı küləkli” adı vermişlər. Bəzi türk xalqları bu zirvəyə ”Cinlər şahı”, abxazlar ”Xoşbəxtlik bəxş edən dağ”, acarlar ”Yalbuz” deyir. Kabardalar isə Elbrusu ”Yəhərvari dağ” adlandırırlar. Əfsanəyə görə bu ad dağın zirvəsini fəth edən iki qardaşın - Şedok və Əbunun şərəfinə adlandırılmışdır. Kabardalılar indi də Elbrusa Şedokmingə, yəni ”Şedokun mindiyi”, Əbumingə, yəni ”Əbunun mindiyi” deyirlər. Kabardalar bu dağı ”Günış dağı”, ”Xoşbəxtlik dağı” da adlandırırlar. Adıgeylər bu dağı ”Şadlıq dağı” mənasında Şadtau kimi tanıyırlar. Elbrusun qədim gürcü dilindəki ”aburtsimi”, yəni ”yüksələn”, ”səmaya qalxan” sözündən əmələ gəldiyini söyləyənlər də vardır. Elbrusun bir mənasının da farsca ”İşıldayan dağ” olduğunu qeyd edənlər də olmuşdur.

Savalan - Qəbələ rayonunda bir kənd Savalan adlanır. Kənd Savalan dağ silsiləsinin adı ilə adlandırılmışdır. Ehtimal ki, Cənubi Azərbaycandakı Savalan dağının adı ilə eyni mənşəlidir. Dağın adının mənası hələlik izah edilməmişdir.

Dərd başımda tutub çələng // Mələk idim oldum pələng

Mələk ərəbcədən gəlmə addır. Mələk Allahın xidmətçiləri olan fövqəltəbii canlı varlıq, həm də həlim, nəcib, gözəl varlıq kimi izah edilir.

Torpaq udub zaman-zaman bəşəri // Adəm, Həvva zamanından bax bəri.

Həvva qadın adı kimi məişətimizə ərəblərdən keçərək ən çox Hava formasında daxil olmuşdur. Həvvanın mənası ərəbcə ”diri, canlı, həyati”dir. Adəm eyni formada kişi adlarında işlənir. Adəm ərəb mənşəlidir. Hazırda dilimizdə işlənən adam sözünün azacıq fonetik dəyişikliyə uğrayan formasıdır. Dini baxışlara görə Adəm yer üzündə ilk insan, ilk peyğəmbərin adıdır.

Ömrünün ahıl yaşıdır // Əzrayılla yanaşıdır.

Cəbrayıl, Mikayıl, İsrafil, Malik, Rizvan kimi mələk adlarının sırasında Əzrayıl mələk adı da vardır. Dini əfsanəyə görə Əzrayıl insanların canını alan ölüm mələyidir.

Təbrizə Pünhanın şeirlərində hidronimlərə, yəni su obyektlərinin adına da rast gəlirik.

Qanqın suyundan içib gəlmişəm // Dəclədən, Fəratdan keçib gəlmişəm.

Qanq Hindistan və Banqladeşdə çay adıdır. Benqal körfəzinə tökülür. Uzunluğu 2700 km-dir. Sanskrit dilində ”dik sahilli çay” mənasındadır. Çayın adı vadisinin dərinliyi və axma xüsusiyyətini əks etdirir.

Dəclə Türkiyə və İran ərazisindən axan çaydır. Fərat çayı ilə qovuşandan sonra Şəttülərəb çayı adı ilə İran körfəzinə tökülür. Uzunluğu 375 km-dir. Dəclə sözü qədim fars dilində ”ox” deməkdir. Bu da çayın iti və düz axması ilə əlaqədardır.

Fərat Ön Asiyada çay adıdır. İran körfəzinə tökülür. Uzunluğu 370 km-dir. Aramey dilində ”şirin su”, ”möhtəşəm çay”, ”çaylar atası” deməkdir. Fırat sözünün ”sel” mənasında olması haqqında fikirlər mövcuddur.

Sıxıb gözlərimə mavi Xəzəri // Qəlbimə, ruhuma içirtməliyəm.

Xəzər dənizi Qafqazla Orta Asiya arasında yerləşir. Sahəsi 371 min km2-dir. Keçmişdə dənizin qərb sahillərində yaşayan ”qas” və ya ”xas” tayfasının adını daşıyır. Tarixi mənbələrdə dənizin 60-dan çox adının olduğuna dair məlumatlar vardır. Xəzər və Kaspi eyni mənanı ifadə edən tayfa adıdır.

Sən yaşıl dağların gözünün yaşı // Axdın damcı-damcı Xanbulan çayı

Çayın adı mürəkkəb söz formasındadır. Xan+bulan. Bulanmaq feili xan tituluna uyğun gəlmir. Xan qədim türk dillərində, həmçinin fars, monqol, əfqan və başqa dillərdə ”el başçısı”, ”hakim”, ”hökmdar”, ”cənab”, ”ağa” və s. mənalarda işlənir. Xan titulu Azərbaycan antroponimləri və toponimləri sistemindəki bir sıra vahidlərdə mühafizə olunmuşdur. Məsələn, Xanlar, Ağaxan, Ataxan, Babaxan və s. antroponimlərdə, Xanlar, Xankəndi, Xanbulaq və s. toponimlərdə qalmaqdadır.

Fikrimizcə, Təbrizə Pünhanın xatırlatdığı Xanbulan çay adı Xanbulaq adının fonetik təhrifə uğramış formasıdır. Xanbulaq hidronimi xan və bulaq komponentlərinin birləşməsindən yaranmışdır. Ola bilsin ki, əyalətin xanı bulaq üzə çıxartdığı üçün xan bulağı adlandırılmış və həmin bulağın axıb töküldüyü çaya xanın şərəfinə Xanbulaq adı verilmişdir.

Uzun illərin ənənəvi qaydasına görə şairin yaradıcılığına həsr olunmuş məqalələrdə şeirlərin ideya-məzmunu diqqət (təhlil) mərkəzində saxlanılır, bu istiqamətdə təhlilə üstünlük verilir. Müşahidələr göstərir ki, belə yazılar çox vaxt orta məktəblərin yuxarı sinif şagirdlərinə yazdırılan inşa səviyyəsindən yuxarı qalxa bilmir, həm də oxucular üçün yorucu olur. Bu amili nəzərə alaraq həm də oxucular üçün maraqlı olsun deyə məqaləmizi şairin öz yaradıcılığından misallar gətirməklə onomastik vahidlərin izahı üzərində qurduq. Buna nə qədər və necə nail olduq? Bu barədə sözü oxucular deyə bilər.

Marsın milyard illik sirri Böyük Səhrada tapıldı

Malidəki Böyük Səhrada tapılan 4,1 milyard illik Mars meteoriti ”qırmızı planet”in ilkin mərhələlərində su ilə qarşılıqlı təsirdə olduğuna dair əhəmiyyətli dəlillər təqdim edib. Meteorit planetin milyard illik keçmişinə işıq salıb.

Adalet.az xəbər verir ki, 2022-ci ildə kəşf edilən və ümumi çəkisi 798,5 qram olan səkkiz hissədən ibarət ”Teghaza 001” adlı meteoritin ən azı 4,1 milyard illik olduğu müəyyən edilib.

NASA tədqiqatçılarının da daxil olduğu elmi qrup meteoritin quruluşundakı mineral və kimyəvi izlərin Marsın qabığında erkən mərhələlərdə suyun olduğunu və qayaların su ilə qarşılıqlı təsirdə olduğunu bildirib.

Meteoritin Marsa dəyən səma cisminin zərbəsi ilə kosmosa atıldığı düşünülür.

Tədqiqatçılar meteoritin mineral və kimyəvi xüsusiyyətlərini Marsdan gələn məlumatlarla müqayisə edərək, qayanın planetin cənub dağlıq ərazilərindəki 13 fərqli yerdən qaynaqlandığını müəyyən ediblər.

Alimlər hesab edirlər ki, bu kəşf Marsın niyə daha quru hala gəldiyini və Yer kürəsinin su saxlamağa davam etdiyini anlamağa da kömək edə bilər.

Əməliyyatı illərlə cərrah yox, xadimə edib



Türkiyənin Giresun şəhərində fəaliyyət göstərən özəl xəstəxana ilə bağlı qalmaqallı iddia ortaya çıxıb.

Adalet.az yerli mediaya istinadən xəbər verir ki, xəstəxanada təmizlik işçisi kimi çalışan şəxsin tibbi təhsili olmadığı halda əməliyyatlarda iştirak etdiyi və həkim, eləcə də əməliyyat tibb bacısı kimi xəstələrə müdaxilə etdiyi iddia olunur.

İddialara görə, həmin şəxsin iştirak etdiyi tibbi müdaxilələrlə bağlı xəstə qeydiyyatlarında digər tibb işçilərinin adlarından istifadə olunub.

Vətəndaşlar durumla bağlı Türkiyə Prezident Administrasiyasının Kommunikasiya Mərkəzinə (CİMER) şikayət ünvanlayıblar. Şikayətdən sonra Giresun Vilayət Səhiyyə İdarəsi tərəfindən araşdırmaya başlanılıb.

Araşdırma çərçivəsində həmin şəxsin xəstəxanadakı vəzifəsi, səlahiyyətləri və cərrahi əməliyyatlarda iştirak edib-etmədiyi yoxlanılır.

QƏLƏMLƏ ZƏFƏRƏ GEDƏN YOLLAR

“Tarixi Zəfər yaradır, ədəbiyyat isə onu xalqın yaddaşında əbədiləşdirir”

2020-ci il tarix yenidən yazıldı və Azərbaycan xalqının illərlə arzuladığı böyük Zəfər gerçək oldu. Bu qələbə yalnız hərbi gücün deyil, eyni zamanda milli birliyin, elmə söykənən strateji düşüncənin, sarsılmaz iradənin təntənəsi idi.Vətən müharibəsi günlərində xalqın bir yumruq kimi birləşməsi milli yaddaşın ən parlaq səhifələrindən birinə çevrildi. Əsrlər əvvəl Azərbaycanın tarixi əraziləri ikiyə parçalanaraq qardaşı qardaşa həsrət qoyan ”Türkmənçay” (1825) müqaviləsi, hər qarışı bir sərvət olan Qarabağ torpaqlarını ələ keçirən, türkə düşmən, insanlığ adına ləkə olan ermənilərin tapdağı altında inləyən ərazilərimiz bu xalqın sağalmayan yarası idi və bu gün az da olsa itirdiyimizin bir qisminə qovuşma sevincini yaşayırıq.

Bu gün Qarabağda dalğalanan üç rəngli bayraq, gələcək zəfərlərə gedən yolun bir sinvoludur və bu milləti bir gün bitov bir Azərbaycan kimi (M.Ə.Rəsulzadənin qiymətli kalamları ilə desək”Bir kərə yüksələn bayraq birdə enməz”) öz kölgəsində toplayacaq.

Türk xalqlarını yer üzündən silməyə çalışan qeyri-millətlərin nümayəndələri, xüsusən, xaçpərəstlər, türkləri-müsəlmanları ”vəhşi”,”qaniçən” adlandıraraq bu şüar altında hərbi yürüşlər, səfərlər etmiş, yoxetmə siyasətini ən qanlı şəkildə həyata keçirməyə çalışmışlar. Dünyada terror və soyqırıma dəstək verən, insanların qanına susayan, bu gün dünya ictimaiyyəti qarşısında özlərini insan haqlarına hörmət edən bir dövlət imici yaratmağa, ən azından isə özünü belə gös-tərməyə çalışan dövlətlər var. Dünya ictimaiyyəti bunu bilsə belə, bu gün susmağa üstünlük verir. Soyqırımı yalnız siyasi və ya hərbi güclə, maddi dəstəklə deyil, həm də ədəbi sahədə dəstəkləyən yazarlar də az olmamışdır və indi də yetərincədir.

1915-ci ildə Osmanlı İmperiyasının hər yandan hücuma (bunun əslində ”YENİ SƏLİB YÜRÜŞÜ” olduğu qəti şübhə doğurmur - G.M.) məruz qaldığı bir dövrdə ”milliyyəti Sıddıqa” - (”sadiq millət” - G.M.) adı verilən ermənilərin qonşuluğa xəyanəti, törətdikləri qırğınlar bir son olmayacağı, ”dəmir yumruq” başlarından çəkilən kimi yenidən mənfur pisliklərini yenidən törədəcəyini yaxşı bilirik.

Türk millətindən,”türk birliyindən”, ”türkçülükdən”, türkün əzəmətindən” qorxu, xaçpərəstlərin gecələr belə yuxularına girir, onları türklərə qarşı yeni və məkrli planlar hazırlamağa sövq edir. Zaman-zaman türklərə qarşı törədilən kütləvi qırğınların nə əvvəli, nə də sonu olmuşdur.


XXI əsrdə bütün sürətilə davam edən bu soyqırımı daha əvvəlki əsrlərdə bundan da qorxunc və insanlığı utandıracaq səhnələrdə görürük. Bunun başlıca şahidləri isə tarixi əsərlər, şahidlərin xatirələri, salnamələr, şair və yazıçılarımızın əsərləri, bir sözlə, tarixi mənbələrdir.

Tarix yaranandan Azərbaycan xalqıda öz istiqlalı uğrunda yadelli düşmənlərə qarşı mübarizə apararaq öz torpaqları uğrunda çox qan tökmüş, igid oğullar şəhid vermişdir. Tökülən qanlar, gedən şəhidlərlə bərabər bu hadisələri yaşayan və tarixi yaddaşa həkk edən görkəmli ədiblərimiz var ki, bu gün üç rəngli bayraq yolunda repressiyaya uğramış, sürgün olunaraq döğma vətənindən, döğmalarından ayrı düşərək Sibirin ”gedər gəlməz” yollarında məhv olmuşlar.

Bütün bu tarixi hadisələr poeziyada, romanlarda bir sözlə ədəbiyyatın hər bir sahəsində öz əksini taparaq gənc nəslin milli ruhda yetişməsinə yardım edir. Azərbaycan xalqının Nizamiləri, Füzuliləri, Nəsimiləri, Üzeyirləri, Cavidləri, Cavadları, Bəxtiyarları, Xəlil Rzaları və onlarn qələmə aldıqları istiqlal arzuları və tabutları üç rəngli bayrağa sarılmış Mübarizləri, Poladları İlqarları minlərlə şəhidlərinin qanla yazılmış adlarını nə bu millət, nə də bu tarix unutmayacaq.

1918-ci ildə ilk dəfə üç rəngli bayraq dalğalananda vətənini azad müstəqil görmək yolunda son damla qanını qurban verən, ən gözəl şeirlərini bayrağa, üzərindəki aya ulduza həsr edərək sevgili bayrağımızı daha da sevdirən istiqlal şairimiz Əhməd Cavad (1989-1937) və himnimizin sözlərinə musiqi bəstələyən dahi Bəstəkarımız Üzeyir Hacıbəyov xalqa böyük miras qoymuşlar.

Əhməd Cavad o illərdə üçrəngli bayrağı, cümhuriyyət dəyərlərini tərənnüm etdiyinə görə sonralar bolşevik tənqidinə məruz qalır. Şair masa arxasında əlində qələm, isti otağında bayrağı, ay-ulduzu misralara düzməyib. O, üç rəngli bayrağın Azərbaycan səmalarında dalğalanması yolunda, Cümhuriyyətin qurulmasıda çox işlər görmüş, dövrü mətbuatda məqalələrlə çıxış etmiş, gənc nəslin vətənpərvər kimi yetişməsində bir müəllim olaraq əlindən gələni əsirgəməmişdir.





Öz tarixini, milli kimliyini yaxşı bilən şair şeirlərində təkcə Azərbaycan bayrağını deyil, ən çətin günlərimizdə, 44 günlük Vətən müharibəsində daimə yanımızda olan Türk qardaşlarımızı, Türklüyü, Türk bayrağını da öz yaradıcılığında tərənnüm etmişdir.

Əzəmətlə dalğalanan Türk bayrağına ”Çırpınırdın Qara dəniz” şeirində türk bayrağını ən ucalarda görərək -- ”Ah!..” deyərdim, heç ölməzdim, //Düşə bilsəm ayağına”, - deyə türk bayrağına sonsuz məhəbbətini bildirirdi və bu sonsuz məhəbbəti bizlərə miras qoymuşdu.

Şeirlərində Vətən sevgisini, Cümhuriyyəti, onun simvollarını tərənnüm edən Ə.Cavad daim təqib olunmuş, qələm yoldaşları tərəfindən tənqidlərə məruz qalmışdır. Ə.Cavad kimi yaradıcılığı ilə Azərbaycan mədəniyyəti və ictimayi fikrin inkişafına xidmətlər göstərmiş dahi bəstəkar Ü.Hacıbəyov da xalqa əvəzsiz xidmətlər göstərmişdir.

Yaşar Qarayev ədibə yüksək qiymət verərək yazır: ”Üzeyir Hacıbəyov iki böyük dövrün klassiki kimi tarixə daxil olub: inqilabdan əvvəlki dövrün və sosializm dövrünün! Lakin onun musiqi dühasında bədii-mədəni keçmişimizin bütün dövrləri əksini tapıb. Indi artıq nəinki keçmişimizi, musiqimizin gələcəyini də Üzeyirsiz təsəvvür etmək mümkün deyildir. O, artıq xalqın milli dühasının bir parçasına, tariximizin özünün müasirinə-ədəbi yol yoldaşına çevrilib”

Böyük bəstəkarımız Qara Qarayev Üzeyir Hacıbəyovu ”Musiqi mədəniyyətimizin atası” adlandırır. Biz ədibin həyat və yaradıcılığı ilə yaxından tanış olanda görürük ki, onu təkcə Azərbaycan musiqi mədəniyyətinin atası yox, bütünlükdə Azərbaycan mədəniyyətinin atası hesab etmək olar. O, təkcə bəstəkar deyil, həm də pedaqoq, peşəkar jurnalist idi. Onun, Azərbaycan mədəniyyətinə göstərdiyi xidmət əvəz olunmazdır. O, dövrün ağrı-acıları bir çox sənətkarlar kimi Üzeyir bəydən də yan keçməmişdi. Azərbaycan musiqisinin inkişafı, Üzeyir Hacıbəyov yaradıcılığının geniş və rəngarəng müvəffə-qiyyəti çoxlarını narahat edirdi. Nadan ziyalılar onun şəxsiyyətinə, yaradıcılığına, xüsusən ”Arşın mal alan” operasına layiq olmadığı təhqiramiz hücumlar edir, ələ salır, lağa qoyurdular. Bu barədə görkəmli jurnalist Hüseyin Minasazovun qeyd etdiyi kimi ”onun gözəl əsərlərini utanmazcasına oğurlayırdılar, istedadsız şəkildə onu yamsılayırdılar”.

Üzeyir bəyin ölməz əsərləri təkcə Azərbaycanda deyil, bir çox ölkələrdə, xüsusən türkdilli ölkələrdə tanınılır və sevilir.

Ağır və kəşməkeşli bir dövrdə yaşayıb yaradan, xalqını sovetlərin müstəmləkə zəncirlərindən xilas olması üçün səsini ucaldan ədiblərimizdən Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk kimi istiqlal şairlərimizin bütün yaradıcılığı xalqa məhəbbət, xalqının dilinə məhəbbət, el-obasının sadə, zəhmətkeş insanına, sıravi vətəndaşına məhəbbətlə yoğrulmuş taleləri 20 yanvar faciəsini yaşamış və qələmlərini süngiyə çevirmişlər.

Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk kimi bir cox şairlərimiz xalqı əsrimizin sonlarında azadlıga səsləyən və bu azadlığı sonsuza qədər əldə etməyə nail olan sənətkarlarımız doguldu.

Milli istiqlalımızın poetik nəğməkarı, azadlıq və demokratiya uğrunda hərəkatın inkişafında tarixi xidmətləri olan xalq sairi Xəlil Rza Ulutürk XX əsrin 50-ci illərində yaradıcılığa başlayıb, 60-70-ci illərdə bir sənətkar kimi püxtələşən İkinci Respublika dövrünün yasaq çərçivələrini parçalayıb əsərləri və ictimai fəaliyyətilə rejimə meydan oxuyan, 80-90-cı illərdə Azərbaycanın azadlığı və istiqlalı uğrunda mübarizəni öz yaradıcılıq və vətəndaş amalına çevirən görkəmli xalq şairimizdir. ”Böyük məsuliyyətlə və özünə qarşı amansız tələbkarlıqla hüdudlanan fasiləsiz idrakı axtarışlar və tapıntılar Xəlil Rza Ulutürkün lirik qəhrəmanının başlıca əlamətlərindən biri, bəlkə də birincisidir.”

” ...Alın paltarında nadan görəndə, // Bir az addımını ləngidir Vətən. // Mərdlərin əliylə ağ ciyərlərin, // Üzünə çırpılan sillədir Vətən” - deyə vətənin azadlığı, isdiqlalı üçün səsini ucaldan şair çox təəssüf ki, torpaqlarımızın azad olduğunu görmür.

”Böyük sairimiz Bəxtiyar Vahabzadənin dediyi kimi: ”Xəlil Rzanın böyüklüyü ondadır ki, o doğma törpağının azadlığı, xalqının səadəti yolunda öz canından belə keçməyə hazır olan, son dərəcədə cəsarətli, qeyrətli şair-vətəndaş idi. Onun zəngin və mərdanə poeziyası da məhz Vətən və xalq idealları ilə mayalandığı üçün əsrlər boyu ürəklərdə yaşayacaqdı.”

Xəlil Rza Ulutürk yaradıcılığında türkçülük, turançılıq, türk birliyi gücünü hər zaman ”Azadlıq meydanı”, ”Qalx ayağa, Azərbaycan”, ”Sən alçaqsan”, ”Boz qurda öygü”, ”Azərbaycan türkcəsi”, ”Türk” və s. şeirlərində tərənnüm etmişdir. Milli azadlıq və demokratiya uğrunda hərəkatin inkişafında tarixi xidmətləri olan şairimizdən biri də Bəxtiyar Vahabzadədir.

60-cı illərdən başlayan milli azadlıq hərəkatının fəallarından biri, dramaturq, ədəbiyyatşünas, Azərbaycan Yaziçilar birliyinin üzvü, Azərbaycan Xalq şairi, filologiya elimləri doktoru, professor, Azərbaycan MEA-nin həqiqi üzvü, Əməkdar İncəsənət xadimi, Azərbaycan Dövlət Mükafatı Lauratı, millət vəkili, ən önəmlisi də millətinin azadlıgı ugrunda qələmini süngüyə çevirmiş Bəxtiyar Vahabzadə.

Yaşar Qarayevin dediyi kimi: ”Bəxtiyar Vahabzadə üçün ayrıca bir ”tarixilik” anlayışı yoxdu; ayrıca bir ənənəvi, milli xarakter; ayrıca bir müasir ”intellektual qəhrəman” yoxdur. Onun üçün yalnız eyni, vahid, yekparə varlıq müqəddəs, ədəbi Azərbaycan vardır”.

Şairin 1958-ci ildə yazdıgı ”Gülüstan” poemasına görə ”millətçi” damğası vurularaq 1962-ci ildə Azərbaycan Dövlət Universitetindən xaric edilir. Poemada iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş şair, rus və fars imperiyasının pəncəsi altında vətən uğrunda ədalətli mübarizəyə qoşulmuşdu.

Şair Sovet rejimində milli varlığı tapdanan, hər cür zülmə məruz qalan millətinin dərdini rəmzlər və müxtəlif ədəbi üsullarla ifadə etmiş, iri həcmli poema və pyeslərində öz xalqının dərdlərini dilə gətirmisdi. Sovet rejimi dövründə yazılan bu səpgili şeirlərini şair yalnız Sovet İttifaqı dağılandan sonra, ”Sandıqdan səslər” başlığı altında nəşr etdirir. 20 yanvar faciəsinə indiyədək cox əsərlər, məqalələr, şeirlər yazılıb. Lakin bu faciəyə yüksək səviyyədə həqiqi siyasi qiymətini öz qələmilə Bəxtiyar Vahabzadə verib.

Şairin ”Şəhidlər” kitabında gedən ”Nə istəyir bu millət?”, ”Təzadlar içində”, ”Eşq olsun sizə”, ”Matəm mərasimi”, ”Xəcalət”, ”İlham-Fərizə”, ”İki gün sonra”, ”Şəhidlər”, ”Son” kimi xalqın agrıacılarını göstərən şeirlər şairin bu hadisəni əks etdirən dəyərli əsərləridir.

”Qatil gülləsinə qurban gedərkən, // Gözünü sabaha dikdi şəhidlər. // Üç rəngli bayragı öz qanlarıyla, // Vətən göylərinə çəkdi şəhidlər”- misraları onu bir vətəndaş kimi öz duyğulandırır, millətinin bu acı anlarını şeirlərində əks etdirərək, xalqı ilə bərabər ”Qara yanvarı” yaşayır.

Xalqın dərdinə şərik olan şair hər zaman millətin azadlığı, istiqlalı ugrunda qələmi ilə mübarizə aparmış, şeirlərində türk xalqının qanı bahasına olsa belə, heç vaxt məglub olmayacağini, hər bir misrasında səsləndirir.

Zəfər ədəbiyyatı xalqın qürur səlnaməsi, şəhidlərin əbədi xatirəsi, qazilərin qəhrəmanlıq dastanı və gələcək nəsillərə ünvanlanan mənəvi vəsiyyətdir. Bu ədəbiyyat təkcə yaşanmış tarixi hadisələri deyil, həm də milli ruhun yenilməzliyini, azadlıq idealının müqəddəsliyini və qələbənin mənəvi-fəlsəfi mahiyyətini ifadə edir.

Xalqımızın qazandığı bu möhtəşəm qələbə ədəbiyyatımıza yeni ruh, yeni məzmun və yeni qəhrəmanlıq obrazları gətirmiş, söz sənətinin qarşısında xalqın mübarizə əzmini, Vətən sevgisini və tarixi ədalətin təntənəsini bədii şəkildə əks etdirmək kimi mühüm bir missiya yaratmışdır.

Bayrağına, gerbinə, müstəqilliyinə sarılan millət bir daha sübut etdi ki, Azərbaycan dövləti gec də olsa itirdiklərinə sahib çıxır. Və bu gün 44 günlük Vətən müharibəsinin növbəti il dönümünü qürur və sevinclə yaşayan xalq, bir gün parçalanmış Azərbaycanın birliyinin həsrətini gözləyir.

Göyərçin ABİDQIZI
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Almaniyada 800 illik qala 1 avroya satışa çıxarıldı



Almaniyanın şərqində, Bad-Düben şəhərində yerləşən Şnadits qalası cəmi 1 avroya satışa çıxarılıb.

Adalet.az xarici mediaya istinadən xəbər verir ki, təxminən 800 illik tarixi olan qala hazırda yararsız vəziyyətdədir və yeni sahibini genişmiqyaslı bərpa işləri gözləyir. Bununla belə, binanın dam örtüyü hələ də su keçirmir.

Sahəsi təxminən 1012 kvadratmetr olan qala su üzərində inşa edilmiş istehkamdır. Burada cəngavərlər zalı və iki qüllə yerləşir. Vaxtilə qala fon Çaşnits zadəgan ailəsinin iqamətgahı olub. Ailə alman yazıçısı Henrix fon Kleystin ”Mixael Kolhaas” novellası ilə də tanınır.

1945-ci ildə milliləşdirilən qalada sonradan poçt, uşaq bağçası, yaşayış və inzibati məkanlar fəaliyyət göstərib. 1990-cı illərdə isə uzun müddət istifadəsiz qalıb.

2014-cü ildə qala amerikalı qadın və onun oğlu tərəfindən satın alınıb. Onlar burada hotel-restoran kompleksi yaratmağı planlaşdırıblar. Lakin maliyyə çatışmazlığı səbəbindən layihə 2018-ci ildə dayandırılıb və qala yenidən bələdiyyənin mülkiyyətinə keçib.

Yerli dairənin rəhbəri Matthias Mitt bildirib ki, tarixi əhəmiyyət daşıyan tikilinin gələcək sahibi onun bərpası üçün ciddi vəsait xərcləməli olacaq.

Yeməkdən sonra yuxulamağın səbəbi bəlli oldu

Bu qidaları azaldın

”Böyük porsiyalı yeməklərdən, xüsusilə də şirniyyat, un məmulatları, ağ çörək və digər tez həzm olunan karbohidratlardan sonra insanı daha güclü yuxu tuta bilər”.

Adalet.az xəbər verir ki, bu barədə həkim-qastroenteroloq Olesya Sinelnikova bildirib. Mütəxəssis həmin qidaların təsirini belə izah edib: ”Bu növ qidalar qanda qlükoza və insulinin səviyyəsinin kəskin dəyişməsinə səbəb olur. Yağlı yeməklər isə daha gec həzm olunur və təkcə halsızlığa deyil, həm də mədədə ağırlıq hissinə gətirib çıxarır”.

Həkim əlavə edib ki, bəzən qəbul edilən qida orqanizmdə artıq mövcud olan yuxusuzluq problemini sadəcə daha qabarıq üzə çıxarır.

Nahar sonrası yuxululuğu azaltmaq üçün O.Sinelnikova porsiyaları kiçiltməyi, səhər yeməyini buraxmamağı və kəskin ac qalmamağı tövsiyə edir.



Rövşən PAŞAZADƏ

Bir yaxşılığın aqibəti

XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakı sürətlə dəyişirdi. Şərqin qədim ənənələri ilə Avropanın sənaye mədəniyyətinin qovuşduğu şəhər neft bumu sayəsində dünyanın diqqətini cəlb etmişdi. Nobel qardaşlarının və yerli neft sahibkarlarının fəaliyyəti Bakını mühüm sənaye mərkəzinə çevirmiş, Rusiyadan, Avropadan və Azərbaycanın müxtəlif bölgələrindən minlərlə insanı buraya cəlb etmişdi.

Məhz belə bir dövrdə, Bakının qədim Maştağa kəndində Müxtar dünyaya gəlmişdi. O, dini ənənələrə bağlı bir ailədə böyümüşdü. Babası Şeyx Əmir Qahirədə təhsil almış, biliyi və xeyirxahlığı ilə tanınan din xadimi idi. O, kənddə ehtiyacı olan insanlara əl tutar, imkanı daxilində heç kəsi köməksiz qoymazdı.

Müxtarın uşaqlıq xatirələrindən biri babasının Misirdən gətirdiyi qızıl bəzək əşyaları ilə bağlı idi. Bu əşyalar onda zərgərlik sənətinə maraq oyatmışdı. On dörd yaşı olanda atası onu Bakıya aparmışdı. Şəhərdə kiçik bir zərgərlik emalatxanası görən Müxtar ustanın işləməsinə heyran qalmışdı. Atası onu oradan uzaqlaşdırsa da, gördükləri yaddaşından silinməmişdi. Kəndə qayıtdıqdan sonra babasına zərgər olmaq istədiyini söyləmişdi. Şeyx Əmir onun istəyini dəstəkləmiş və atasını bu sənəti öyrənməsinə razi salmışdı.

Beləliklə, Müxtar zərgərlik sənətinə yiyələnmiş, zamanla öz emalatxanasını açmışdı. Bacarığı, zəhmətkeşliyi və zövqü sayəsində müştərilərinin etimadını qazanmışdı. Ailə qurmuş, Səadət xanımla birlikdə dörd qız övladı böyütmüşdü. İllərlə çalışaraq ailəsi üçün ev tikmiş, zəhməti hesabına rahat həyat qurmağa çalışmışdı. O, babasından gördüyü xeyirxahlıq ənənəsini də yaşadır, ehtiyacı olanlara kömək edirdi.

Lakin ölkədə baş verən siyasi hadisələr insanların həyatını alt-üst etməyə başlamışdı. Stalin repressiyaları dövründə Müxtarın da taleyi dəyişdi.

Bir gün əvvəllər ondan kömək istəyən, kasıb görkəmli bir kişi yenidən emalatxanaya gəldi. Ailəsindən birinin ağır xəstə olduğunu söyləyərək Müxtardan yardım istədi. Müxtar tərəddüd etmədən ona Nikolayın onluq qızıl sikkələrindən birini verdi:

"İmkanın olsa, qaytararsan. Olmasa, dünya dağılan deyil. Mən bunu Allah xatirinə edirəm".


Kişi təşəkkür etmək üçün onun əllərindən öpmək istədi, lakin Müxtar buna imkan vermədi. Həmin adam bu yaxşılığı unutmayacağını söyləyərək oradan ayrıldı.

Sonralar məlum oldu ki, həmin kişi NKVD-nin gizli əməkdaşı imiş. O, Müxtar kimi maddi vəziyyəti nisbətən yaxşı olan insanların etimadını qazanır, onların xeyirxahlığından sui-istifadə edərək repressiya orqanlarına məlumat ötürürmüş.

Müxtarın həbsindən sonra Səadət xanım dörd qızı ilə tək qaldı. Ailə üçün ağır və qeyri-müəyyən günlər başladı. Atalarının taleyindən xəbərsiz qalan qızlar ananın himayəsində böyüyür, evin yükünü onunla birlikdə daşıyırdılar.

İkinci Dünya müharibəsi illərində Müxtarın vaxtilə kömək etdiyi yəhudi qonşularından biri Səadət xanımın yanına gəldi. O, Müxtarın yaxşılığını unutmadığını deyərək ailəyə pul və ərzaq təklif etdi. Lakin Səadət xanım bu köməyi qəbul etmədi. Nə özünün, nə də qızlarının heç nəyə ehtiyacı olmadığını söyləyərək ondan narahat olmamasını istədi. Bu hadisə bir daha göstərirdi ki, insanların yaddaşında yaxşılıq da, xəyanət də öz izini buraxır.

1956-cı ildə Müxtar bəraət aldı və Sibir sürgünündən geri döndü. Lakin o, əvvəlki sağlam və güclü insan deyildi. Uzun illərin əzabları səhhətini pozmuş, ayaqlarından biri şikəst qalmışdı. Qızları illərlə həsrətini çəkdikləri atalarına qovuşsalar da, qarşılarında xatirələrində yaşatdıqları insanı deyil, ağır sınaqlardan keçmiş, xəstə bir adamı görürdülər. Bəraət ona adını qaytarsa da, itirilmiş illəri



Muxtar Şeyxəmirov 1931 ci il

geri vermədi. Müxtar vətənə qayıtdıqdan bir neçə il sonra vəfat etdi.

Dörd qızı böyüyüb təhsil aldı, öz həyat yollarını seçdi. Böyük qızı dövlət nəşriyyatına rəhbərlik etdi, digərləri səhiyyə və təhsil sahələrində çalışdı. Kiçik qızı isə ailəsinə həsr olundu. Onların hər biri həyatın çətinliklərinə baxmayaraq, öz zəhməti ilə ayaqda durmağı bacardı.

Mən Müxtarın ikinci qızının övladıyam. Uşaqlığımın ən əziz xatirələrindən biri nənəm Səadət xanımın evi ilə bağlıdır. Təxminən beş-altı yaşım olardı. Divardan babamın şəkli asılmışdı. Evdəki köhnə "Singer" tikiş maşını isə diqqətimi çəkirdi. Bəzən onun dairəvi çarxının üzərində oturub fırladardım. O zamanlar bu əşyaların və divardakı şəklin mənim üçün nə qədər böyük məna daşıdığını anlamırdım.

İllər sonra ailəmizə yaşadığımız evin və ətrafdakı köhnə tikililərin sökülərək yerində inzibati bina inşa ediləcəyi bildirildi. Nənəm və böyük qız övladı dövlət tərəfindən verilən yeni mənzilə köçürüldü. Söküntü günü qızları atalarının evinin son dəfə necə dağıdıldığını görmək üçün gəlmişdilər. Lakin çoxsaylı polis əməkdaşları onların yaxınlaşmasına imkan vermirdi. Onlar evlərinin dağıdılmasını uzaqdan izləməyə məcbur qaldılar.

Divarlar uçurulduqca torpaq və daşların arasından Nikolayın onluq qızıl sikkələri üzə çıxaraq həyətə səpələndi. Qızlar analarından bu sikkələrin vaxtilə evin divarlarında gizlədildiyini eşitmişdilər. Lakin indi onların heç biri qızıllara maraq göstərmirdi. Çünki bu sikkələr bir zamanlar atalarının faciəli taleyi ilə bağlı olmuşdu. Onlar üçün qızılların heç bir dəyəri qalmamışdı; atalarının itirilmiş ömrünü geri qaytara biləcək heç nə yox idi.

Bu gün Müxtar Şeyxəmirov həyatda yoxdur, tikdirdiyi ev də qalmayıb. Lakin onun adı ailəmizin yaddaşında yaşayır. Mən bu hekayəni babamın yarımçıq qalmış ömrünü sözlə yaşatmaq, onun adını və taleyini gələcək nəsillərə çatdırmaq üçün yazdım.

Çünki bir insanı ikinci dəfə itirmək - onu unutmaqdır.

"Çətindərə"nin işığı asan seçilir

İşıq həm yolçuların yolunu nurlandırır, həm də mənzili nişan verir. Bədii əsərlərin işığı da belədi. Oxuyursan, əsərin işğını ruhunla görürsən, işıqlar kəhkəşanında onun işığını ayırd etmək, fərqləndirmək istəyirsən. Belə bir işıq mənim də diqqətimi çəkdi. Tanınmış yazıçı-publisist Vahid Aslanın "Çətindərə" kitabı, eyniadlı roman. "Köç"lə başlayıb "Vaxtından əvvəl köç"lə tamamlanan "Çətindərə" romanı dünənlərlə sabahlar arasında söz körpüsüdü. Elatdan böyük dünyaya aparan yol həmişə bir qədər qürurla, bir qədər qətiyyətlə, bir qədər xatirələrlə anılır. Bu anma da dünənlərə sədaqətin təzahürüdü...

Ədəbiyyat hadisələr haqqında bədii söhbətdi. Belə söhbətlər müxtəlif sahələri əks edir, mahiyyətinə uyğun olaraq təqdim olunur. Bu baxımdan nəsr daha xarakterikdir, xatirələrə ədəbi biçim verməklə yaşanılmışlar, olmuşlar haqqında düşüncələri, hadisələr arasında milli-mənəvi dəyərlərə, bəzən elat fəlsəfəsinə sədaqəti də ədəbi müsəviyə transfer edir, tarixləsdirir.

Nostalji duyğuların həsrətidimi, dünənləri kövrəkliklə ruhən yenidən yaşamaq istəyidimi, hər nədirsə, "Çətindərə"nin mahiyyəti etnoqrafik təhkiyyədir və könüləyatımlıdır. Müəllif uşaq düşüncələrini aşan, uşaq dünyaduyumunu az qala fəlsəfi dərk səviyyəsində təqdim edir. Təqdimi ifadə edən fikirlər ruhdan gələn, ruhdan süzülən dərkdir; gerçəkliyin bədii yozumu milli-mənəvi dəyərlər sistemində kəhkəşan misallıdı...


Roman mahiyyətli hissələr əsasında yazılıb (sanki süjetli kiçik hekayələrdi), hadisələrin (xatirələrin) ünvanlarına uyğun yer adları ilə verilib. "Çətindərə"yə aparan yolun təsvirini sözlə incə verməyə nail olan, bu yolun tablosunu sözlə çəkən Vahid Aslan Kəməndin də, Yal yolunun da, Zağa yurdun da, Arxaşan boğazının da, Dəlmə çayının da,.. sevgisini sözdə göyərdə bilib. Hələ Göyyurd, hələ daşın tən ortasında at nalı izi qalan Düldül...

Oxucunun "Meşə"də söz vasitəsilə gördükləri də düşündürücüdü: təbiət hadislərində cə-miyyəti görmək, bu hadisələrlə cəmiyyətin (ictimaiyyətin) fəaliyyəti arasında analogiyalar - yaxınlıqlar, bənzərliklər (bəlkə də eyniliklər) görmək ədəbiyyatın birbaşa vəzifəsi deyil, vəzi-fələrini istiqamətləndirən amillərdən biridir. Vahid Aslan bu amili ədəbiyyat müstəvisində bəyənilən səviyyədə təqdim edə bilib: "...baldırğan, boççа və quzqulaq bol idi. Mənim işim quzqulaq və baldırğan yığmaq oldu. Baltaların səsi qalın və sakit meşəni diksindirdi. Taq-tuq,.. taq-tuq... Baldırğan yığa-yığa atamgildən xeyli uzaqlaşmışdım. Birdən elə bil yer öz oxundan çıxdı. Qorxudan yığdığım baldırğanları da kolluğa atıb sıx otluqda yıxıla-yıxıla geriyə doğru qaçdım. Axır ki, atamgili tapa bildim. Qorxudan ağlayırdım. Bu görkəmimə Aqil qarnını qucaqlayıb gülür, atam üzümdən öpüb məni sakitləşdirməyə çalışırdı. Məlum oldu ki, məni qorxudan kəsilən iri fısdıq ağacının yıxılarkən meşəyə yayılan şaqqıltısı olub. Kəsilən ağaca baxanda nədənsə kefim yenidən pozuldu. Anladım ki, kökündən ayrılan ağaclar yıxılarkən son dəfə hayqırıb nalə çəkirmişlər...".

Əsər (ədəbiyyat) min illərin millimənəvi dəyərlər sisteminin başlıca arqumentlərindən birinin bədii uvertürası kimi qəbul edilir: Kökündən ayrılma mənəvi faciələrin başlanğıcıdır; kökünə möhkəm bağlan ki, sonralar bu və ya digər səbəbdən faciələrə düçar olmayasan...

Neçə on illər əvvəlin uşaq oyunları tamam başqa olub. Dəyişilənlər uşaq dünyasının yeniləşməsidimi, müasirləşməsidimi? Bəs o oyunlar? O oyunlarla böyüyənlər müəllim oldular, həkim oldular, dövlət xadimi oldular, şair, yazıçı, rəssam, heykəltaraş,.. oldular. O oyunlarda da qüdrət vardı. Xalqını, milli-mənəvi dəyərlərimizi sevənlər müasirləşmənin, yeniləsmənin əleyhinə deyil, ancaq o illərin nağıllarının, o illərin oyunlarının fəlsəfəsi mükəmməl dünyagörüş formalaşdırırdı. Vahid Aslanın "Çətindərə" romanı həm də bu fəlsəfəyə ehtiramın (sevginin) əsəridi: "Süzdürmə oyunu", "Çöprağıtma" oyunu",.. indi az qala leksikamızdan çıxmaqdadı. Tarix belə unudulur, unudulan tarix dünənlərin milli-mənəvi dəyərlərinə biganəlikdi. Biganəlik isə mahiyyət baxımından tarixin bir dövrünə (həm də həmin dövrdən əvvəlki dövrlərə) xəyanətdi. "Çətindərə" düşüncələrdə bu biganəliyə ədəbi söz sipəridi sanki...

"Qaya yurddakı qız"da xatırlanan hadisə tər-təmiz bir duyğunun qönçələnməsidi, kövrək-liklə yazılıb, kövrəkliklə də oxunur. Hadisənin başlanğıcı oxucunun düşüncələrinin səmtini sonluğa yönəldir. Duyursan ki, bu sonluq duyğuların gerçəklik



dolayında yorulacaq. Sözlərin düzümü fikrin dərkini asanlaşdırır, dərinləşdirir:

"...birdən xırda bir qayanın dalından nəğmə səsi eşidildi:

Ay duman, gəl get bu dağlardan,
Dağlar təzə bar eyləsin!

Bu səs qayalardan qayıdaraq heca-heca ruhuma hopdu. İncə, kövrək, bir qədər də kədərli qız səsi! Artıq gizləndiyim qayanın arxasından bu qızı görürdüm. Üstündə qara xalları olan ağ donlu qız. Kəkotu yığa-yığa oxuyurdu. Məni görmürdü. Onun uzun qara hörükləri çiyinləri boyu axıb gedir, külək arabir donunun ətəyini tərpədirdi. Hələ də gizləndiyim yerdən heyrət içərisində təbiətin gözəllik adlı canlı əsərinə tamaşa edirəm. İndi onun dağ küləyindən allanan yanaqlarını, qaymaq çiçəyinə oxşayan əllərini və bənövşə gözlərini aydın görürdüm...". Gözəl təsvirdi. Yanağın dağ küləyindən allanması, əllərin qaymaq çiçəyinə bənzəyişi, bənövşəyi gözlər nə qədər doğmadı, nə qədər könüləyatımlıdı!..

"Çətindərə" romanında tarixilik də var. Ötən əsrin sonlarında Ermənistan Azərbaycandan ərazi iddiasına düşdü. Bu əsassız iddia silahlı qarşıdurmaya, böyüyərək elan edilmədən baslayan müharibəyə səbəb oldu. Təkcə Qarabağda deyil, Ermənistanla sərhəd rayonlarda da. Ermənistan Gədəbəyə də həmlələr, hücumlar edirdi. Bu həmlələrin, hücumların qarşısını ərazi özünümüdafiə taboru, əhali, milislər alırdı. Mutudərədə də belə qarşıdurmalar olmuşdu. Düşmənin həmlələrinin, hücumlarının qarşısı qətiyyətlə alınmışdı. Vahid Aslan Mutudərənin yandırılmasından da, işğalından da söz açır. Ancaq ötəri. Niyə ötəri? "Başkənd əməliyyatı"nı daha təfərrüatlı vermək üçün. Başkəndin ermənisizləşdirilməsi Birinci Qarabağ müharibəsində qazanılan mühüm qələbələrdən biri oldu. Neçə on illər ermənilər bu məğlubiyyəti acı-acı xatırlayırdı. Bu anklav ərazi ermənilərin qədərsiz təəssüfünə dönmüşdü. Bəzən İkinci Qarabağ müharibəsindən sonra da belədi. Belə bir əməliyyatı belə bir əsərdə xatırlamaq tarixə də sədaqətdi, dövlətçiliyə də, dövlətə də, millimənəvi dəyərlərə də: "... Avqustun 6-da axşama doğru qəhrəman Gədəbəylilər bir yumruq kimi birləşərək, sonralar hərb tarixinə qızıl hərflərlə yazılacaq "Başkənd əməliyyatı"na başladılar. Qüvvələr nisbəti kəskin şəkildə ermənilərin xeyrinə olsa da mənəvi üstünlük məğrurluğu ilə seçilən dağ adamlarının tərəfində idi. Həlledici hücum avqustun 8-də həyata keçirildi. Əvvəlcə bir göz qırpımında hücuma keçən əsgər və zabitlərimiz mənfur düşmənə göz açmağa imkan verməyərək Mutudərə və Qasımağalı kəndlərini işğaldan azad etdilər. Qüvvələrin bir hissəsi isə paralel olaraq Baskəndə doğru irəliləyərək axşama doğru Başkənddən ermənilər tamamilə çıxartdılar. Demək olar ki, "Baskənd əmliyyatı" həmin ərazidə möhkəmlənmiş erməni ordusunun darmadağın edilməsi ilə nəticələndi...". Kiçik həcmli tarixi oçerk misallı "Başkənd əməliyyatı" ədəbi müstəvidə də maraqla oxunur. Həm də sonrakı hekayətin ("Atamın hərbçi dostu") baslanğıcıdı sanki.

Bədii "mən"in atasının hərbçi dostundan öyrənmək istədikləri də mahiyyət baxımından nüharibə tarixinin zərrələridi; nəhr zərrələrdən yaranmırmı? Hərbçi döyüşlərdə iştirak edənlərin hamısının ad-soyadını yazdığı dəftəri tarixi sənəd kimi qoruyub, "Çətindərə" də belə saxlanc yerlərindən biri (və ən etibarlısı!) olacaq!", - əminliyi ilə oxunur. Bədii əsər tarixin eksponatıdı!..

Əsər həm də qəhrəmanlığı etibarlı tarixləşdirmə vasitəsidi. Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun qəhrəmanlığına ehtiram tarixin ehtiramıdı: "Baş leytenant Məzahir Rüstəmov döyüş zamanı diri-diri düşmənin əlinə keçməsin deyə sonuncu qumbarası ilə özünü partlatdı". Belə qəhrəmanlıqlar döyüşlər getmiş bütün əzazilərimizdə olub. Biri də Zəngilanda oldu, 1993-cü il oktyabrın 25-də Dərzili kəndindən Ermənistan silahlı qüvvələrinin hücumunun qarşısını almaq üçün Baloğlan Süleymanov düşmən tankının qarşısından qaçmadı. Sonacan döyüşdü, şəhid oldu. Bu da tarixdi, müharibə tariximizin qəhrəmanlıq tarixi...

Romanın digər hissələri (kiçik hekayətlər anlamında) də el-obaya, onun adət-ənənələrinə, ümumilikdə Vətənə sevginin bədii əksidi...

Əsərdə elatın yurd yerləri sevgilərlə təsvir edilib. Yazıçı alliterasiyalardan da istifadə edib, söz-rəngkarlığından da. "Daşlıboyun"da Daşlıboyun gözəl, könüləyatımlı təsvir edilib, oxucu oxuduqlarını görür sanki: "...buradan uzanıb gedən meşə massivini və gurultuyla axıb gedən dağ çayını doya-doya seyr etmək mümkündür. Hündür qayalar kürək-kürəyə verib göy üzünə meydan oxuyur. Diqqətlə baxanda qayaların adama, ya da ata oxşadığını da sezmək olur...".

"Çətindərə romanı həm də dilimizə ehtiramla yazılmış əsərdi. Arxaizm də deyən tapılar, az işlənən söz də. Ancaq bunların heç biri yeni yaradılmış söz deyil, nə vaxtsa dilimizdə bəlkə də ən işlək söz olub: Qulaqları şəkləmə, qantarğa, mıxça,...

"Çətindərə" süjetli xatirələr romanıdı, kitaba daxil edilən "Dəlmə çayının ölümü", "Bənövşə ömrü", "Müəllim",.. hekayələri də maraqla oxunur, istər məzmun baxımından, istər bədii səviyyə baxımından. "Müəllim " hekayəsi azərbaycançılığın bədii ifadəsi təsirindədi ...

Yazıçı Vahid Aslanın "Çətindərə" romanı maraqlı (və qəbul edilən!) bir janrda yazılıb, bədii səviyyəsi ilə səciyyəvidir. Oxunur, yadda qalır, düşündürür; "Çətindərə"nin işığı asan seçilir...

Bayram MƏMMƏDOV,
Əməkdar müəllim



Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru

ZEYNƏB ƏLİQIZININ ESSELƏRİ, HEKAYƏLƏRİ, NAĞILLARI

İstedadlı bir söz adamı kimi tanıdığım Zeynəb Əliqızı mənə yeni yazılarını təqdim elədi. Neçə il öncə mən onun ilk hekaylər kitabı haqqında bir yazı yazmışdım. O yazıda Zeynəb Əliqızının "kiçik janr" sayılan hekayədə necə uğur qazandığının şahidi olmuşdum. Hiss olunurdu ki, Zeynəb Əliqızı hekayə janrının tələblərini düzgün dərk edib. Böyük qırğız yazıçısı Çingiz Aytmatovdan bir misal gətirmişdim "Hekayəni damla ilə müqayisə etmək olar. Amma bu damlalarsız okean ola bilməz". Zeynəbin "damlaları" həm forma-struktur, həm də ideya-məzmun baxımından elə bir irad doğurmurdu. Yəni mənim qarşımda nə yazdığını və həm də necə yazdığını anlayan istedadlı bir yazar dayanmışdı. O ilk hekayələr kitabında Zeynəb Əliqızının həyatımızla, günümüzlə, məişətimizlə, mənəvi dünyamızla bağlı hadisələr və bu hadisələrin canlı iştirakçıları təsvir olunurdu. Həm də bu təsvirlərdə reallıq, sanki həyatı olduğu kimi canlandırmaq, təhkiyəni ardıcıllıqla yönləndirmək bacarığı diqqəti cəlb edirdi. Onun "Şəhid anası" hekayəsi çox təsirli idi. Təsəvvür edin, oğlu müharibədə şəhid olan bir ana toya gəlir, hamı onu görüb susur, amma o, çalğıçılara deyir ki, çalın, mən oynamaq istəyirəm, çünki oğlumun toyunu görmədim... Və onu da qeyd etmişdim ki, Zeynəbin əksər hekayələrinin əsas personajları qadınlardır. Və təbii ki, o, qadın dünyasına yaxşı bələddir. Bir də onu qeyd etmişdim ki, Zeynəbin hekayələrinin dili də - həm özünün təhkiyəsində, həm də obrazların danışığında təbii idi, cilalı idi.

Üstündən illər keçib və Zeynəbin ilk kitabı haqqında söylədiklərim onun son illərdə qələmə aldığı hekayələrinə də aiddir. Mən öncə onun son illərdə qələmə aldığı "Acmış maral kimi" hekayəsini lirik-psixologi səpgidə yazılmış bir hekayə hesab edirəm. Nədir bu hekayənin özəlliyi? İstər şeirimzdə, istərsə də nəsrimizdə sevgi haqqında, onun insan həyatında necə təsirli rol oynadığı barədə yüzlərlə nümunələrin adlarını çəkə bilərik. İnsan sevirsə, o, xoşbəxtliyin nə olduğunu dərk edir.Hekayədə yaşlı olmayan bir kişi ilə bir qızın adi münasibətindən sevgiyə doğru gedən bir yol təsvir olunur. Bu yol bir həyətdə başlanır, get-gedə şaxələndikcə ikisini də bir bucaqda birləşdirir. "Bilirsən, hərdən mənə elə gəlir ki, biz lap çoxdan tanıyırıq birbirimizi. Lap elə Nuh əyyamından,- kişi gözünün ucu ilə ona baxıb danışırdı. Həm də yanaşı yeriyirdilər". Amma müəllif onların taleyinə, keçdikləri ömür yoluna da nəzər salır. Kişi qürbəttə yaşayıb və vətən üçün darıxıb, ona məsləhət görüblər ki, get, Azərbaycanın istənilən bir məkanında yaşa, ayağın torpağa dəysin. O da qızın yaşadığı bağ evində fəhləlik edir. Qıza isə elçi gəlib, anası onu tələsdirir. Amma onların adi söz-söhbətləri sevgiyə çevrilir və hekayənin sonu da belə xoşbəxt "finalla" başa çatır. Təbii ki, bunu hind filmlərindəki "xoşbəxt finala" bənzətmək olmaz. Əgər iki insanın bir-birini başa düşüb dərk eləməsi təbii yolla, heç bir əlavə qüvvənin köməyi olmadan yaranırsa, burada uğurun ya uğursuzluğun ğaş verməsi elə bir əhəmiyyət kəsb eləmir. Zeynəb Əliqızı bu hekayədə bir sevginin "tarixini" vərəqləyir və "sevgisiz həyat yoxdur" fikrini oxucuya aşılayır.

Doğrudan da, sevgisiz həyat yoxdur!" və "Ən yaxşı it" hekayəsində bunun şahidi oluruq. Amma necə? Bu dəfə əks mövqedən. "Mən qadın idim. Gözəl, göyçək, yaraşıqlı və qabiliyyətli bir qadın. Amma bundan əvvəli də vardı, mən yaraşıqlı, sevilməyə layiq bir qız idim. Sevilmək üçün insanda nələr varsa, məndə də onlar vardı". Sevmək, sevilmək üçün yaranan bu qadın ərə gedir, elə bir adama ürcah olur ki: "Bu kişi ərim olandan sonra gördüm ki, onun qadına münasibəti tamam ayrı imiş. O, mənə bir əşya kimi baxmağa başladı. O dedi ki, bütün dünyada azad qadın yoxdur, hamısı kişidən asılıdır... Qadın heç kimdir, heç nədir, onun müstəqil yüaşamağa imkanı yoxdur... Məni artıq saydı, ucuzlaşdırdı, dəyərsizləşdirdi". Mənəvi sıxıntılar get-gedə qadını dözülməz hala gətirir. Onun həyatı artıq sona çatır, qadın öz taleyini möhkəm külək əsən bir gecədə iri söyüd ağacının küləyə necə müqavimət göstərməsiylə müqayisə edir. "Biçarə ağac özünü hara gəldi çırpırdı". Və qadın allaha yalvarır ki, "İlahi, məni bir itə döndər. Mən artıq insan kimi yaşamaq istəmirəm! Qurtar məni bu zillətdən". Və o qadın itə dönür. Yenə əzablara düçar olur. Gecələr yalqız bir yerə çəkilib həzin-həzin ulayır.

Əlbəttə, biz qadını o kişiyə müqavimət göstərməməkdə təqsirləndirə bilmərik. Bütün qadınlar eyni xarakterdə olmur ki.. Bu qadın gözəldir, amma zəifdir, iradəsizdir, müqavimət hissi yoxdur və təbii ki,sonu da belə olmalıymış. Müəllif belə bir fikri təlqin edir ki, sevgi olmayan bir ailədə bu cür faciələrin baş verməsi qaçılmazdır.

Zeynəb Əliqızının digər hekayələrini də oxdum. "Ana-bala oyunu"da anası evdən çıxıb gedən bir balaca bir qızın ana həsrətini "ana-bala oyunu" ilə necə ovundurduğu çox təbii verilib. "Acılıq" hekayəsində isə ailədə yaranan qısqanclıq ucundan yaranan və ayrılığa səbəb olan bir hadisədən söz açılır. Bu hekayələrdə də Zeynəb Əliqızının hekayəçi duyumu-hadisələri insan obrazında təcəssüm etdirmək bacarığını hiss etdim.

***

Zeynəb Əliqızı esse janrına da müraciət edir. İlk baxışda esse yazmaq çoxlarına asan görünən bir məsələdir. Amma belə deyil. Bu janrın da özünəməxsus xüsusiyyətləri var.

Essenin əsasını fransız yazıçısı və filosofu M.Monten qoymuşdur.. O, 1580-ci ildə yazdığı "Esse" adlı əsərində cəmiyyət və insanın taleyi haqqında danışmışdır. Sonralar dünya ədəbiyyatında B.Şou, R.Rollan, C.Lokk, F.Bekon bu janra müraciət etmişlər. Qərbdə "esse" termini çox yayılmışdır. Esse həm bədii ədəbiyyatda, həm də ədəbiyyatşünaslıqda bir janr kimi çox işlənir. Azərbaycan ədəbiyyatında son illərdə bu janra tez-tez müraciət olunur.

Esse qələmə alan müəllif (istər bədii ədəbiyyatda, istərsə də tənqid və ədəbiyyatşünaslıqda) müəyyən və konkret bir fikir ortaya qoyur. Sonra bütün esse boyu həmin fikri lirik-emosional şəkildə davam etdirir. Zeynəb Əliqızı da bu qaydaya əməl edir. "İnsan-bir məzar daşıdır" - olsun ki, bu ifadə kimsə qəribə səslənsin. Amma hər hansı bir fikri özündə ehtiva edən esse oxucunu da düşündürür. Bu esse dənizi seyr edərkən yaranan düşüncədən yoğrulub. İnsanın dənizlə ya hansı bir təbiət hadisəsi ilə ünsiyyətini əks etdirən şeirlər, hekayələr çoxdur. Amma dəniz birin-



cidir-çünki dənizi seyr edərkən heç nəyi gizlətmirsən, ürəyində nə varsa ona danışırsan. "Dənizə baxırsan..Durub-durub özünü birdən o dalğaların qoynuna atmağın keçir ürəyindən... Düşünürsən ki, o boyda nəhrin içində sən bir damla da deyilsən ki, o sulara qarışasan". Amma dənizlə yanaşı bir həyat nəhri də var: "Sularında üzdüyün... həyat nəhrinin dalğaları da günlərin bir günü səni eynən bax, bu dəniz kimi özündən uzaqlaşdırmağa çalışır... Nə baş verir o zaman?" Essedəki əsas fikir məhz bundan sonra "hərəkətə" keçir-Daş obrazı həmin fikri bədii reallığa çevirir. İnsan və Daş... Bu iki məfhumu birləşdirən çox şeylər var və Zeynəb könül daşlarından tutmuş bir məzar daşıyna qədər insanın ömür yolunu "səyahət" edir. "Demə, biz elə daşdan doğulub gəlmişik, bir-birimizlə çırpıla-çırpıla, ovxalana-ovxalana, qırıla-qırıla vaxt keçirmişik və bu vaxtın adını ömür qoymuşuq. Demə, daşın daşla toqquşduğu zaman həyat nəhrinin içindən çıxıb qumsallıqla yan-yana düzülmüşük və bizi günəş qaraldıb. Demə, insan bir məzar daşıymış, tənha, yalqız, kimsəsiz".

Zeynəb Əliqızı bir essesini Qvarabağa həsr edib. "Adına cənnət,ölkənin dilbər guşəsi deyilən bir diyara". Uzun illərin ayrılığından sonra yazılıb bu esse. Və hiss etmək çətin deyil ki, bu esse nisgildən, intizardan sonra qələbə sevinci ilə yaşayan hər birimizin ürəyindəki arzuların bayramından söz açır. "Ağdam, Xocalı, Ballıca...Bulaqlarının suyu baldan da şirin Ballıca.. Qarabağın füsunkar mənzərəsini yenidən bizlərə qaytaran, nə qədər ağrılı olsa da, bizə zəfər zövqünü yaşadan igidlərimiz vardı...amma yox, onlar indi də vardırlar! Əbədi ölməzliyə rovuşan bu igidlərin hər biri ayrı-ayrılıqda, hər biri haqq dünyasında sağdır".

Zeynəb Əliqızının "Cənnət qoxulu sevgi" essesi mənim fikrimcə, onun bu janrda ən uğurlu essesidir. Hətta bunu lirik hekayə kimi də səciyyələndirmək olar. Essedə bir ananın vəfatından sonra onun övladının həm kədərli, nisgilli, həm də sonu nikbinliklə bitən həyəcanlarını ifadə edir. Ananın ölümü hər insan üçün ağırdır, hətta bu ağırlığı heç nə ilə müqayisə etmək olmaz. Məmməd Arazın bu misrası yada düşür: "Ana itirmişəm ana yaşında". Zeynəb bu essedə mükəmməl bir Ana obrazı yaradır. Ana Sevgisi bu obrazı bizə sevdirir. "Mən elə o zamandan dərk etdim ki, insan qəlbinin xırda guşələrində "yatan" hisslərin əksər hissəsi-sevgi duyğularıymış. Bizi həyata, kainata və birbirimizə bağlayan sevgi duyğuları". Essedə anaya məhəbbətin lap çılğınca da olsa ifadəsi başqa bir obrazı sizə tanıdır. Ana sevgisini onun vəfatından sonra da yaşadan Övlad obrazı. "Anam ölüb getdi, dünyam boşaldı, anasız qaldım... Amma olduqca böyük bir miraslaanamdan qalan sevgiylə qaldım. Anam mənə sevməyi öyrətdianamdan qalan sevgiylə qaldım. Anam mənə sevməyi öyrətdi-ana kimi sevməyi".

"Tənhalıq əbədiyyəti" essesini də çox bəyəndim. Əli Kərimin bir misrası yada düşdü: "Tənhalıq boşluq deyil". Essenin qəhrəmanı qaranlıq və sakit gecədə, ulduzların sayrışdığı səmada şiddətli küləklərin döydüyü bir çınarın kölgəsində qoyulmuş skamyada fikrə gedir. Nə haqda fikirləşir? Ötən günlərin xatirələrini vərəqləyir. Öz həyatının mənasını dərk etməyə çalışır: "Bildiyim tək şey-özümü axtarmağımdı. Səssiz-səmirsiz gecənin qaranlığıda düşüncələrimlə, duyğularımla sanki kimi isə gözləyirəmmiş kimi batıb qalaraq buradan gedə bilmirdim". Gedə bilmir, amma çinar ona düşüncələrinə bir rahatlıq bəxş edir, o da bu çinar kimi göylərə meydan oxumaq istəyir. Tənhalığın əbədiyyətə qovuşduğu yerdə...

Zeynəbin "Əbədiyyətin nəfəsi" essesi də tənhalıqdan qurtulmağa çalışan bir ürəyin nisgillərini ifadə edir. Mənə maraqlı gəlir ki, Zeynəb Əliqızının lirik qəhrəmanı tənhalıqdan bezmir. Tənhalıq insanın özüözüylə dərdləşməsi deyil, özünü dərk etməsidir.

Zeynəb Əliqızının "Nağıllar aləmi" ilə də tanış olduim. Onu uşaq yazıçısı kimi də tanıdım.Uşaqların maraq dairəsini ifadə edən nağıllar yazır. "Gizlənən günəş və cəsur siçan", "Meşədə gülən kölgə", "Balaca dövşan və sehirli kök", "Uçmaq arzusu", "Balaca sərçə və işıqlı toxum", "Sərçə və top", "Saatı dayanan şəhər" - bu nağılların hər birində Zeynəb sanki balacaları başına yığıb onlara şirin nağıllar söyləyir. Həm də onların öz dilində, səlis və rəvan... Uşaqlar onun nağıllarına inanacaqlar. İnanacaqlar ki, buluddan gələn bir məktubla balaca Lalə o buludların köməyi ilə göy üzünə qalxacaq, onun gülüşü səmaya yayılacaq, bomboz buludlar bir anda rəngdənəcək, yağış da damcı-damcı yox, ürək formasında yağmağa başlayacaq.

"Nağıllar aləmi"ndəki nağıların hər biri beləcə uşaq aləminə vəsiqə almağa layiqdir.

Zeynəb Əliqızının hekayələri, esseləri və nağılları haqqında qısaca da olsa, söz açdım. Siz də, əziz oxucular, onun hekayələrini, esselərini, nağıllarını oxuyun.

Ziyansız bilib qəbul etdiyimiz bu vasitələr qaraciyəri məhv edir



"Bioloji fəallığa malik qida əlavələrinin nəzarətsiz və həkim məsləhəti olmadan qəbulu qaraciyər sağlamlığı üçün ciddi təhlükə yaradır".

Adalet.az xəbər verir ki, bu barədə tibb elmləri namizədi, qastroenteroloq Yekaterina Kaşux bildirib.

Mütəxəssis qeyd edib ki, mənşəyi və tərkibinin həqiqiliyi şübhə doğuran bioloji fəal əlavələr qaraciyər üçün gizli təhdiddir:

"Çox insan yanlış olaraq "təbii" əlavələri tamamilə təhlükəsiz vasitə hesab edir. Lakin məhz Bioloji fəallığa malik qida əlavələri tez-tez qaraciyərin dərman zədələnməsinə gətirib çıxarır. Əlavələrin tərkibindəki bəzi ekstraktlar yüksək dozada hepatositlər (qaraciyər hüceyrələri) üçün zəhərlidir. Təəssüf ki, insanlar çox vaxt həkimlə məsləhətləşmədən özlərinə sərbəst şəkildə bunu təyin edir və dozaları özləri seçirlər".

Həkim vurğulayıb ki, bioloji fəallığa malik qida əlavələrinin uzunmüddətli və nəzarətsiz qəbulu zamanı qaraciyərə düşən toksik yük artır, hüceyrələr zədələnir.

"Vəziyyəti mürəkkəbləşdirən əsas məqam isə qaraciyər problemlərinin uzun müddət özünü bərüzə verməməsidir. Simptomlar yalnız zədələnmə prosesi dərinləşdikdən sonra üzə çıxır, - deyə o əlavə edib.

İtirilmiş dişlər yenidən çıxa bilər

İnqilabi kəşf



Yapon alimləri dişlərin təbii yolla yenidən inkişafını stimullaşdıran eksperimental dərman üzərində işləyirlər. Bu preparat gələcəkdə stomatologiyada implant və protezlərə alternativ ola bilər.


Bakıvaxtı.az xəbər verir ki, bu barədə "The Science Pulse" nəşri məlumat yayıb.

Həkim Katsuo Takahaşinin rəhbərlik etdiyi tədqiqat qrupu dişlərin inkişafını məhdudlaşdıran USAG-1 zülalına təsir edən preparat hazırlayıb.

Alimlər bu zülalın fəaliyyətini bloklamaqla orqanizmin yeni dişlər formalaşdırmaq potensialını aktivləşdirməyə çalışırlar.

Heyvanlar üzərində aparılan ilkin sınaqlar ümidverici nəticələr verib. Bu nəticələr preparatın insanlar üzərində sınaqdan keçirilməsi üçün zəmin yaradıb.

Diqqətçəkən məqam odur ki, tədqiqatın ilkin mərhələsində əsas diqqət anadangəlmə diş çatışmazlığı olan insanlara yönəldilib. Başqa sözlə, preparatın ilkin məqsədi travma və ya kariyes nəticəsində dişlərini itirənlərə deyil, doğuşdan bəzi dişləri olmayan şəxslərə kömək etməkdir.



BAYAT

№ 101 (961)





Dünya məhəbbətdi, sevgidi, sənsən

FİKRƏT QOCA
Xalq şairi

PAYIZ GƏLDİ...

Gözlərim hər axşam axtarır səni,
Ürəyim yollardan qayıtmır evə,
Sənsiz dalğalar da tanımır məni,
Neyləyim ürəyim heç yatmır evə.

Payız gəldi, uçdu getdi quşlar,
Sən də getdin, bax yağdı yağışlar.
Payız gəldi, uçdu getdi quşlar,
Sən də getdin, bax yağdı yağışlar.
Payız gəldi, qərib oldu dəniz,
Bu dənizin gözü yaşlı sənsiz.
Bu dənizin gözü yaşlı sənsiz.

Küçələr, döngələr izindən qalır,
Yarpaq pıçıltısı sənin səsindi,
İşıqlar zil qara gözündən qalır,
Bu şirin xatirə mənim bəsimdi.

Payız gəldi, uçdu getdi quşlar,
Sən də getdin, bax yağdı yağışlar.
Payız gəldi, uçdu getdi quşlar,
Sən də getdin, bax yağdı yağışlar.
Payız gəldi, qərib oldu dəniz,
Bu dənizin gözü yaşlı sənsiz.
Bu dənizin gözü yaşlı sənsiz.

Özümü aldadıb hər axşam-səhər,
Elə bu havanı oxuyuram mən,
Vallah səndən ötrü çox darıxmışam,
Başqa nə gəlir ki axı əlimdən?

Payız gəldi, uçdu getdi quşlar,
Sən də getdin, bax yağdı yağışlar.
Payız gəldi, uçdu getdi quşlar,
Sən də getdin, bax yağdı yağışlar.
Payız gəldi, qərib oldu dəniz,
Bu dənizin gözü yaşlı sənsiz.
Bu dənizin gözü yaşlı sənsiz.

Dostlarım bilirlər nələr çəkirəm,
Hər axşam könlümü alırlar mənim,
Hər dəfə qapımı döyən zaman qəm,
Dostlarım həmdəmim olurlar mənim.
Payız gəldi, uçdu getdi quşlar,
Sən də getdin, bax yağdı yağışlar.

Payız gəldi, uçdu getdi quşlar,
Sən də getdin, bax yağdı yağışlar.
Payız gəldi, qərib oldu dəniz,
Bu dənizin gözü yaşlı sənsiz.
Bu dənizin gözü yaşlı sənsiz...

GÖRƏNDƏ... GÖRMƏYƏNDƏ...

Səni görməyəydim mən fağır, təki, -
Səni görən yazıq, görməyən yazıq.
Görməyən dünyada nə görübdürki,
Görən nə çəkmişəm bilir mən yazıq.

Desəm ki, mənim ol, el mənə gülər,
Deyirlər, get otur qafiyə tap yaz.
Bütün yer üzündə qalan dəvələr
O qızın nazını çəkib aparmaz.

Əl göydən üzülüb, ayaq da yerdən.
Görüb öz başıma iş açmışam, iş.
"Kaş ki, görməyəydim" desəm də hərdən,
Onu görməyincə mən heç nəyəmmiş...

SƏNSİZ

Sənsiz üşüyürəm türyan istidə,
Sənsiz söhbətlərdə yersiz sözəm mən.
Bəzən haylı-küylü bir məclisdə də
Qəribəm, tənhayam, kimsəsizəm mən.

Mənə bir ömürdür bir anlığın da
Çağırsan qəbirdə dayanmaram mən.
Uyusam gözünün qaranlığında
Yeddi günəş yansa oyanmaram mən.

Bilsəm ki, sevirsən, sonsuz səhrada
Ulduzsuz gecədə, mən tək deyiləm,
Sənsiz biganəyəm, tanışa, yada,
Sənsiz özümə də gərək deyiləm.

Dostlar qayğısıyla neyləsin buna,
Kollektiv neyləsin, yalqızam, yalqız.
Mənim ürəyimin tənhalığına
Neyləsin həmkarlar təşkilatımız.

İKİNCİ GÖRÜŞ

Oturduq yanaşı, susduq yanaşı,
Dən düşmüş saçına baxdım arada.
Sən də mənə dedin ağarır başın,
Görməyə nə var ki, ağı qarada.

Gecikmiş məhəbbət son bahar kimi,
Həm kədərli olur, həm də ki, şirin.
Anamın çaldığı laylalar kimi
Arzuyla doludur ala gözlərin.

Qalmışıq biz odla su arasında,
Gənclik məhəbbəti, müdriklik yaşı.
Ömrün bu qəribə macərasında
Oturduq yanaşı, susduq yanaşı.

Birdən fıkrimizi elə bil gördük,
Qəmli gülümsündük bir-birimizə.
Elə bil bununla açıq deyirdik -
Bu yaşda məhəbbət yaraşmır bizə.
Ürək necə olub unudub yaşı...
Oturduq yanaşı, susduq yanaşı.

MƏHƏBBƏTDƏN SUAL

Qızlar məhəbbətdən sual verirlər,
Dünyada məhəbbət alimi yoxdu.
Bilmirəm heç nəyə vüsal deyirlər,
Axı zəhrimarın elmi yoxdu.

Yanıb-yaxılmışam eşqin oduna,
Dərəyə enmişəm, ucalıq qalıb.
Layiq deyiləmmiş onun adına,
Mənə məhəbbətdən qocalıq qalıb.

Canım yana-yana indi kül salıb,
Axırı bu imiş, ay dadi-bidad.
Ülvi məhəbbətdən mənə bu qalıb:
Bir dəstə uşaqdı, bir qoca arvad.

ANA

Əziz anam, şirin sözlü anam,
Qəlbin kövrək, eşqin solmaz bahar.
Gülər üzlü, qara gözlü, anam.
Hara getsəm gözün mənə baxar.

Ana, qəlbim bu laylalar gəzər
Doğma səsin ömrü gülbəzər
Laylay dedin ana, laylay dedin mənə,
Həyat verdin mənə, əziz ana.
Laylan hələ yaşar, laylan ellər aşar,
Günəş kimi yana-yana, ana.

Ana, səsin aydın səhər ola,
Ana, qəlbin keşik çəkər bizə.
Yolum üstə uzaq səfər ola,
İşıq dolar nurdan düşən gözə.
Mənim görən gözüm sənsən, ana,
Ömrüm günüm özüm sənsən, ana.

Laylay dedin ana, laylay dedin mənə,
Həyat verdin mənə, əziz ana.
Laylan hələ yaşar, laylan ellər aşar,
Günəş kimi yana-yana, ana.

Laylay dedin ana, laylay dedin mənə,
Həyat verdin mənə, əziz ana.
Laylan hələ yaşar, laylan ellər aşar,
Günəş kimi yana-yana, ana.
Həyat verdin mənə, əziz ana.
Günəş kimi yana-yana, ana.

GİZLİ SEVGİ

Sevgimdən qaçmışam uzaq şəhərə,
Burda da həsrətin gəlib, dayanıb.
Ətrin səpələnib bütün güllərə,
Gözünün rənginə göylər boyanıb.

Sənincün dünyada bəlkə yoxam mən,
Səni sevdiyimi heç bilməyirsən.
Gündüz xəyalımdan, gecə yuxumdan
Bir an da, bir an da çəkilməyirsən.

Ürəyim, daşa dön, bu sirri saxla,
Bu sevgi, bu bəla hardan enibdir?
Bizim taleyimiz evlə, uşaqla
Hərəsi bir yana zəncirlənibdir.

Ölüncə eşqinlə olacağam mən,
Mən sənin ruhunda, qanında varam.
Üstünü kül örtmüş bir ocağam mən,
Balaca bir mehdən qaynayar yaram.

ENƏN DEYİLƏM

Səndən, özümdən də daha bezmişəm,
Özümün cəzamdı özüm dözmüşəm.
Yayından ayrılmış oxam, süzmüşəm,
Mən bir də geriyə dönən deyiləm.

Huşunu ayıldıb taleyin daşı,
Təzədən gözündə olmuşam yaxşı.
Leysana dönsə də gözünün yaşı,
Sevinən deyiləm, sönən deyiləm.

Çarxım çevrilsə də, yatsa da baxtım,
Sellər aparsa da demərəm: "axdım!"
Görsəm ki, ucalıb göylərə qalxdın,
Sən qalxan zirvəyə enən deyiləm.

SƏNSƏN

Sənsiz yaşayaram, sənsiz ölmərəm,
Sənsiz ağlamaram, sənsiz gülmərəm.
Sənsiz bu dünyanı dünya bilmərəm,
Dünya məhəbbətdi, sevgidi, sənsən.

Quşlar sənin üçün gəlir hər bahar,
Güllər sənu görüb gülür hər bahar.
Bulaqlar bilir ki, səni sevən var,
Küləklər bilir ki, tez-tez küsənsən.

Ömrümə işıqdır qara gözlərin,
Ruhumu titrədir şirin sözlərin.
Yaraşığı sənsən gülər üzlərin,
Bağlarda qərənfil, nərgiz, süsənsən.

Baxtım, varım-yoxum, qismətim mənim,
Hökmüm, ərkim, canım, ismətim mənim.
Səndədir hər sözüm, söhbətim mənim,
Sən mənim sözümü tez-tez kəsənsən.

UNUDAM GƏRƏK

Odlu baxışların şumlayır məni,
Bilmirəm sevgidi, yoxsa həvəsdi.
Məni eşqə salıb biabır etmə,
Onsuz da çəkdiyim özümə bəsdi.

Axı qəlbimdəki qasırğalara
İnadla özünü niyə atırsan.
Öz rahatlığını çəkirsən dara,
Mənim də yuxuma haram qatırsan.

Mən də könül versəm, sevilsəm əgər
Avara külək tək qalacağam tək.
Tənha ağacları bəs kim dinləyər?
Yox, səni unudam, unudam gərək.

Dalğalar, söyüdlər eh, kimlər, nələr,
Mənsiz sübhə kimi üsyan edəcək.
Bir deyil, beş deyil bu bəhanələr,
Yox, səni unudam, unudam gərək.

YAŞAMAQ EŞQİNƏ, HƏYAT EŞQİNƏ

Qədim tarixləri aç varaq-varaq,
Acizə əyilən qəhrəmana bax.
Alim qoyun güdüb, əlində çomaq,
Yaşamaq eşqinə, həyat eşqinə.

Dostunu düşmənə əzdirən də var,
Özü öz canını üzdürən də var.
Ölümü qoynunda gəzdirən də var;
Yaşamaq eşqinə, həyat eşqinə.

Yaşamaq hər kəsə gəlməsin asan,
Ya gənc, ya qoca ol, daim yoldasan.
Uzaq ulduzları gəzəcək insan
Yaşamaq eşqinə, həyat eşqinə.

YAŞ O YAŞ DEYİL Kİ

Sən mənim ən əziz sirrim, istəyim,
Sən mənim ən acı həqiqətimsən.
İtmiş gəncliyimdən soraq gətirən
Sən mənim sonuncu məhəbbətimsən.

Yaş o yaş deyil ki, yolunu kəsim,
Yaş o yaş deyil ki, açım qəlbimi.
Təzədən başlayım, danışım, küsüm
On yeddi yaşında cavanlar kimi.

Yaş o yaş deyil ki, səni izləyim,
Özümü odlara toxuyum yenə.
Durub saatlarla vədə gözləyim,
Görənlər, bilənlər nə deyər mənə.

Səni hər görəndə çaşıram düzü,
Hamı mənə baxıb gülür elə bil.
Dilimi dişləyib demirəm sözü -
Yaş o yaş deyil ki... heyif ki, deyil.

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

№ 43 (2515) 13 noyabr 2026-cı il

Azərbaycan Respublikası
Media və Yayım Şurası

Hər dövrün, hər zamanın öz dəyəri, öz qiyməti var. Zaman gəlib gedir, dünya və insanlar isə qalır. Heç şübhəsiz ki, Yer üzünü yaradan Allah-Təala bunu insanlara ona görə bəxş elədi ki, onlar Yaradana şükür eləsin, baş kəsib qan tökməsin, dünyanın altını-üstünə çevirməsin, ölkələrin, xalqların və insanların haqqına girilməsin. Amma dünyada hegemonluq edən insanlar tam bunun əksini həyata keçiriblər və keçirirlər. Yəni kim güclüdür, kim iqtisadi və hərbi cəhətdən qüdrətlidir, o ölkə başqa bir kasıb dövlətin başına elə bir qapaz endirir ki, az qala o ölkənin gözləri ovuclarının içinə düşsün. Yəni hər hansı super dövlət kimsə istədiyini verməyəndə onun başına olmazın oyunlarını açır.



ONLAR VƏTƏNİN ƏN ÇƏTİN GÜNÜNDƏ ÇİYİNLƏRİNİ YÜKÜN ALTINA VERDİLƏR



Ona görə də bu gün dünyanın qarmaqarışıq vaxtında hər bir dövlətin və hər bir ölkənin güclü, ideoloji bazası, təbliğat vasitələri və o cümlədən savadlı, istedadlı insanları olmalıdır. O insanlar ki dövləti qurur, onu idarə edir və eyni zamanda o dövləti yadellilərdən qorumağa çalışır. Heç şübhəsiz, hər aşiqin öz dövranı olur. Yəni yaşlı və orta nəsli gənclər əvəz edirlər, o gənclər də həyata və cəmiyyətə elə hazırlanmalıdır ki, onlar dövləti, xalqı idarə edə bilsin və qorumaq gücünə malik olsun.

Azərbaycan müstəqillik dövrünə qədəm qoyduqdan sonra onun gəncləri, yeniyetmələri də yeni ruhda, yeni düşüncə tərzində tərbiyə edilməyə başlanıldı. Yəni ən çox uşaq bağçalarında, ailələrdə və məktəbdə gənclərə milli dəyərlər, milli ideologiya və milli irsə sədaqət ideyaları aşılandı. Təbii ki, insan təfəkküründə hər şeyi birdən-birə dəyişmək, inqilab etmək mümkün deyil. Yəni hər bir insanı yetişdirən, formalaşdıran, kamilləşdirən bu ölkədə olan sağlam mühit, sağlam cəmiyyətdir.

Əlbəttə, Azərbaycanda müstəqillik dövründən sonra belə bir sağlam cəmiyyətin yaranmasına və inkişafına hərtərəfli şərait yaradıldı. Gənclərin azad düşüncəsi, fikrini müstəqil surətdə ifadə etməsi və onların dövlət quruluğunda iştirakının təmin olunması heç şübhəsiz, prioritet vəzifələrdəndir. Bütün bunlar onu deməyə əsas verirdi ki, ölkəmizin dinamik inkişafı, sosial-iqtisadi və hərbi qüdrəti bütün sahələrdə gənclərin daha fəal mövqe tutmasına və vətənpərvərlik ruhunda böyüməsinə şərait yaradır.

Heç vaxt mənim yadımdan çıxmaz, bir dəfə İstanbulda olanda mehmanxanada nahar edərkən bir türk qardaşımız dedi ki, siz nə vaxta qədər ermənilərin işğalına dözəcəksiniz? Gücünüz çatmırsa, biz gəlib sizə kömək edərik. Bizim çox yaxşı, mübariz gənclərimiz var. Təbii ki, bu türk qardaşımızın böyük narahatlığı idi. Mən də ona dedim ki, heç narahat olmayın, bu gün Azərbaycanda elə bir gənclik yetişib ki, onların qabağında nəinki erməni orudusu, heç onlara havadarlıq edən ölkələr də dayana bilməyəcək.

Bu sözlərimdən sonra türk qardaşımız gülümsədi və dedi:

- Təki elə olsun! Amma bilin ki, sizin ağır gününüz bizim ağır günümüzdür və biz də sizin həmişə yanınızdayıq.

Təbii ki, hər bir ölkə ilk növbədə öz iqtisadiyyatına, öz hərbi gücünə, öz ordusuna, öz gənclərinə güvənməlidir. Və biz də həmişə Azərbaycan gəncinə, Azərbaycan əsgərinə güvənmişik. Və güvəndiyimiz dağlara ən çətin anda, yəni torpaqlarımız işğal olunandan sonra qar yağmadı. Həmin o gənclər, həmin o igidlər, həmin o cəsurlar bir nəfər kimi vətəni müdafiəyə qalxdılar.

Mən iki dəfə sevincimdən ağlamışam. Bir dəfə "Azadlıq" meydanında müstəqilliyimizə görə bir milyondan çox insan toplaşıb müdcadilə və mübarizə aparanda, rus tanklarının qabağına əliyalın çıxanda, bir də Azərbaycan əsgəri Ali Baş Komandan, prezident İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edəndə. O tarixi günü, o tarixi saatı, o tarixi anı heç vaxt yaddan çıxarmaq olmur. Minlərlə yox ey, on minlərlə gənc ayağa qalxdı, 44 gündə işğal altında olan bütün Azərbaycan torpağını azad elədi.

Siz o gənclərin çöhrəsini görməmişdiniz, amma mən müharibə başlayandan ilk gündən o gənclərin çöhrəsini görmüşdüm. Allaha and olsun, onların çöhrəsində bir nur vardı və Allahın verdiyi o nurla Azərbaycan gəncləri torpağımız uğrunda, Vətənimiz uğrunda ayağa qalxdı, bir yumruq kimi birləşib Dəmir Yumruğu erməni ordusunun başına vurdu. Bu Azərbaycan gəncliyi idi. O gənclik ki həmişə onları qınayırdılar ki, fərsizdirlər, əllərindən bir iş gəlmir, yaşlı nəsil torpaq məsələsini həll edə bilməsə, o gənclərin əlindən bir iş gələn deyil. Biz düşünürdük ki, ancaq Azərbaycan gəncliyi yeyib-içməyi, idman etməyi, oxumağı bacarır. Amma məlum oldu ki, Azərbaycan gəncliyi vətəni hamıdan çox sevirmiş. O tərbiyəli, mübariz, döyüşkən və yaşlı nəslin çiynindən ağır yükü götürən bir qüvvədir. O qüvvəni biz uzun müddət görməmişdik və hiss etməmişdik. Biz onu 44 günlük İkinci Qarabağ savaşında gördük və hiss etdik.

Azərbaycan gəncliyi qızıl bir tarix yazdı. O tarixi ki heç onların babaları, dədələri yaza bilməmişdi. Yəni onlar 200 ildən sonra müstəqil və böyük Azərbaycan yaratdılar. O gənclər dəcəl idi, ipə-sapa yatmaz idi, amma sən demə, elə bizə dəcəl, ipə-sapa yatmaz gənclər lazım imiş. Onlar həm bizim, həm də Vətənin borcundan çıxdılar. O borc ki 30 ildən çox yaşlı və orta nəslin çiynində qalmışdı. Dağdan ağır yük çiynimizi əzir, heç sabahımızın hara gedəcəyini bilmirdik. Bax, o dağdan ağır yükü xalqın, millətin, Vətənin çiynindən o dəcəl uşaqlar götürdülər. Musa Yaqubun bir bənd şeiri yadımıza düşür:

Bəlkə də borcundan çıxmadım, Vətən!
Ömür bahar deyil, bir də qayıtsın.
Ölsəm də qoynunda qoy ölüm ki mən,
Çürüyüm, bir ovuc torpağın olum.

Şəhid olan oğullarımız Vətən oldular, torpaq oldular, çiçək oldular, gül oldular və yenidən Vətən torpağından baş qaldırdılar. Çünki şəhidlər heç vaxt ölmürlər və Azərbaycan gəncliyi belə bir döyüş yolu keçdi, dediyimiz kimi, qızıl bir tarix yazdı!

Emil FAİQOĞLU

AZƏRBAYCAN RESPUBLİKASI
MEDİA VƏ YAYIM ŞURASININ MALİYYƏ YARDIMI İLƏ



Əntiqə KƏRİMZADƏ

Nakam ömürlü "Səkinə ana"

Ümumiyyətlə, insan ömrünün mənası, çəkisi, dəyəri illərlə yox, onun nə yaşadığı və necə yaşamağı ilə ölçülür. Bəzən ömrün mənası insanın yaşamının bir anı ilə ifadə olunur. Bu an sevincli məqam da ola bilər, kədərli məqam da. Yetər ki, həmin anın içində məna olsun.

Ömrünün cavan çağında ahıl ana obrazı ilə yaddaşlarda qalan aktrisa Leyla Rzayeva da qısa ömrünə böyük məna sığdıra bildi.

Biz onu "Böyük dayaq" filmindən Səkinə ana kimi tanıyırıq. Həmin obrazla sevilən aktrisa bir-birindən gözəl obraz yaratsa da, tamaşaçılar onu məhz "Səkinə ana" kimi sevmişdilər.

Uşaqlıq illəri müharibə dövrünə təsadüf edən Leyla Rzayeva orta məktəbi başa vurandan sonra Azərbaycan Teatr İnstitutuna daxil olub. Burada o, Xalq artisti, rejissor Mehdi Məmmədovun sinfində təhsil alır. Təhsilini başa vurduqdan sonra Akademik Milli Dram Teatrına dəvət olunur. Orada səhnə fəaliyyətinə başlayıb. Aktrisa ömrünün sonuna kimi həmin teatrda fəaliyyət göstərib. Səhnə aktrisa ikinci evinə çevrilir. O, həmin səhnədə birbirindən gözəl obrazlarla tamaşaçıların qarşısına çıxır.



Teatrda fəaliyyəti ilə yanaşı aktrisanın kino fəaliyyəti də diqqətdə kənarda qalmır. O, 959-cu ildə "Əsl dost", 1960-cı ildə "Aygün" və "Səhər", 1962-ci ildə "Böyük dayaq", 1963-cü ildə "Əhməd haradadır?" və b. filmlərə çəkilib. Aktrisa "Böyük dayaq" filminə həmin filmdə Rüstəm kişi obrazını canlandıran xalq artisti Əsələgər Ələkbərovun dəvəti ilə gəlir. Yaşının və təcrübəsinin az olmağına baxmayaraq, müdrik ana obrazını məharətlə ifa edir. O, "Səkinə ana" obrazı ilə Azərbaycan qadının necə əxlaqlı, mədəniyyətli, müdrik, düşüncəli, ailəcanlı olduğunu bu vasitə ilə sübut edir.

Aktrisa kimi sevilsə də qadın kimi heç də xoşbəxt olmayan aktrisa iki dəfə ailə həyatı qurur. Birinci nigahından 3 övladı dünyaya gəlir - Məsumə, Xanlar və Qəmər. İkinci nigahından isə Əziz adlı oğlu olur. Aktrisanın dörd övladının ikisi - Məsumə və Xanlar dünyasını dəyişib.

İlk nigahdan olan qızı Qəmər məşhur müğənni, Xalq artisti Elxan Əhədzadənin həyat yoldaşı olub. Onların bu nigahdan Əhəd adlı övladları olur. Elxan Əhədzadənin ölümündən illər sonra oğlu Əhəd də dünyasını dəyişir. Nəvəsi Sona Rzayeva müsahibələrinin birində deyir ki, demək olar ki, nənəsi Leyla Rzayeva haqda çox dah məlumatı yoxdur. Çünki aktirsa çox erkən dünyasını dəyişdiyi üçün övladları da onu yaxşı xatırlamır. Ancaq böyüklərindən eşitdiyinə görə, aktrisa canlandırdığı Səkinə ana obrazı kimi mülayim və mehriban insan imiş.

Ömrünün yaşayıb, yaratmaq çağında olan aktrisanı əcəl yaxalayır. Belə ki, o, 1970-ci ildə beyninə qan sızma nəticəsində 40 yaşında dünyasını dəyişir.

Sərxan Kərəmoğlu həmkarından gileyləndi

Sərxan Kərəmoğlu həmkarı Rəvan Qarayevin ona hörmətsizliyini dilə gətirib.

Adalet.az xəbər verir ki, o, həmkarının ona qarşı hərəkətini hörmətsizlik adlandırıb: "Rəvan Qarayev adlı oxuyan var. Məni qonaq çağırdı. Sonra istirahət üçün hamam komplesinə getdik. Dedim həmkarıq, nə olacaq. Ancaq hardan bilim ki, bu adam məni qışın soyuğunda yolda qoyacaq. Gələndə yanında dostu da var idi. Hamamdan çıxandan sonra dedi ki, bizim başqa işimiz var. Mən anladım ki, onlarla sağollaşmalıyam. Taksi çağırdım. Onlar məni gözləmədi ki, taksi gəlsin, mən gedim. Sonra getsinlər. Qışın soyuğunda - fevral ayında məni yolda qoyub getdi. Ondan sonra bir dəfə də olsun soruşmadı ki, necə getdin?

Anlayıram, insanlıq halıdır, işi ola bilər. Ancaq diqqət göstərib halımı soruşa bilərdi".

Əntiqə

Emin Piri bodibildinq üzrə Avrasiya ikincisi oldu

Azərbaycanlı şair, Vətən müharibəsi iştirakçısı Emin Piri natural bodibildinq və fitnes üzrə keçirilən Avrasiya çempionatında gümüş medal qazanıb.

Adalet.az xəbər verir ki, İNBA (İnternational Natural Bodybuilding Association) tərəfindən keçirilən Avrasiya çempionatında "Men's Physique" kateqoriyasında yarışan şair ikinci yerə layiq görülüb.

O, açıqlamasında təəssüratlarını bölüşərək bu uğura gedən yoldan danışıb:

"Üç ildir ki, ancaq ev şəraitində məşq edirdim. İşdən gələndən sonra və ya yaradıcılıqla məşğul olduğum vaxtlarda, adətən gecələr - saat 12-də, 1-də, 2-də, 3-də evdə məşqlərimi edirdim. Son iki ayda isə içimdə bir həvəs yarandı; həm özümü bu yaşda gənclərlə, həm də yaşıdlarım arasında sınamaq istədim. Məşqçimin dəstəyi, həm də özümün nizam-intizamım, sərt pəhrizlərimiz və ağır məşqlərimiz sayəsində yarışa qatılmaq qərarına gəldim.





Müəllimimə mənə göstərdiyi böyük dəstəyə və xüsusən də bu prosesdə (həmin yeməklərin hazırlanmasında) daim yanımda olan anama sonsuz minnətdaram.

Nəticədə, istədiyim hədəfə çatdım, amma, düzü, hansı hissləri yaşadığımı ifadə etməkdə çətinlik çəkirəm. İnşallah, təkcə yaradıcılıqla, şeirlə kifayətlənməyəcək, bundan sonra idman sahəsində də fəaliyyətimi davam etdirəcəyəm. Cəmiyyətdə təbii, sağlam bodibildinq və fitnes mühiti yaratmaq, sağlam həyat tərzini təbliğ etmək niyyətindəyəm. Şairliyim və yaradıcılığım da təbii ki, öz yerində davam edəcək.

Göstərmək istədim ki, bir adam həm qazi, həm hərbçi, həm jurnalist, həm də şair, idmançı ola bilər. Hər şey insanın öz əlindədir. İnsan kamil varlıqdır və istəsə, bir neçə sahəni özündə cəmləşdirə bilər. Mən də məhz bunu sübut etməyə çalışdım".

Isparta - Türkiyənin gül qoxulu şəhəri

(əvvəli ötən sayımızda)

Pisidiya Antioxiyası xristianlıq tarixində də xüsusi yer tutur. Müqəddəs Pavelin fəaliyyəti ilə əlaqələndirilən bu qədim şəhər dini və mədəni turizm baxımından beynəlxalq maraq doğurur. Bölgədən keçən Müqəddəs Pavel yolu isə tarixi irsi təbiət mənzərələri ilə birləşdirən mühüm yürüş marşrutudur. Bu yol təkcə dini ziyarətçilər üçün deyil, həm də yürüş, macəra və mədəni səyahət həvəskarları üçün maraqlı istiqamətdir.

Eğirdir qalası, Dündar bəy mədrəsəsi, tarixi məscidlər və Isparta muzeyi də şəhərin keçmişini öyrənmək istəyənlər üçün əhəmiyyətli məkanlardır. Bu abidələr bir tərəfdən bölgənin memarlıq ənənələrini yaşadır, digər tərəfdən isə müxtəlif tarixi dövrlərin mədəni izlərini qoruyub saxlayır.

Ispartanı Türkiyənin digər turizm şəhərlərindən fərqləndirən cəhətlərdən biri də ekoturizm imkanlarının genişliyidir. Yazılı kanyon, Kovada gölü Milli Parkı, Gölcük Təbiət Parkı və Kızıldağ Milli Parkı təbiət həvəskarlarına fərqli səyahət təcrübələri təqdim edir. Bu ərazilərdə piyada yürüşləri, dağ velosipedi, quş müşahidəsi, kampinq, karvan turizmi və fotoqrafiya turları təşkil etmək mümkündür.

Xüsusilə Yazılı kanyonun qayalıqları, təbii su mənzərələri və tarixi yazıları, Kovada gölünün meşələrlə əhatələnmiş ərazisi insanı şəhər həyatının səs-küyündən uzaqlaşdırır.

Burada təbiət sadəcə seyr edilmir, onunla təmas qurulur. Məhz bu xüsusiyyət müasir turizmdə getdikcə daha çox əhəmiyyət qazanan ekoturizm istiqamətinin Ispartada inkişafı üçün əlverişli zəmin yaradır.

Bütün bu zənginliklər Ispartanı turizm investisiyaları baxımından da perspektivli bölgəyə çevirir. Şəhərdə butik hotellərin, kənd evlərinin, ekoloji istirahət mərkəzlərinin, dağ turizmi obyektlərinin və qastronomiya məkanlarının inkişafı üçün imkanlar mövcuddur. Gül və lavanda bağlarının ətrafında yaradılacaq kiçik hotellər, yerli məhsulların təqdim olunduğu satış məkanları və tematik turizm marşrutları həm turistlərə yeni təcrübə qazandıra, həm də yerli əhalinin iqtisadi imkanlarını genişləndirə bilər. Sağlamlıq və wellness turizmi də ayrıca araşdırılmalı istiqamətlərdəndir. Bölgənin təbii mühiti, dağ havası və sakit istirahət imkanları spa mərkəzləri, sağlamlıq hotelləri və reabilitasiya xidmətlərinin inkişafı üçün əlverişli şərait yarada bilər. Bununla yanaşı, belə layihələrin həyata keçirilməsi konkret tibbi infrastruktur, müvafiq lisenziyalar və investisiya əsaslandırmaları ilə dəstəklənməlidir.



Ispartanı beynəlxalq turizm bazarında daha geniş tanıtmaq üçün Antalya, Pamukkale, Konya və Kapadokya ilə əlaqələndirilmiş səyahət proqramlarının hazırlanması da məqsədəuyğun olardı. Belə marşrutlar Türkiyəyə gələn turistlərin səfər müddətini uzatmaqla yanaşı, ölkənin daha az tanınan bölgələrinin iqtisadi inkişafına da töhfə verə bilər.

Bununla belə, şəhərin turizm potensialının reallaşması üçün bir sıra məsələlərin həlli vacibdir. Beynəlxalq tanıtım kampaniyalarının genişləndirilməsi, xarici dillərdə xidmət göstərən bələdçilərin hazırlanması, nəqliyyat imkanlarının yaxşılaşdırılması, hotellərdə və restoranlarda xidmət keyfiyyətinin yüksəldilməsi əsas prioritetlər sırasında olmalıdır. Eyni zamanda, turizmin yalnız müəyyən mövsümlərlə məhdudlaşmaması üçün ilboyu fəaliyyət göstərən proqramların hazırlanması zəruridir. Ən başlıcası isə Ispartanı fərqləndirən təbii sərvətlərin qorunması inkişaf strategiyasının ayrılmaz hissəsinə çevrilməlidir.

Isparta Azərbaycan turistləri üçün də maraqlı istiqamət ola bilər. Təbiət qoynunda istirahətə, tarixi məkanlara, kənd turizminə, fotoqrafiyaya və fərqli mədəniyyətləri kəşf etməyə maraq göstərən azərbaycanlılar üçün bu şəhər Türkiyənin ənənəvi turizm marşrutlarından fərqli seçim təqdim edir.

Azərbaycan və Türkiyə arasında mövcud turizm əlaqələri nəzərə alınaraq Isparta ilə ölkəmizin turizm şirkətləri, hotelləri və sahəvi assosiasiyaları arasında əməkdaşlığın genişləndirilməsi məqsədəuyğun olardı. Qarşılıqlı tanışlıq səfərləri, infoturlar, gül və lavanda mövsümünü əhatə edən xüsusi səyahət proqramları bu əməkdaşlığın real nəticələr verə biləcək istiqamətlərindəndir. Xüsusilə Eğirdir gölü, Kuyucak lavanda bağları, gül yağı istehsalı müəssisələri və qədim tarixi məkanları birləşdirən üç-dörd günlük turizm proqramları Azərbaycan bazarında maraq doğura bilər.

Nəticə etibarilə, Isparta yalnız qızılgül və lavanda bağları ilə yadda qalan bir şəhər deyil. Bura qədim sivilizasiyaların izlərini qoruyan, tarixin müxtəlif mərhələlərindən keçərək özünəməxsus mədəni simasını formalaşdıran, təbiətin bütün rənglərini bir araya gətirən Anadolu məkanlarından biridir.

Onun minillik tarixi, mavi gölləri, əzəmətli dağları, bənövşəyi lavanda tarlaları və qızılgül bağları vahid turizm xəritəsində birləşəndə ortaya olduqca zəngin bir mənzərə çıxır. Ispartanı gələcəyin turizm mərkəzlərindən birinə çevirmək üçün təbii və tarixi sərvətləri qorumaq, onları müasir turizm xidmətləri ilə birləşdirmək və beynəlxalq miqyasda tanıtmaq lazımdır.

Bəzən bir şəhəri tanımaq üçün onun küçələrində gəzmək kifayət etmir. Onun tarixini oxumaq, torpağının yaddaşını duymaq, təbiətinin səsini dinləmək lazımdır. Isparta da məhz belə şəhərlərdən biridir: tarixin daşlara həkk olunduğu, təbiətin rənglərə çevrildiyi, qızılgül ətrinin isə şəhərin yaddaşına hopduğu bir Anadolu diyarı.

Sübhan

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı. kod: 200112 h\h Müxbir hesab: 0137010001994 S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161 İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A

Telefon: (012) 491-23-53

adaletqezeti@rambler.ru

adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500

Sifariş: 303

Çapa imzalanmışdır: 12.11.2026